
X-dan
SONRA
XANO

Xano

# *X-dan Sonra*

***Bakı - 2011***

Redaktor: Xano

Korrektor: Aytən Allahverdiyeva

Design and cover: Aytən Allahverdiyeva

Xano. "X-dan Sonra". Bakı 2011

e-mail: xeyalall@yahoo.com

facebook.com/hano.anarhistegzorsizt

facebook.com/xano.anarxist

© Xano , 2011

*Salam, əgər bunu oxumağa başlamısansa deməli nəsə marağını çəkən bir "şey" olub. Kitaba başlamazdan əvvəl bir az məlumat vermək istədim. Sonra başını ağrıtmayacam, kitabla təkbətək qala bilərsən. Kitab Roman janrında qeydə alınsa da tam roman sayılmır. 1 il ərzində ərsəyə gəlmiş bu oxuyacağın əsər tamamilə 20 ildə yaşadıqlarım, gördüklərim və yaşatdıqlarımdan ibarətdir. Hər yazı real həyatda baş vermiş hadisənin təzahürüdür.. Şübhəsiz ki, surreallığa da müraciət etmişəm. Kitabda oxuyacağın insanlar arasında bəlkə sən də varsan, hansısa sevdiyin və ya ondan bir hissə müəyyən bir personajda var. İçində kiçik başlıqlı bəzi hekayələr arasında kitabın fundamenti qoyulmamışdan, bir neçə il əvvəl yazılmışlar var.*

1. *Kitabda oxuyacağınız "Karmadan Küləyə" Karma ləqəbli birisinin mənə yazdığı bir məktubdur.*
2. *"Zibilxana içindəki Tullantı" isə Karma ilə xoş günlərin söhbətindən xatirədir.*

*Əsər fasilələrlə yazıldığından hissə-hissə oxusan daha çox yaşayacaqsan içindəkilərlə. Kitabı oxumağa tələsməyin hər gün bir səhifə də bəs edər..*

## *Mündəricat*


**İstehza**..........................................................................................1

**Qardaşlıq adası** ..........................................................................23

**Başsızlar ölkəsi**...........................................................................38

**Səssizlər yarımadası** ...................................................................60

**Qəza dayanacağı**..........................................................................79

**Məktublar dünyası**.....................................................................127

**İnsanlıq**........................................................................................157

**X-dan Sonra**.................................................................................161

# *İstehza*

Bu  gecə bir az qəribədir. Bir az da qəliz. Həmişəki kimi səma ulduzlarla doludur.  Ay bədrlənmiş.  Yəqin indi hardasa kimsə vampirə dönüb. Hərdən mən də istəyirəm vampir olmaq. İstəyirəm... İstəyirəm ki, bu heç nəyə yaramayan, öz uydurduğu yalanlarla yaşayan, nifrətlə qidalanan vəhşi adamların başını üzüm.. Amma sonra yenə də özümə gəlirəm. İnsan olduğumu xatırlayıram. Və mən indi burdayam. Həyat körpüsünün altında. Zamanın xaricində. Dünyanın ən coşqun çayı da donub daha axmır. Ay.. Bədrlənmiş ay.. Necə də şəffaf görünür sənin üzündəki ləkələr. Sənə paxıllığım tutur. Sən indi istədiyin və istəmədiyin hər yeri görə bilirsən. Sənə paxıllığım tutur heç kimdən və heç nədən asılı deyilsən. Azadsan. Mən də istərəm o azadlığı. İstərəm dadım ondan. Onu elə gözləyirəm ki. Yeni doğulan körpənin ana döşlərindən gözlədiyi süd kimi.İçimdə yanğım var. Amma qorxuram onu büruzə verib çölə çıxartmağa. Qorxuram ki, o hər şeyi məhv edər. Yandırar hər varlığı. Hətta var olmayanları da. Qoy ondansa içimdə qalsın bu yanğım mənim. Amma onsuz artıq kimim var ki.? Nə qohum, nə ailə, nə dost, nə də sevdiyim bir nəfər belə yoxdur artıq. Heç kimim yoxdu. İndi təkcə Mənəm Mənimlə üzbəüz. Hətta

özümdə anlamıram niyə diz çökürəm qarşımda. Həzin külək. Qulaqlarımda cingilti. Hə, külək eşidirəm səni. Nə söyləmək istərsən mənə.? Hər gecə olduğu kimi.? Heçnə.? Axı mənim ehtiyacım var. Sənə.? Yox.. Amma nəyəsə.. Bəlkə də kiməsə. Bəlkə də. Bilmirəm. Bu gecə bir az təlatümə ehtiyacım var. Bəlkə içimdə dalğalar baş versin. Bəlkə oyansın içimdə yatan rahat ruhum.. Həyat ruhum. Gizli yuxum...

Son.. Bu bəlkə son arzumdur. Bəlkə də son yuxumdur. Bəlkə də sadəcə anlaşılmayan, sirrli amma həm də aydın və təbəssümlə anacağım bir təxəyyüldür. Yəqin ki, boş bir xəyaldır. Həm də biraz səbəbsiz, bəlkə də səbəb çoxdu amma başa düşülməyən məqamlar da çoxdu, yəqin bilirəm ki, məni nə gözləyir.. Bir az sirrli, biraz qəliz, tutqun yaddaşdan qalan dumanlı sözlər kimi. “Sən daha lazım deyilsən.!” “Sən daha lazım deyilsən.!” Aydındı.. Burda təəccüblü heçnə yoxdur. Hər bir başlanğıc öz sonunu başqa bir başlanğıcın qucağına ataraq öz finalını gözləyir.. Hərdən bu finallar çox gec gəlir. Hərdən isə... Hətta gözlənilməyən anda bir dəqiqənin içində hər şeyin bitdiyini anlayanda belə içində çox qəribə bir hiss qalxır. Yenə də anlaşılmayan, sirrli amma həm də aydın təbəssümlə anılacaq bir hiss. Hiss edirsən ki, təkrarlar çoxdu.? Amma bunu sən də bilirsən ki, həyatımızda hər şey,

hər bir hadisə, hər bir an düz və ya səhv baş verir. Amma hərdən sanki biz həyatımızın bu hissəsində gördüyümüzü, duyduğumuzu sanki nə vaxtsa təkrarən yaşamış oluruq.

Biz yaşlanmış oluruq hərdən.. Bədənlə ruhun yaşı üst-üstə gəlmir. Hərdən daşlanmış oluruq. Bizə də pay düşür şeytana atılan daşların hirsindən. Dərindən fikirləşmək gərəkdir islanmış dərdlərin əlindən.. Bir də əzab çətirindən qıraqda yağan zülm qardaşlarının eşq fəlsəfəsindən..

Özüm də bilmirəm indi nə istədiyimi. Daha bu həyatda heç bir amalım yoxdu.Nə hansısa yaşama səbəbim, nə hansısa ölmək üçün məqsədim. Nə edəcəyimi də bilmirəm. Qəribədir. Vəhşi sakitliyimi nəsə, hansısa səs pozur. Deyəsən ayaq səsləri.. Özüdə arxadan gəlir. Bəlkə kimsə yaxınlaşır..? Onsuz itirməli nəyim var ki.? Bir canım var onu da qoy alsınlar. Ayağa durdum. Döndüm. Uzaqdan kimsə gəlirdi. Get-gedə yaxınlaşırdı. Ayın zəif  işığı indi onun üzünə düşürdü. Geyimindən səfilə bənzəyirdi. Düzü indi mənim geyimim heç də ondan yaxşı deyildi. O yaxın gəldi. Salam verdi..

- Salam..
- Salam. (mən bir az qorxu həm də təccüblə)
- Deyəsən təksən..?

- Nəsə lazımdı.? (bir addım geri çəkildim, hər şeyə hazır olmalı idim)
- Yox, yox qorxma. Mən sadəcə tək olduğunu gördüm. Burda tək-tük hallarda sənin kimi insanlar olur.
- Necə.?
- Belə də.. Elə sənin kimi.. Hər şeyini itirmiş, heçnəsiz biri.. Həyatından bezmiş biri.

Məni tanışlıq marağı bürüdü.. O məni demək olar ki, öz sözləri ilə yazmışdı. Qəribə idi. Üzümə baxaraq o mənim həyatımı necə anlamışdı.? Özümə gəldim. Təəccübümü gizlədə bilmədim və soruşdum:

- Düzdür.. Bəs sən bunları hardan bildin? Necə əminliklə tanımadığın insanın həyatını söyləyə bilərsən.?
- Bilirsən...(Bir az fikrə getdi) Mən də bir vaxtlar belə idim.. Sənin kimi. Hə, bu arada  tanış olaq. Mənim adım Babək. (əlini uzatdı)

Mən bir addım da irəli getdim, yaxınlaşdım, əlini sıxdım və dedim:

- Mən də Əlinur.

Biz keçdik və oturduq. Gecə yenə sakitliyi ələ aldı. O danışmırdı. Oturmuşdu. Gözlərini aya

zilləmişdi. Həyat necə də qəribədi. Yanımda oturan demək olar ki, haqqında heçnə bilmədiyim insan. Nə qədər fərqli olsaq da oxşarlığımız da büruzə verirdi. Qırışlaşmış sifəti həyatının əzablarından xəbər verirdi. Çatılmış qaşları, düyünlənmiş alnı, uzaqlara dalmış gözlərilə aya baxırdı. Sanki indi o öz xəyal dünyasında idi. Cismi mənlə.. Ruhu isə uzaqlarda.. Əllərinin qabarları keçmiş həyatının xoş olmayan səhifələrinin teoreminin təsdiqi  idi. Doğurdanmı..?

Doğurdanmı, görəsən, bu mənim gələcəyimin prototipi idi? Öz-özümə də gülməli gəlirdi. Həyatın yazılmamış qanunları bu qocanın sifətində möhürlənmiş yazılar kimi idi. Zaman nə qədər  keçdi bilmirəm. O birdən sanki qayıtdı buralara uzaqlardan və mənə tərəf döndü sözünə başladı:

- Hə, Əlinur danış görək.. Buralarda nə işin var.? Nələr itirmisən ki, sən indi buralardasan..?
- Heç özüm də bilmirəm.. Amma artıq nə mənası. Heç kimim qalmayıb. Nə də heç nəyim. Daha nə edəcəyimi də bilmirəm. Hara gedəcəyimi də.
- Hə, dostum. Deyəsən sənin həyat işığın sönüb. Mən də sənin yaşında hələ səndən bir az da balaca olardım. Məndə çox şey yaşamışdım. Həyatım hələ təzə başlayırdı.. Amma hər kəsimi itirdim. Amma sənin hələ də seçimin var. Hələ də şansın var. Mən o vaxtı seçimimi

səhv etdim. Amma sən yanılma. Sən indi bu yaşlı qocaya bax. Görürsən nə hallara düşdüyümü. Heç düşmənimə belə arzulamıram. İndi dinlə məni bəlkə indi danışacağımın sənə seçimində köməyi oldu.

Mən çiynimi əyləşdiyim ağaca söykədim və yaşlı qocanı dinləməyə başladım.

## *Xoşbəxtlik axtarışında*

Xoşbəxtlik... Xoşbəxt olmaq... Xoşbəxtlik axtarışında daim günlərimiz, aylarımız, illərimiz gedir. Hər saniyə, hər dəqiqə, hər saat, zaman adlı çay öz axarı ilə axdıqca biz öz içimizdə fərqlilik yaratmaq düşüncəsi ilə axına qarşı üzürük... Kimi bir saniyə, kimi bir dəqiqə, kimi bir gün, kimi bir ömür həsr edərək sanki əvvəlcədən yazılmış kitabın mündəricatında sətirsiz başlıqları dəyişməklə özünü anlamağa çalışır... Mən... Sən... Biz... Onlar... Hamımız... Bütün bəşəriyyət... İstər Peyğəmbər olsun, istər Anti-bəşər... Biz özümüzü tapmadıqca, anlamadıqca nəinki ətrafımızda, dünyamızda baş verənləri hətta öz içimizdəki dünyanı, öz dünyamızı belə başa düşə bilmərik... İnsana az ya çox, asan ya çətin verilən ömür adlanan limiti hamımız həyat

adlandırmaq istəyirik. Elələrimiz var ki, adlandırırda... Amma hər il öz doğum gününü böyük təntənə ilə, öz yarısını tapmağı böyük həvəslə, gələcəyini qurmağı, nəsil-nəcabət yaratmağı böyük maraqla qeyd etməyi Həyat adlandırmaq olmaz... Bu sadəcə bizə verilən bu limitdə ömür sürməyimizdir... Həyat isə...

Həyat - öz təfəkkürün, anlayışın ən yüksək səviyyəsi, dərrakənin genişlənməsi, bütün şüur sərhədlərini keçərək özünü, içini, sonra ətrafı, təbiəti, dünyaları anlamaq, duymaq, hisslərə dalmaq, kəşf etmək...

Həyat – çox qəribə, çox da anlaşılmayan, hərdən təəccüblü, hərdən təkəbbürlü, hərdən mürəkkəb, hərdən mücərrəd, hərdən hər varlığı təcəssüm etdirən, hərdən bütün bunlara təəssüf etdirən, bəlkə çox asan, bəlkə çox çətin, kimsə üçün bəsit, kimsə üçün konstant, bəzilərinə ironiyalı yaddaş, bəzilərindən isə qalan boş baş daşlarıdır... Amma bunlar da həyatı anlamaq üçün çox az, cüzi, milyonlarla kiçildilmiş dərəcədə az bir anlamdır...

Ömür limitinin bitdiyi anda onu həyat adlandırmaq üçün xoşbəxtlik deyilən məfhumu anlamaq, dadmaq, tanımaq lazımdır... Bəs xoşbəxtlik..? O nədir..? Ya necədir..? Kimə aiddir..? Hardan gəlib..? Nədən yaranıb..?

Məncə xoşbəxtlik deyilən bir hiss yoxdur... O hətta heç vaxt mövcud olmayıb... Siz öz-özünüzə fikirləşə bilərsiz ki, “axı mən xoşbəxtəm yaşayışım yaxşı, dolanışım yaxşı, sevdiklərim yanımda, pulum, var-dövlətim, istədiyim hər şeyim var... Və mən xoşbəxtəm...” ya da bəziləriniz “nə evim var, nə maşınım, nə sevdiklərim, nə sevənlərim, heç kimim yoxdu. Pulum ancaq çörək puluma yetir. Amma mən xoşbəxtəm...” Hər halda göründüyü kimi fərqlər çox böyükdür. Amma hər iki halda, müsbət ya mənfi fərqi yox, insanlar xoşbəxt olduqlarını düşünürlər... Bəs onda bu necə olur ki, iki əks şəraitdə yaşayan, ömür sürən insanlar ikisi də eyni hissi anlayıb, duya bilirlər..? Xoşbəxt olduqlarını düşünürlər..? Biz xoşbəxt olduğumuzu deyə bilərik, bu haqda yaza, oxuya bilərik, hətta onun varlığını uca tutub, onu göylərə də qaldıra bilərik...

Amma xoşbəxtlik yoxdur... Xoşbəxtlik xoşbəxtsizlik duyğusunun gücündən istifadə edərək ömrünü, yaşamını öz istədiyin kimi görməyə, eşitməyə, duymağa, hiss etməyə imkan verən və beləcə onu haqlı olaraq “Həyat” adlandırmağa sövq edən bir məfhumdur... O mücərrəddir... Xoşbəxtlik özünü anlamaq dərəcəsidir...Nə qədər öz təfəkkürün inkişaf edibsə, nə qədər öz anlayışın çoxdusa sən bir o qədər xoşbəxtsən... Və sən yaşadığın bu müddətə

Həyat deyə bilərsən, bu artıq səndən asılı olmayaraq baş verir... Sən ətrafındakı dünyanın mənasız, məntiqsiz, darıxdırıcı, cansıxıcı, lazımsız, qiymətsiz olduğunu düşünüb, qəbul edirsən... Amma anlamırsan ki, iş sənin ətrafında baş verənlərdə deyil, iş sənin içindədir, səndədir, özündədir... İş sənin gözlərindədir... Sən o gözlərlə dünyanı istədiyin kimi görə bilərsən... Amma əgər bu sənə bəs eləmirsə deməli sənin öz məqsədinə nail olmaq üçün ya istəyin azdı, ya da sən ona lazımi nöqteyi-nəzərdən baxmırsan...

Hər Şərdə bir xeyir var boş yerə deyilmiyib... Sən istəsən hər bir varlıqda istədiyini görə bilərsən... Sadəcə ona yaxın olan, ən düz və qərəzsiz yolu seç və lazımsız bir varlıqda görmək istədiyini görə biləssən, bacarassan, görəcəksən... Xoşbəxtlik axtarışında... Biz hamımız demək olar ki, bu yolla gedirik, kimi yarı yolda qalır, kimi yolun sonuna çatdığını düşünür... Amma bu yolun başlanğıcı bilinməzdir... Onun hardan başlandığını heç kim bilmir... Sonu isə yoxdur, mövcud olmayıb, heç vaxt da olmayacaq... Çünki biz nə qədər irəli gediriksə gedək xoşbəxtlik axtarışında addımladığımız bu yol bir o qədər dəfələrlə uzanır... Amma get-gedə intibah baş verir... Hisslərimiz canlanır... Yeni hisslər dünyaya gəlir... Yeni səbəblər, yeni məqsədlər, yeni ümidlər, yeni xəyallar, yeni

arzular meydana gəlir... Kimi öz hisslərini tez öldürür, yox edir bütün gözəllikləri, kimi isə can verən hisslərini yaşama qaytarır onlara qanad verir... Qanad verir ki, onlar da onu təslim olmağa, tək qalmağa qoymasınlar, öz-özlərinə dəstək olsunlar... və beləcə insan özünü dərk etməyə doğru addım atmış olur... Hərdən fikirləşirik: “Artıq yaşım çox ötüb, bəlkə də son illərimdi. ” deyə... və bu yolda itirdiklərimizi yadımıza salırıq, çox təsirli olsa da keçmişin artıq ötdüyünü anlayırıq və xoşbəxtlik axtarışına çıxdığımız bu yolda qazandığımızı, əldə etdiklərimizi, bizim olanları düşünürük... Kimində çox kimində az... İtirdiyimiz milyonlarla amma qazandığımız bir... Dəyər yoxsa dəyməz..? Kimimiz tapırıq... Kimimiz yox... Amma necə olur-olsun hamı bir gün anlayır ki, elə xoşbəxtlik ömrünü onun axtarışına sərf etməkdir... O mövcud olmasa da onun yoxluğunu varlıq kimi dərk edə bilməkdir...

O sözünü bitirdi. Amma daxil olduğu xəyallardan hələ çıxa bilməmişdi.. Mən çox fikirləşdim. Mən.. Özüm.. Mən.. Özüm.. Nə istəyirəm..? Kiməm..? Beynimdə hələ çox suallar fırlanırdı. Bilmirəm. Yenə də bilmirəm.. Özümü anlaya bilmirəm. Bəs bu qoca..?

Mənə ağıl verən bu qoca.? O niyə bu gündədir.?! Elə yaxşı bilirdisə həyatı niyə indi buralardadı..?  Suallar beynimin divarlarını qara kinli mismarla döyəcləyirdi. Fikirlərimi dondurdum və ona baxdım. Doğurdanmı bu insan özünü Azadlıq simvolu olan Babək sanır.?! Bəs Əlincəsi hanı.?!! (ha-ha-ha) Mübarizə  dayanmır hələ də.. O mənə baxdı sanki fikirlərimi oxuyurdu. Əlini çiynimə qoydu dedi:

- Görürəm içində minlərcə sual var. Bəlkə bəzilərinin cavabını tapmağa mən kömək edə bilərəm. Amma qalanını özün tapmalı olacaqsan..

Təəccüb.. Fikirlər.. O deyəsən həqiqətən də müdrik imiş.. Ondan soruşdum:

- Bəs sən.? Sənə nə olub.? Niyə həyatın bu günə düşüb.? Nəyi itirmisən.?! Kim olmusan.?! İndi kimsən.!

Onun gözlərində təəccüb vardı. Bu qədər əsəbi halda verdiyim suallar elə bil ona dağ ağırlığında gəlmişdi və sanki o əzilirdi mənim dayanmadan tətiyini çəkdiyim suallar qarşısında..

- Mən.? Mən indi heç kiməm. Heç nəyi olmayan bir səfil.. Sənə isə bunları ona görə danışıram

ki, mənim günümə düşməyəsən.. Həyatın hələ irəlidə səni sürprizlərlə gözləyir..

O dərindən ah çəkdi..... və sözünə başladı..

## ***Pisliyin içindəki Şeytanım.***

- Soyuqdu… Çox soyuqdu…
- Qışdı..?
- Yox…
- Bəs nə..?
- Üşüyürəm... Sızıltım sümüklərimə işləyir... Mənə çox soyuqdu... Ruhum donur içimdə... Sinəmdə ağrı var...
- Ürək..?....
- Bilmirəm... Ən son yadımda qalan .., yadımda qalan.., hə yadıma düşdü... Səsdi...
- Nə səs..? Kimin səsi..?
- Bilmirəm... Bəlkə də bilirəm amma yadımdan çıxıb... Xatırlaya bilmirəm...
- Niyə..? Nə olub..? Danış mənə..! Axı mən elə sənəm..! Danış gizlətmə..! Yox dayan..! Heç nə danışma mənə... Sən hər şeyi gizlətməlisən..! Dur ayağa..! Bərk ol..! Məndən yapış, sənə dəstək olacam, ağlama..! Axı mən elə sənəm....

- Yox..! Dözə bilmirəm... Kiməsə nə isə deməliyəm... Bunu içimdə saxladıqca qırılıram, sınıram, divarlar üstümə gəlir sanki...
- Onda mənə danış.!
- Yox..! Mənə danış..!
- Mənə danış..!
- Yox mənə..!
- Mənə...!
- Mənə...!
- Mənə...!
- Bura çox sakitdi... Niyə bu qədər sakitdi bura..? Eşidirsən..? De görüm niyə sakitdi..? Bəs onlar hanı..? Ailəm..? Dostlarım..? Sevdiklərim..? Eşitmirsən..? Səninləyəm onlar hardadı..? Neynəmisən onlara..?
- Mən.......? Yooоox dostum yox yox... Bunu sən eləmisən... Sən..! Mən yox..!
- Nə..? Mən..? Nə giclәyirsən..? Mən heçnə eləməmişəm..!
- Düzdü sən elə mənsən... Amma bunu sən eləmisən... Sən sən sən sən sən...... Bunu sən eləmisən... Axmaq, fikirləş mənim əlim-ayağım yoxdu... Sən maddisən mənsə xəyal... İndi özün fikirləş bunu kim eliyib..?
- Nolub..? De mənə eşidirsən..? Deeeeee..... De görüm nolub axı... Nolar deee... Qurban olum deee... Nə istəsən eliyəcəm... Amma de.... de.... de....
- Dayan dayan dayan ..! “ Nə istəsəm ” dedin..?

- Həəəəə, həəəəə, həəəəə, nolar de dəəəəə eliyəcəm, eliyəcəm, nə istəsən eliyəcəm… Axı sən də mənsən, sən hər şeyi görmüsən,
- bilirsən, mənim yadımda deyil, de mənə...
- Yaxşı de görüm son yadında qalan nədi..?
- Bəyaq dedim axı ancaq səs... O səs... Kimsə yalvarırdı, elə bil ağlayırdı hönkürtü ilə, yalvarırdı elə bil: “Öldürmə, öldürmə, öldürmə məni... ” Sonra heçnə yadımda deyil...
- Həəəəəə.... (ha-ha-ha-ha) Bax elə əsas ondan sonra oldu...
- Nə oldu..? Neynəmişəm..? Sən mənə neynəmisən..?Axı niyə heçnə yadımda deyil..?
- İcazə ver soruşum..: “ Onları bura necə çağırdığın yadında.?, sonra necə əl-qollarını bağladığın.?, o da yadında deyil.?, bəs benzini hara boşaltdığını da unutmusan.?, yox bircə demə ki, “Zippo”-nu necə alışdırıb onların üstünə atdığında o boş başından silinib.?! ”
- Yoooooox…… yoooooox…… yoooooox…. Bircə bu yox… Onları niyə öldürmüsən alçaq..? Niyə axı..? Onların nə günahı vardı..? Neynəmişdilər sənə..?
- Yox… Bunu mən eləməmişəm… Bunu sən eləmisən, sən, sən, sən, sən… Axı sən maddisən mənsə xəyalam …
- Bəs niyə heç nə yadımda deyil..? Mən bunları niyə eləmişəm..? Bəlkə sən yalan deyirsən..? Yox..! İnanmıram sənə..! İnanmıram..! İnanmıram..!

- Yaxşı necə istiyirsən... İndi inanarsan... Köynəyini qaldır... Görürsən qolundakı izləri..? Yaxşı yaxşı bax... Onsuz bir azdan heç nə xatırlamayacaqsan.. Həəəəə.... balaca dostum sən beləsən...Biz beləyik... İndi yenə kimisə öldürəcəksən, nəyisə unudacaqsan... Nə üçün..? Bir müddətlik hər şeyi unutmaq üçün..? Yenə soyuqdu hə..? Titrəyirsən..? Nə istiyirsən..? Bilmirsən..? Mən bilirəm... İynəəəəəəə..... iynəəəəəəə...... iynəəəəəəə.....
- Bəs sən niyə mənimləsən..? Səni niyə öldürə bilmirəm..? Niyə..? Niyə..? Niyə..?....?????
- Ha-ha-ha-ha.... Hə bax bunu sən bacarmamısan heç vaxt, indi də bacarmırsan, bundan sonra heç bacarmıyassan... Çünki sən iradəsizsən... Sənin mənə əlin qalxmaz, çatmaz, sən mənə toxuna bilməzsən... Axı mən elə sənəm... Amma mən həmişə səninlə olacam... Hər dəfə yadına salacam unutduqlarını... İndi isə uzan onsuz az qalıb... az qalıb... az qalıb dəyişirik... az qalıb dəyişirik...
- Bəs sən kimsən axı..? Kimsən axı..? Kimsən..?
- Mən..? Mən elə sənəm... Sənsə elə mənsən... Sən maddisən, mənsə xəyalam... Mən 3 sözəm... Unutmusan..? Sən məni belə çağırırsan..: “ Pisliyin içindəki şeytanım... ”

Yaşlı qoca titrəyən qabarlı əlləri ilə dolmuş gözlərini sildi və söhbətinə davam etdi.

- O vaxtlar mənim 16 yaşım vardı. Səndən hələ 2-3 yaş da balaca idim. Uşaq idim. Onda mənə ancaq iynə tapanlar "dost" idi. Sevdiklərim, yaxınlarım, ailəm.... Hamısı yox oldu.. Hamısını mən yox etdim.. Hamısı da bu cəmiyyətə olan nifrətimdən başlamışdı. Sonralar məni heç kim mühakimə etmədi.. Məni dörd tərəfi bağlı bir otağa saldılar.. Dəlixana.. Sonra Xəstəxana.. 5 il müalicə aldım.. Dedilər düzəldi.. Hər şey yaxşıdı. Çıxdım ordan.. Amma heçnə yaxşı olmadı. Təsəvvür elə bütün seviklərini öldürən bir insan. Məni hər yerdən qovurdular. Amma axı mən dəyişmişdim.. Qəbul etmədilər məni... və mən də indi gördüyün bu yaşlı, qoca, kimsəsiz Babəkəm..!

Sözünü bitirdi amma göz yaşlarını bitirə bilmədi. O indi mənim üçün arzuolunmaz nümunəyə çevrilmişdi. Onun səhvlərindən qaçınıb, gələcəyimi quracaqdım. Amma necə.? Hardan başlayacaqdım.? Nə axtaracaqdım.? Nəyə görə.? Artıq günəş çıxırdı. Onun şüaları hələ özü görünməmişdən qəribə cizgilərlə rəngləyirdi səmanın üzünü.. Bu mənim ümidim oldu. Nə qədər ki, günəş çıxacaq deməli mən hələ də varam.! Qoca üz-gözünü köhnəlikdən cırıq-

cırıq olmuş köynəyi ilə sildi. Mənə baxdı. Ayağa durdu.. Mən də durdum, o əllərini çiynimə qoydu və vidalaşırmış kimi danışdı:

- Əlinur, sən bu həyatda hələ heçnə görməmisən.. Bu yaşadıqların, itirdiklərin görəcəyin, biləcəyin, yaşayacaqlarının yanında heçnədir.! İndi özünə yeni bir səhifə aç. Həyatında yeni bir səhifə. Bu səhifəni atacağın addımların altından qalxan tozlarla yaz.. Amma istədiyin kimi.. Həyatda həmişə istədiyin kimi ol. Çalış olduğun kimi görün.. Göründüyün kimi yaşa.. Elə yaşa ki, onunla fəxr edə biləsən. Elə fəxr et ki, fəxr etdiyin kimi ölə biləsən... Sənə bu dünyada ən çox nə lazımdısa onu axtar..Addımlar səni hara aparsa da özün ol və heç vaxt yaddan çıxarma ki, sən İnsansan..!

O sağollaşdı və getdi. Mənsə təklikdə günəşi qarşılayırdım. Artıq bir çox suallarıma cavab tapmışdım.. Mənim yenidən ümid çantam dolmuşdu. Onu çiynimə alıb uzaqlara gedəsiydim.. İndi axtarışına çıxacaqdım.. Azadlığın.. Sevginin.. Həyatın.. Yeni həyatın.. Mən özümü anlamaqçün, həyat tapmaqçün gedirəm buralardan.

Mən yeni həyat axtarışına çıxacam.. Keçmiş səhifəni bağlayıb, yeni bir səhifə açacam həyatımda..

O səhifə ki, onu özüm yazacam.. Və mən özümü bilmirəm haralarda  bilmirəm nə zaman..  Amma mən özümü anlayacam.. mən özümü tapacam..

## *Qardaşlıq adası*

Artıq iki gündür dayanmadan üzürük. Bəlkə də itmişik bu okeanın ortasında.. Okean da göy üzü kimi təmiz və günahsız görünür. İrəlidə heçnə yoxdur sudan başqa.. Amma kapitan deyir ki, az qalıb.. İki-üç gün və biz quruya çatacayıq..

Daha iki-üç gün öncə həyatı bitmiş bir insan idim.. O insan ki, daha heçnə edə bilmirdi, heçnə istəmirdi bu həyatdan. Amma yaşlı bir qoca əsrlərin müdrik dağları kimi mənə kömək oldu.. Bəlkə də istəmədən alındı hər şey.. O sanki mənim məhv olmaq üzrə olan ürəyimə yeni həyat eşqi sancdı... və mən indi axtarışdayam..  Üç gündür tanımadığım insanlarla gəmidə üzürəm.. Hara getdiyimi dəqiq bilmirəm.. Amma gedirəm.. Gedirəm ki, içimdəki "məni" anlayım.. Mənim "mən" olmaq arzumu...

Üç gün.. Sakit və həzin dalğaların qoynunda lal axan axınla.. Kapitan.. Sanki gəmi onun bir hissəsidir.. Bir orqanıdır.. Amma beyin kimi ağıllı, ya da ürək kimi hissiyatlı olmayan bir orqan.. O gəmini öz canı kimi sevir.. Artıq neçə illərdir o bu dənizlərdədir.. Okeanlardadır.. Bu üç gündə biz onunla çox söhbətlər etmişik.. Çox dərdlərdən danışmışıq.. O da mənim kimi tək-tənhadır.. Bir

gəmisi var indi. Bir də mehriban ekipajı. Bu ekipajla o illərdir səyahətlərə çıxır. Onun həyatı sulardadır.. Dediyinə görə bir oğlu olub. Onu da mənim atam kimi müharibədə itirib. Həyat yoldaşı isə oğlunun yoxluğuna dözə bilməyib. Bir gün yatıb və daha oyanmayıb. Bəhruz adlı bu dənizçi indi ömrünü səyahətlərə həsr edib. Onun danışığından bəlli olur ki, çox yerlərdə səyahət edib. Amma dediyinə görə hələ heçnə bilmir.. Hələ çox yerlərə gedəcək, çox şeylər öyrənəcək..

Artıq beş gündür ki, biz üzürük. Qida ilə problemlər var. İçməli su da tükənməkdədir. Əgər iki günə quruya çatmasaq çoxları tab gətirməyəcək. Ekipaj nə qədər çalışsa da narazılığını gizlətsin amma görünür onlar da bilinməyən yerə üzməkdən beziblər. Kapitan isə hələ də öz fikrindədir. Az qaldığını elə hey israrla deyir.Artıq qaranlıq düşür.. Ay isə nəsə görünmür.. Göy üzünü qara buludlar alıb. Kapitan mənə yaxınlaşdı.:

- Deyəsən fırtına olacaq. Bərk dur. Yəqinki, birinci dəfədir ki, belə bir şey görəssən. Amma narahat olmağa dəyməz. Biz bu gəmi ilə çox fırtınalardan itkisiz çıxmışıq.

O getdi. Amma içimdə qorxu oyandı. “Çox fırtınalardan itkisiz.?!” Bəs itki verdikləri fırtınalar nə

qədər olub.?! Yox.! Yox.! Yox.! Mən həyatımda yeni səhifə açmamışam ki, ona başlamamış hardasa okeanın içində ölüm.! Yox.! Heç cəsədimi də tapmazlar burda.! Amma kimdi ki, məni axtaran.? Sonuncu fikrim mənə heç kimim olmadığını xatırlatdı. Amma çaxan şimşək içimə yenidən qorxu saldı. Güclü yağış.. Külək.. Şimşək.. Uğultu.. Dalğalar bizimlə "məzələnir." Bizim gəmini futbol topu kimi o tərəf, bu tərəfə atır. Yüksək qalxan dalğalardan gəmiyə tökülən suları boşaldırlar.. Yelkəni tutan kim, qışqıran kim, su boşaldan kim.. Mənsə donub qalmışam. Elə bil mən orda yoxam.. Məni başımdan aşağı tökülən okeanın buz kimi suyu oyatdı. Kapitanın qışqırığı.. Təşvişə düşdüm.. Ən yaxındakı vedrəni əlimə alıb gəmidən su boşaltmağa başladım. Kapitansa hələ də qışqırır. Şimşək dalğaları parçalayır.. Bizsə elə hey o tərəf bu tərəfə oynayan gəminin içində yırğalanırıq. Birdən Kapitan qışqırdı:

- İrəlidə nəsə var.. Nəhəngdi.. Biz çırpılacayıq.. Qurtulun..!!!

Və biz qayaya çırpıldıq.. Gəmi parçalandı. Heyət isə pərən-pərən oldu.. Mən suya düşdüm və sonra huşumu itirmişəm..

Aydın səma.. Parlaq günəş gözümü qamaşdırdı.. Bədənimin ağırlığını hiss edirəm. Hardayam mən.?

Bura haradı.? Mən bura necə düşmüşəm.? Qumun üstündə uzana qalmışam. Ləpələr bədənimi yuyur və yenidən qumlardan süzülərək geriyə qayıdır. Məndən bir az aralıda kimsə uzanıb. Yorğunluqdan və günəşin şüalarından tanıya bilmirəm.. Gözüm yumulur....

Bəlkə iki saat.. Bəlkə iki gün keçib.. Gözlərimi yenidən açıram.. Günəş üfüqdədir.. Bu dəfə gücümü toplayıb ayağa qalxıram.. Yanımdakı kapitandı. Halsız uzanıb. Amma sağdı və gözlərini mənə zilləyib. Gülə-gülə əlini mənə uzatdı və dedi:

- Bir özünə bax, mən səndə dənizçi ruhu gördüm. Sən çox cəsurcasına bizimlə vuruşdun o amansız fırtınaya qarşı. Amma nə etmək olar o qalib gəldi. İndi heç kimdən xəbərimiz yoxdu. Gəmi parçalananda sənin dalınca tullandım suya huşunu itirdiyindən səni bura kimi mən gətirdim. Çiyinlərimdə üzmüşük bura kimi.. Heç özüm də bilmirəm hardayıq..

Əlimi uzatdım və onu qaldırdım. İndi təkcə ikimiz qalmışdıq..  İkimiz də yorğun. Qarşımızda meşəlik var. Addımlar get-gedə düzəlir. Görəsən biz neçə gündü burdayıq.? Kapitanın qarnının qurultusu bu günlərin az olmadığını xəbər verdi. Yorğun-arğın güldük.. Hardasa bir neçə saat yol getdik. Qarşıda nəsə işıq vardı. Tonqala bənzəyirdi. Biz

sevincimizdən qaçmağa başladıq. Çatdıq. Çoxlu taxtadan düzəlmə evlər.. Çöldə isə sakitlik heç kim yox.. Bir evə yaxınlaşıb qapını döydük. Balaca bir uşaq açdı. O nəsə heç vaxt eşitmədiyim bir dildə mızıldandı və içəri qaçdı. Bir neçə saniyə sonra bir yaşlı kişi gəldi. O nəsə deyirdi. Amma mən anlamırdım. Birdən Kapitan da onun kimi danışmağa başladı, sanki nəsə başa salırmış kimi. Üç-dörd dəqiqəlik söhbətdən sonra yaşlı kişi qapını geniş açdı və əli ilə bizi içəri dəvət etdi.. Kapitanın arxasınca mən də girdim. Ev üç otaqdan ibarət idi. Otaqlar balaca olsa da çox yaxşı vəziyyətdə idi. Amma mənim bu yaşlı kişinin niyə bizi – tanımadığı şəxsləri içəri buraxması maraqlandırırdı. Bəs Kapitan.? Kapitan bu dili hardan bilirdi.? Biz yerdə oturduq. Süfrə açıldı. Yaşlı kişi kapitanla çox ehtiramla danışırdı. Bir müddət sonra kapitan təəccüb içində olduğumu gördü. Dönüb qocaya nəsə dedi. O da gülərək başını yellədi. Sonra dedi:

- Mənim bir dostum buralardan idi. Ondan öyrənmişəm bu dili. Bu yerin adamları çox ədəb-ərkanlıdılar. Hətta gecənin yarısı düşmən də gəlsə üzünə qapı bağlamazlar. Amma onsuz bu adada çox az adam yaşayır. Hamı bir-birini tanıyır və heç kim də düşmən deyil. Çox mehriban insanları var.

Mənsə sakitcə başımı yellədirdim razılıq əlaməti olaraq. Yemək gəldi və biz yedik. Dad mənə çox tanış gəlsə də yorğunluqdanmı ya nədənmi bilmədim nə tamı olduğunu. Bizim üçün qonaq otağında yer də açıldı. Artıq gecəni çoxdan keçmişdi. Ona görə də hamı yatdı. Biz də yerimizə girdik. Kapitana tərəf dönüb soruşdum:

- İndi biz nə edəciyik.?

O isə fikirli-fikirli cavab verdi:

- Bilmirəm. Səhər fikirləşərik. İndi dumanlı, yorğun beyinlə düz bir şey alınmaz. Yat..

Düzü hələ yatmaq fikrim yox idi. Amma başımı balınca qoyan kimi yatdım. Səhər tez oyandım həmişəki kimi. Amma hamı məndən tez oyanmışdı.Yemək yeyib çölə çıxdım. Bura balaca zavodu xatırladırdı mənə. Bir vaxtlar "Külək" küçəsində yerləşən. Düzü ora indi işləmir, xarabaxanalığa çevrilib. Amma burda hərə qismən məşğuldu. Hamı da bir-birinə kömək edir. Bura xoşuma gəlir. Bəlkə elə burda qalım.? Burda yaşayım qalan ömrümü.? Yeni həyata da elə burdan davam edim.? Yox... Hələ ki ağlım başımdadı gəzəcəm. Kapitanla bizim qocanın odun doğramaqla məşğul olduğunu gördüm. Kapitan çox hündür, cüssəli, güclü

kişi idi. Qocaya kömək edirdi. Onlara yaxınlaşdım. Nəsə şirin söhbət gedirdi. Onlar söhbət etməklərində idilər. Mənsə ətrafa göz gəzdirirdim. Bura həqiqətən çox gözəl idi. Balaca ada. Meşəliyin ortasında məskən salan bu insanlar. Nə qədər xoşbəxt görünürdülər.Necə də mehribandılar. Məni fikirlərimdən kapitanın səsi ayıltdı.

- Nə fikirləşirsən Əlinur? Allah qoysa sabah yola düşürük. Səni söz verdiyim yerə çatdıracam. Amma sonra yollarımız ayrılacaq.

Mən də başımla "hə" dedim. Hələ gecə düşməmişdi. Kapitanla sahilə tərəf getdik. Qumluqda oturub günəşin üfüqdə qızarmasını seyr etdik. Suyun üstündə əksi ilə görüşürdü sanki.. Okeanın səsi. Arxada ağaclar.. Bir də bu valehedici mənzərə.. Qoca da fikrə dalmışdı..

- Bəs sən indi kimin yanında olmağını istərdin.?
- Mən.? Yəqin ki, anamın. Onun üçün çox darıxıram. Bəs sənin oğlun.? Sən ən çox nə istəyirsən.?
- Mən.. Mən.. Mən bilmirəm... Amma mən təkliyi sevmirəm.. Bu son illəri də əzablarla keçirmişəm.. Mən indi sevgi istəyirəm.. Daha yəqin bütün ömrü boyu tək qalacam. Amma tək də demək olmaz.. Mən cismən nə qədər tənha olsam da, ruhən heç

vaxt olmayacam.. İndi sənə danışacağımı mənə sən yaşda olanda babam danışmışdı. Ona da həyat müəllimindən xatirədir.

## *Sən tək deyilsən...*

Sən... Sən... Səndən həmişə nəsə istəmişəm... Dünya malı, pul, güc, gözəllik, ağıl, hörmət, inam, xoşbəxtlik, azadlıq, və s.... Bilirsən çox qəribədi. Hər dəfə səndən nəsə istəyəndə həmişə azdan-çoxdan vermisən mənə istədiyimi, arzularım, istəklərim heç vaxt puç olmayıb...

Düzdü, səninlə razılaşmaya bilmərəm, sən düz diyirsən mən heç də yaxşı insan olmamışam. Amma axı özün demişdin insanlar dəyişir, təbiətdəki hər varlıq kimi insanlar da dəyişir... Uşaqlığımda dünya malına gözüm düşmüşdü. Var-dövlət ailəmizdən əskik olmurdu... Sən mənə verdiklərini bir günün içində aldın və mən anladım, anladım ki, mal-mülk heç də həmişəlik rahatlıq demək deyil... Necə deyərlər “ bu dünyanın malı bu dünyada qalacaq... ”

Sonra pul istədim, gözüm doyunca pul-para verdin... Amma bilirsən yenə də yanıldım. İnsanın gözü heç vaxt doymazmış İlahi, bu sanki təbiətin labüd aksiomlarından biridir...

Sonra ətrafımda güc gördüm və səndən güc dilədim... “ Güc ver, güc ver, güc ver mənə... ” Səndə mənə güc verdin. Bəlkə də sən bilirdin ki, bunu yaxşılıq yox pislik üçün istifadə edəcəm. Amma yenə də yəqin “bəlkə dəyişdi ” deyə fikirləşdin... Amma mən dəyişmədim, hər insan kimi məndə gücümü pisliyə işlətdim. Kimi döyüldü, kimi öldürüldü, kimi kimsəsiz qaldı... Bəs nə üzündən..? Nəyə görə..? Hamısı insanların güc hərisliyinə görə... Yenə də səhv etdiyimi anladım...

Zaman keçdi... Bir az böyüdüm... Artıq gördüm ki, hamı üçün xarici görkəm önəmlidi, əsasdı. İnsanlar buna görə sevilir, buna görə sayılır... və gözəllik istədim və aldım. O qədər simpatiya qazandım ki, hər addımımı atanda insanların baxış-nəzər mərkəzindəydim. Bununla çox qəlblər qırdım,çox insanı yarı yolda həyatda tək qoydum, çox gözləri yaşla doldurdum... Amma bezdim... Sənə üsyan etdim haqsızcasına və günlər keçdi, bir səhər oyandım və gözəlliyin itdiyini gördüm. Təəccüblənmədim, bəlkə də özümün bunu istədiyimdən idi...

Bu dəfə elə bilirdim ki, daha mənlə danışmazsan. Mənə heç nə vermiyəcəksən... Amma sən... Sən “tövbə et” dedin və mən tövbə etdim, sənə qayıtdım,səndə məni bağışladın.. Axı sən müqəddəssən.

Günlər keçdi... Bu dəfə yaxşı bir şey istəməyə qərara gəldim və səndən ağıl istədim... Sən mənim beynimi gücləndirdin. Mənim dərrakəm genişləndi və hər əql payımda sənin əl işlərin təcəssüm edirdi... Mən durmadan hər gün, hər saat, hər dəqiqə, hər saniyə nəsə kəşf edirdim... İnkişaf... İnkişaf... İnkişaf... Artıq dəli olmağa başlayırdım... Sən mənə gün-gündən daha çox ağıl verirdin... Daha çox bilik... Daha çox cavab... və irəlidə yeni-yeni suallar... Bəs mən..? Mən nə elədim..? Sənin qadağalarına məhəl qoymadım... Güllələr, silahlar, bombalar, atom nüvəsi, kosmik lazer və s. kəşf etdim... Bu isə yaratdıqlarının məhvinə gətirib çıxardı. İnsanlar yenə də hər şeyi korladılar... Amma sən yenə də bağışladın... Axı sən böyüksən...

Mən səndən sevgi istədim... Aldım və hər şeyi təmənnasız sevdim: Allahı – yəni səni, sonra mənə verdiyin bu – Sevgini sevdim, Anamı – sevdim... Özün buyurmusan axı səndən sonra odu mənim üçün, Vətənimi – sevdim... Bir sözlə ASAV-ı sevdim...

Deyəsən bu dəfə seçimim düz idi. Daha sonra hörmət, inam istədim... Amma sən susdun... Yenə istədim...Yenə dinmədin... Daha sonra öz-özümə anladım ki, inamı qazanmaq üçün hörmət qazanmalısan, hörmət qazanmaq üçün isə insanlığın olmalıdı və mən hər ikisini əldə etdim...

Sonra səndən xoşbəxtlik istədim... Sən mənə “O”-nu verdin... “O” məni sevdi, məni yaşatdı, mənə həyatın necə şirin olduğunu göstərdi… Mən… Mən… Mən elə sandım ki, artıq xoşbəxtliyimi tapmışam… Amma… Amma bu dəfə hər şey fərqli oldu… Sən onu əlimdən aldın… Sən… Sən… Sən aldın onu məndən… Gec də olsa başa düşdüm. Bu dünya əvəz-əvəz dünyasıdı axı… Bu qədər verdiklərinin əvəzinə aldın onu məndən…

Bu dəfə nəsə istəmək üçün heç nəyim yoxuydu. Tək bir şey istədim… Azadlıq istədim… Amma sən demə bu illər ərzində azadlığım öz içimdəymiş… Öz sözüm… Öz düşüncəm… Öz səbəblərim… Öz məqsədlərim… Öz xəyalım… Bu mən özüməm. Bu da elə mənim azadlığımdır…

İndi yenə də tək… Kimsəsiz… Öz xəyalımla baş-başa… Özümləyəm… Bu mənim azadlığım… Bu mənim xoşbəxtliyimdir… İnsanlar dəyişir… Sadəcə bunu anlamaq çox çətindir. Həyatsa çox mürəkkəb. Vücudum 18 yaşlı cavan… Amma qəlbim 118 yaşlı sönmüş vulkan kimidi… Beynimin içində isə törətdiklərim min illiklərlə ölçülə bilməz dərəcədədi…

Hər şeyin bitdiyini, həyatımda tənhalıq fırtınasının əsdiyini tərəddüdsüz qəbul edən an…

Yenə də Sənin səsin qulağımda cingildədi… “ Sən tək deyilsən...…. ”

O sözlərini bitirdi. Mənim gözlərim ona zillənmişdi. Həqiqətən də tək olmadığıma inandım. Bu danışdıqları mənə çox təsir eləmişdi. İndi mən hər yerdə onu hiss edirdim. Amma mənim uşaqlıqdan bəri olan Allah anlayışım çox primitiv idi. Mən onu səmada yaşayan biri sanırdım. Artıq günəş batmışdı.. Suları ay işıqlandırırdı. Öz şəffaflığında batmış ay. Biz qalxdıq və geri döndük. Qəribədir... Yenə küçə bom-boş idi. Amma ortada tonqal yanırdı.. Onu kim qalayıb.? Niyə.? Yaxşı deyək ki, elə-belə qaladılar. Bəs niyə o sönmür.? Elə hey yanır... Burda qəribə nəsə var.. Kapitandan fikirləşdiklərimi soruşdum. O da bunun nə demək olduğunu bilmədiyini dedi. Evə çatdıq. Yenə dünənki kimi çox hörmətlə qarşılandıq. Yeməkdən sonra qoca, kapitan və mən qaldıq. Onlar söhbət edirdilər. Kapitansa hərdən nədən danışdıqlarını deyirdi mənə. Mən Bəhruz kapitandan tonqal haqqında soruşmasını istədim. O da bunun səbəbini soruşdu. Qoca xeyli danışdı Sonra hamı yatmağa getdi. Biz də yerimizə uzandıq. Kapitansa qocanın danışdıqlarını mənə nəql etməyə başladı.....

## *Od qardaşları*

Əsrlər öncə bu kimsəsiz adada on qardaş məskunlaşır.İllərini dənizlərdə keçirən qardaşlar artıq oturaq həyat keçirmək qərarına gəlirlər və bu adanı tuturlar.. Hələ o vaxtlar bu ada bomboş bir yer olub. Sonra qardaşlar yavaş-yavaş evlənməyə başlayırlar. Hərəsi başqa-başqa yerlərdən özlərinə bir qadın alıb gətirir və evlənirlər. Doqquz böyük qardaş evlənir və hamısı ayrı ev tikib ora köçürlər. Qalır təkcə ən kiçik qardaş. Hamısı yığılır ki, gəl gedək sənə də qız alaq o razı olmur. Deyir ki, hələ istəmirəm. Evlənmək istəyəndə, buna hazır olanda deyəcəm. Hamısı da onunla razılaşır. İllər keçir, ayrı-ayrı ölkələrdən gələn yad gəlinlər qardaşların arasını vurur, onları dəyişir. Hamısı bir-birinə düşmən kəsilir. Bir-birinin dalınca danışır, bir-birinə əl qaldırırlar, alçaldırlar.. Tək bircə qardaş heçnə etmir. Tək yaşayır, tək yeyir, tək də qalırdı. Ona görə hava xoş idi. Amma o qardaşlarının bir-birinin ətini didməsinə belə sakitcə baxa bilmirdi. O çox fikirləşirdi ki, nə etsin.? Necə etsin ki, onun qardaşları əvvəlki kimi olsunlar.?! Çox fikirləşir amma bir çarə tapa bilmir. Fikirləşir ki, hər gün bir qardaşıgilə qonaq getsin. Amma heç bir qardaş onu evinə götürmür. Fikirləşir ki, hamsını bir yerə yığsın,

amma faydası olmur, heç biri gəlmir... Bir gün öz evini yandırır.. Artıq gecələməyə yeri qalmır. Qardaşlarının hamısından bir-bir xahiş etsə də heç kim onu evinə qəbul etmir. Qəbul etmək istəyən olsa da arvadlarının qorxusundan heç nə edə bilmirlər. Onlar hamısı bir-birinə nifrət bəsləyir.. O tonqal qalayır. Düz evlərin ortasında.. Bu qədər nifrət, kin, kidurət... Qardaşlar bir-birinə düşmən.. Günlər keçir beləcə. Bir gün balaca qardaş yatanda od daha da alovlanır və onun paltarına keçir.Yanan qardaşın ah-naləsinə bütün qardaşlar çölə çıxır.. Qardaşlarını yanan görsələr də heçnə edə bilmirlər.. Onu dəfn edirlər və məzarı üstündə əbədi sülh və qardaşlıq içində yaşamağa and içirlər.. Elə o vaxtdan da buralarda qardaşlıq hökm sürür...

Sözünü qurtardıqdan sonra yatdıq.. Səhər oyandıq, bir neçə saatdan sonra bu qəribə ada ilə sağollaşdıq.. Bu qəribə tarixi olan ada.. Qardaşlıq adası.. Mehribanlıq adası..

Yenə okean.. Yenə baş ağrısı.. Yenə kapitanla.. Amma bu dəfə başqa gəmi.. Bu dəfə bircə gündən sonra quruya enəcəkdik. Saatlar bir-birini qovub gecəyə çatdı.Yuxum gəlirdi və mən yatmağa getdim. Səhərə yaxın kapitan məni oyatdı. Hələ günəş

çıxmamışdı. Biz çatmışdıq. Endik və kapitanla bu ölkəyə doğru addım atdıq.....

## *Başsızlar ölkəsi..*

Bu ölkə məni bura gələrkən qorxutmağa başladı... Deyilənə görə buranın gözəl şəhərləri var.. Bu ölkə inkişafın, tərəqqinin əlindədir.. Bura gəlməmişdən bizə danışırdılar ki, nə yoxsullar var, nə dilənçilər, nə haqqsızlıq var, nə də ədalətdən korluq çəkənlər.. Bura enəndə bunların hamısının şahidi oldum.. Hamı razı görünürdü.. Hamı xoşbəxt görünürdü.. Biz ölkənin paytaxtında idik.. Ətraf tam sözlə gözəllik idi. Texnologiya mükəmməl dərəcəsində.. Hər kəsənin öz işi var.. Yollar gözəl.. Hər şey gözəl.. Hətta dünyada ancaq xüsusi yerlərdə istifadə olunan "mərmər" bu ölkədə səkiləri, parkları bəzəyirdi.. Görünüş məni valeh etmişdi. Ama dediyim kimi qorxmuşdum.. Daha doğrusu təəccüblənmişdim.. Bunların səbəbi isə bu ölkənin adının səbəbi idi.. Daha doğrusu adlandırılmasının.. "Başsızlar ölkəsi" elə adı kimi də insanları.. Başsız insanlar.. Və mən onlardan qorxurdum həqiqətən də.. Mənə bunları gəmidə danışanda sadəcə söz gəlişi zarafat olduğunu sanırdım.. Amma indi gözlərim, qulaqlarım məni aldatmırdı ki... Onların heç birinin başı yox idi.. Başsızlar.. Kapitan da ən azı mənim qədər təəccüblənmişdi.. Kapitanla mən bir restorana daxil olduq. Burda da hamı başsız.. Televizorda

“Başsız xəbərlər” adlı səhər proqramı.. Orda da hamı başsız.. Kapitanla oturub söhbətləşdik:

- Əlinur, biz burda sağollaşmalıyıq.. Mən burdan gedirəm. Öz dostlarımla – gəmi ekipajının sağ qalanları ilə görüşməliyəm..Sən burdan o yana təksən..
- Çox sağol Bəhruz.. Sən çox yaxşı insansan.. Çox yaxşı yol yoldaşı oldun mənə.. Yəqin ki, biz hələ görüşəcəyik..

Bəhruzla sağollaşdıq.. O yola düzəldi.. Mənsə hələ bir az da oturmaq istədim.. Yemək sifariş verdim. Yedim və çıxdım restorandan.. Düzdü get-gedə öyrəşirdim.. Amma hələ də qorxurdum bu başsız insanlardan. Bir meydanda insan toplusunu gördüm.. Oturub söhbət edirdilər.. Mən də yanlarına getdim, əyləşdim və dinləməyə başladım... Söhbət çox uzandı.. Öyrəndim ki, bu ölkədə başı olanlar da varmış. Onlar kral, ailəsi, yüksək rütbədə oturanlardır.. Sən demə başı olanlar ancaq idarə edirmiş bu ölkəni.. Onsuz onlardan başqa heç kimsədə də baş yoxdur.. Ancaq onların nəsil-kökündə başlılar doğulur.. Qalan bütün ölkə başsızdır..

Qəribə ölkə.. Qəribə insanlar.. Qəribədir hər şey yenə.. Bunlar hamısı burdakılar üçün sadə gəlir.. Mənə isə çox anlaşılmaz.. Niyə məhz ancaq onların

yaxınlarının başı var.?!.. və bu baş necə əmələ gəlir ki, ancaq onlardadır.?! Bəs adi insanlardan olan birinin başı olan bir övladı dünyaya gəlsə.? Onda necə olur? Görəsən heçmi belə biri olmayıb.?

Camaat yavaş-yavaş dağıldı.. Sonda başda əyləşən bir ağsaqqal qaldı.. Mən ona yaxınlaşdım..

- Salam ağsaqqal. Narahat etmirəm ki.?
- Aleykümə yox oğlum buyur.

Onun gözləri, ümumən başı olmadığından harasına baxacağıma təəccüb etdim. Axırda əllərinə baxmağı qərara aldım. Nə də olsa illərin qabarları yalan söyləməz..

- Ağsaqqal niyə bu ölkə belədir? Niyə məhz ancaq onlarda - yuxarıdakılarda baş olur? Bəs adi insanlardan birinin başı olan bir övladı dünyaya gəlsə.? Görəsən heç olmayıbmı belə.?

Yaşlı kişi bir az ətrafına o tərəf bu tərəfə döndü.. Düzü mən onun sağa-sola baxdığını yəqin etdim. Amma başı olmayan adam necə görsün ki....?! O mənə tərəf döndü və dedi:

- Oğlum görürəm sən buralarda ilk dəfəsən. Heç olmağını da arzulamıram.. Gəl yaxına, burda əyləş..

Ona yaxınlaşdım.. Sağında əyləşdim.. O isə sözünə davam etdi.

- Hə, oğul indi gördüyün bu "Başsızlar ölkəsi" bir neçə on illik öncə bu günə düşdü. O vaxtlar hamının başı vardı. Hamının şəxsi fikri, məntiqi, ideologiyası, mənəviyyatı, şəxsiyyəti vardı... Hamı öz narazılığını asanlıqla bildirirdi. Əsarətdə olsaq da beynimiz və qəlbimiz azad idi.. Amma indi... İndi gördüyün başsızlar manqurtlardan başqa heçnə deyillər.. O vaxt bir nəfər gəldi.. Bizi əsarətdən qurtardı. Viran olmuş şəhərləri düzəltdi, amma beyinlərimizi xarabaya döndərdi.. Qəribəsi də odur ki, o bizim köməyimiz ilə taxta çıxdı. İndiki kralımız da onun nəvəsidir.. Onlar bu ölkəni monarxiyaya döndəriblər.. O dövrdən sonra bütün körpələr başsız doğuldu. Üstündə "başı olanlar" isə məhv edildi.. İndi də başı olanlar doğulur ancaq onlar təqib edilir.. Çoxları yenə də öldürülür.. Çoxlarının başı kəsilir və təzədən bizlərin arasına qatırlar.. Amma qaçanlar gedib ölkənin sərhədində yerləşən amma dəqiq yeri bilinməyən AB təşkilatına qoşulurlar.. Oranı ancaq özünü tapmış və ya axtarışında olan, bu hakimiyyətə görə isə "yolunu azmış" insanlar tapa bilir.. Oranı kral və onun başlıları hər gün, hər saat axtarırlar.. Amma onsuz tapa bilməyəcəklər heç

vaxt... Amma belə heç kim narahat deyil, hamı razıdır hakimiyyətdən. Çünki artıq hamı başsızdı buralarda..

Qoca danışdı və yavaş-yavaş ayağa durdu xudahafizləşib getdi.. Mən çox fikirləşdim.. Artıq buraları anlamağa başlayırdım.. İndi bu "Başsızlar ölkəsinin" başı olmayan sakinlərindən qorxum yox olmuşdu.. Əksinə onlara yazığm gəlirdi.. Çünki onların indi nə başı, nə düşüncəsi, nə fikirləri, nə sevgiləri, nə yolları, nə seçimləri, heçnələri şəxsi deyildi.. Beləliklə onlar "mənlik" deyiləni itirmişdilər.. Mənə isə o yeri bilinməyən AB qrupunun nə olduğu maraqlı gəldi və yeganə məntiqli fikir kimi onu seçdim.. Ora getməyi qərara aldım.. Amma bu gün artıq heç hara getmək fikrim yox idi.. Amma bəs mən harda gecəliyəcəm.? Oteldə gecələməyə çatacaq pulum da yoxdu. Bəs harda.? Görək başıma nə işlər gəlir..

Şəhəri gəzməyi qərara aldım.. Şəhər həqiqətən də gözəl və əsrarəngiz.. Parkları, küçələri, fantanları tam bir mükəmməllik əsəri.. Bircə insanların ruhlarından başqa.. Buranın insanları danışır ki, bu krallıqda bütün şəhərlər gözəldir.. Amma gözəllikdə bu şəhər o birilərini çox geridə buraxır.. Enli küçələr məni artıq bezdirməyə başladı.. Dar küçələrə düşdüm.. Buralarda

mən bütün gördüklərimin əksini gördüm.. Ayaqları olmayan qocanı gördüm, şikayətlənməyə ağzı olmasa da inildəyirdi..  Həyatın hər dərmə-deşiyini söyürdü elə bil.. Yetimlər gördüm.. Hər künc-bucağı burada mərmərlər  ya heykəllər deyil, şikəst uşaqlar bəzəyirdi.. Mən indi anladım. Anladım ki, şəhərin girəcəyində gördüyüm enli küçələrlə burdakı dərinliklərindəki dar küçələrin fərqi nədir.. Enli küçələrdə enli qarınların üstündə enli qalstuklar uzanır.. Dar küçələrdə isə küçələrdən də dar insanlar yaşayır və bu küçələrdəki insanlar heç vaxt o biri küçə ilə getməzlər.. Nəysə..

Mən elə bu dar küçələrlə enə-enə bir həmyaşıdıma rast gəldim Artıq ayağım ağrayırdı və mən onun yanında səkinin bir tərəfində əyləşdim.. Onunla söhbətləşdik..  Onu demək olar ki, çox yaxından tanıdım.. Bu insan nifrət hissindən alovlanırdı.. Onun qida mənbəyi nifrəti idi.. O da doğulanda başı üstündə doğulub.. Sonradan kralın verdiyi "əmr" əsasında bütün başı olan sadəcə əhali ya öldürülüb ya da başsız olaraq geri qaytarılıb.. O vaxtdan 3-4 il keçib və bu gənc indi bu xarabaxanalıqda, çöllərdə gecələyir.. Səhərlər isə bir tikə çörək üçün dilənir.. Onun nifrəti hələ püskürməmiş vulkana bənzəyirdi..

## *10 Dəqiqəlik müsahibə*

Arzularımı dünyaya açdım... Qucaq gözləyirdim amma  O mənə qorxu verdi... və belə bir nəticəyə gəldim : Arzularınla ehtiyatlı ol, çünkü onlar hər an reallaşa bilər...

Ümidlərimi sevgilərimə xərclədim... Daha çox ümid üçün qarşılıq gözlədim... Amma boş xülyalar ağlayışlara apardı... Hıçqırıqlar, iniltilər bədənimi titrətdi... Diz çökdüm... Amma yıxılmadım... Dua etmək istədim... Yer axtardım dua üçün... Dedilər ancaq məsciddə, ya da kilsədə... Mən  anlamadım... Niyə Allaha dua etmək üçün  yalnız kilsə və ya məscidə getmək lazımdır..? Anlamadım... Anlamadım... Allahı axtardım... Amma tapmadım... Nə məscid qapılarında, nə kilsə oturacaqlarında...Səslədim... O yenə də özünü büruzə vermədi.., və ya məndən gizləndi... Varlığına şübhəm yarandı... İnkar etdim... Özümü axtardım... Mənliyimi səslədim...

Bir gün özümü günəşə bağladım... Amma mən xeyirdən çox ziyan gördüm... Meşələr alovlandı, onun sevgisi yandırdı kövrək qanadlarımı... Qorxdum  və günəşi tərk etdim... Daha onu görmək istəmədiyimi qərara aldım və O hər çıxandan ta ki, qürubuna enənə

kimi mən bu dünyada sanki mövcudluğumu dondururdum...

Mən get-gedə gecəni sevməyə başladım... O məni dəqiqələrlə, saatlarla təqib edirdi... Gecələr mundarlanmış dayanacaqlarda sərxoş səfilləri gördüm... Gecənin özəyinə çökdüm... İynələrlə dolu, zibillənmiş unitazlardan ibarət tualetləri çox gördüm... Gecələr manikür, gözəllik salonlarının, hamamların, çayxana və kafelərin, saunaların, körpü altlarının, yol kənarlarının, otellərin fahişə yığıncağına çevrildiyini gördüm... Bir qızın gecə parkın yanındakı dayanacaqda avtobus gözlədiyində tutulub, ağacların qaranlığında necə zorlandığını gördüm... Mən çox yollar gördüm... Əvvəli düz sonu əyri olan yollarla getdim... Sonu görünməyən çala-çuxurlu yollarda çox gəzdim və bu yollarda hər kol dibində çox itlər gördüm... Başları zəncirlərindən daha öndə olan itlər... Hansı ki, sadiqliyindən daha çox yaltaqlığa üstünlük verirdilər...

Özümə qapandım... Özümü sevdim... Həyatda bütün dostlarımı itirdim... Mənə yaxın olmaq istəyənlərin sevgisini əlimin tərsi ilə itələdim... Qohumlar yadlaşdı... Valideynlərim məni öldürməyə belə cəhd etdilər... Amma bu tamam başqa bir

hekayədir... Siz hələ də maraqlanırsınız cəmiyyətə nifrətim haradan yarandı...???

Onunla danışıq məni dəyişirdi.. Ona çevrilirdim, ya hisslərim məni aldadırdı.? Bilmirəm.. Amma onu çox yaxşı başa düşürdüm.. Bu ölkə.. Bu ölkəyə hələ bu qədər nifrət azdı..! Gecəni onun yanında sadə bir səfil kimi gecələdim.. Səhər durdum, içində nifrət çuğlayan bu insana döndüm və dedim:

- Sən içində çox gizli və güclü bir hiss saxlayırsan.. Amma əbəs yerə..! Ya onu içində öldür ya da çıxart çölə..! Amma nifrət və qisas sonda dönüb sahibinə qayıdar.. Sağlıqla qal..

Yola düzəldim.. AB-ni tapmalıydım.. Bu ölkəni tam anlamalıydım.. Soruşub araşdırdım. Amma heç kim konkret bir yol demədi, bilmədi.. Bir qatara mindim.. Dedilər ki, bu qatar ora aparır. Vaqonda yanımda heç kim yox idi. Vaqonun lap o biri başında bir nəfər başlı əyləşmişdi.. O içəri girib oturanda orda oturan bütün başsızlar durub yerlərini dəyişdilər, uzaqlaşdılar onun yanından. Bu yəqin ki, kralın adamlarından biri idi.. Yəqin mənim şəhərdə

olanlarla maraqlanmağım onun qulağına çatmışdı. O da dalımca adam göndərmişdi..

Qatar yola düzəldi.. İki saat keçdi.. Biz indi səhralığın ortasında irəliləyirdik.. Qatarın tüstüsü günəşin şüalarının köməyi nəticəsində yaranan kölgələrdə büruzə verirdi.. Qum təpələri bir-birini əvəz edirdi.. Mən yuxuya getmişdim.. Birdən məni səs-küylə dayanan qatar oyatdı.. Qatar stansiyada dayanmışdı.. Ətrafıma boylandım.. Çox az adam qalmışdı vaqonda. Onlar da yığışırdılar.. Mən də durdum... Çantamı götürdüm.. Yavaş-yavaş vaqonu tərk etməyə başladım.. Başlı adam yox idi artıq vaqonda.. Çölə boylandım orda da görünmürdü.. Amma nəsə içimə sakitlik hakim kəsilmədi.. Stansiyanin görünüşündən çox qədim olduğu nəzərə çarpırdı.. Ancaq burda da hamı başsız idi.. Darğalar insanların əllərində olan mal-mülklərini döyə-döyə əllərindən alırdılar..

Nə demək olar.. Axı onların başları var.. Təkcə onların.. Rəiyyət isə başsız qoyun sürüsüdür.. “Ağa dedi sür dərəyə sürməlisən dərəyə.” Bu stansiyanı tərk etdim.. Elə bir küçəyə düşmüşdüm irəliyə gedirdim ki.... Bir neçə insanın darğaları döydüyünü gördüm.. Başsızlar ölkəsinin başlı sakinləri.. Birinci dəfə idi bu ölkədə toplu halda başlı gördüm.. Onlar üç

darğanın ağız-burnunu əzişdirib qaçmağa başladılar.. Mən də gizlincə onları izləməyə başladım.. Stansiya artıq geridə qalmışdı. Mənsə onları hələ də izləyirdim.

Bu köhnə bir şəhər idi. Standart küçələr, standart binalar, standart baxışlar.. Təkcə bu ölkənin standartlarına uymayan arxalarınca gizlincə getdiyim insanlar idi.. Yeddi-səkkiz nəfərdən ibarət bu kiçik dəstə heç kimi vecinə almadan, özlərindən razı halda bu küçələrlə irəliləyirdilər.. Mən hələ də gizlin-gizlin izləyirdim onları.. Bu yolun sonunda məni AB birliyinin gözlədiyinə nədənsə içimdə əminlik vardı.. Şəhər tərk edilmiş xarabalıqlarla əvəz olundu.. Daha standartlıqdan əsər-əlamət yox idi. Artıq hava qaralmışdı.. Bizsə hələ irəliləyirdik.. Xarabalığın sonundan sağa döndülər.. Aramızda 20-25 addım məsafə saxlayırdım.. Onlar döndüyü yerdən sağa döndüm.. Amma nə onlar nə də başqa bir şey yox idi.. Bura sadəcə uçurumdan aşağı uzanan xarabalıqların davamı.. Və birdən arxadan nəsə ağır bir şeylə başıma vurulan zərbə.. Huşumu itirdim.. Sonra gözümü qapqaranlıq bir yerdə başımdakı ağrı ilə açdım..Önümü belə görə biləməyəcəyim bir qaranlıq vardı.. Otağa oxşayırdı amma bu otağın hüdudlarını tanımağa cəhd belə etmədim.. Əllərimi arxadan bağlamışdılar.. Yerdə uzana qalmışdım.. Daş

döşəmə bum-buz qılınc kimi kəsirdi bədənimi.. Qışqırmağa başladım.. Amma deyəsən heç kəs məni eşitmirdi.. Çırpınıb əl-qolumu açmaq istədim.. Amma mən hər dəfə tərpəndikcə qolum daha da kəsilir və ağrıyırdı.. Başımdakı dəhşətli ağrıdan yenə də gözlərimi bağladım.. Bilmirəm.. Dəqiqələr ya saatlar keçdi.. Gözlərimi açanda yenə eyni yer, yenə eyni bağlanmış əl-ayaq.. Amma ağrılar azalmışdı.. Bəlkə də artıq cismim keyimişdi.. Artıq qışqırmağa taqətim qalmamışdı.. Ətrafdasa qaranlıqdan başqa heçnə yox.. Gözlərim yumuldu..

Bir daha ayılanda stula bağlı qalmışdım... Ətraf çox işıqlı idi.. Gözlərimi gücnən açırdım.. Böyük bir zalın ortasında bir stulda əli-qolu bağlı qalmışdım.. Zal adamla dolu idi.. Hamısı mənə baxıb aralarında nəsə danışırdılar.. Yavaş-yavaş özümə gəlirdim.. Zalın yuxarı başında üç nəfər oturmuşdu.. Ortada ağsaqqal yaşlı bir kişi əyləşmişdi.. Sağında və solunda isə iki cavan oğlan ayaq üstə dayanmışdı.. Başlarının üstündə divarda isə qara dairənin içində “qara qərənfil” şəkli... İndi əminliklə deyə bilərdim ki, mən ordayam.. Ölkənin hakimiyyətinin sıxışdırdığı bir qrup “başlı” insanlar.. Anarxistlər məkanında öz düşüncəyə malik olan, ölkənin standart başsızlarından fərqlənən insanlar. Ağ saçlı yaşlı kişi ayağa durdu.. Zala sakitlik çökdü.. Hamının diqqət

mərkəzi ona yönəldi.. O və yanındakı iki nəfər mənə tərəf gəldilər.. Sağdakını tanıdım.. İzlədiyim insanların arasında o da vardı.. Onlar yanıma çatıb dayandılar.. Qoca soruşdu:

- Sən kimsən..? Burda nə axtarırsan.?!

Mən kim olduğumu, buralara necə və niyə gəldiyimi danışmağa başladım.. Amma görünür onlar mənə inanmadılar.. Məni yenidən qaranlıq bir otağa saldılar.. Sonra iki nəfər girdi içəri və məni döyməyə başladılar.. və hər yumruqdan əvvəl "sən kimsən.? və burda nə axtarırsan.?" deyə qışqıraraq soruşurdular.. Mənsə elə eyni cavabı verirdim.. Bilmirəm bu dəqiqələr çəkdi yoxsa saatlar tək onu bilirəm ki, o qədər vurmuşdular ki, bütün sir-sifətimi qan bürümüşdü.. Sonra huşumu itirdim.. Ayılanda yenə bu zibilə qalmış qaranlıq otaqda bədənimdəki ağrılarla qalmışdım.. Sifətim zərbələrdən artıq keyimişdi.. Bir müddət sonra qapı açıldı və içəri bir enlikürək girdi.. O qədər hündür və enli idi ki, əyilib keçdi qapıdan.. O əl qolumu açdı və dedi:

- Getməliyik, bizi gözləyirlər...

Mənim nə sual verməyə nə də ayaq üstə durmağa taqətim olmadığından susdum, o isə qoluma girdi və biz bir neçə iç-içə otaqdan keçib sonda hündür tavanlı

gözəl bir otaqda dayandıq.. O məni bir kresloda əyləşdirib gözləməyimi dedi və çıxdı.. Otağın çox əsrarəngiz arxitekturası vardı.. Ətrafa göz gəzdirdim.. Bir neçə dəqiqə sonra içəri həmin yaşlı kişi girdi.. Gəldi və düz qarşımda oturdu.. Gülümsədi və gözümə baxaraq danışmağa başladı:

- Sən sınaqdan keçdin Əlinur.. Aramıza xoş gəldin.. Mənim adım Berkdir.. Bura isə bizim gizli səltənətimiz.. Əlbəttə burda başçı mənəm amma tək mən yox.. Burda hər bir fərd kimi mən də sadəcə xalqın bir nümayəndəsiyəm.. Bu gəldiyin yer AB-nin bu ölkədəki sığınacağıdır.. Amma məni hələ də bir şey maraqlandırır.. Sən – qərib insan niyə burdasan..?

Mən də danışmağa başladım..

- Məni bura sadəcə maraq gətirdi.. Orda, ölkənin o biri tayındakı insanları görəndə niyə bu ölkənin “başsızlar ölkəsi” adlandırıldığını anlamağa başlayırdım.. Amma biləndə ki, hardasa başqa yerdə fərqli insanlar qalıb, bu marağıma səbəb oldu. Öz düşüncəsi, təfəkkürü, sərbəst əqli olan və manqurtlaşmamış insanlar.. Sizlər.. Bax bura gəlmə səbəbim bu oldu.. Sadəcə maraq və başqa heçnə...

Onun gülümsəyən sifəti heyrət və təəccüblə əvəz olundu...

- Deməli sən bütün bunları ancaq maraq xatirinə etmisən.? Bu döyülmələri, hətta ölümlə belə üzləşməyi ancaq maraq xatirinə.? Sən həyatına susamışdın.?
- Cənab Berk.. Mən həyatımı həyatsızlığımdan ilhamlanaraq yaşadım....

O susdu.. Mənə təəccüb içində baxırdı..

- Mən çox illərdir buranın yerlilərindən başqa heç kimlə ünsiyyət qurmuram... İllər sonra isə sən.. Maraqlı insansan Əlinur.. Səni daha yormayım.. Uşaqlar sənə özünü qaydaya salmağa kömək edərlər.. Rahatlan hələ çox vaxtımız var..

Mən isti vanna qəbul elədim.. Sonra uzandım yatdım... Yorğunluq göz qapaqlarımın kərpicinə çevrilmişdi..

- Sən.. Bilirsən çox darıxmışam sənin üçün, Günəşim..
- Hardaydın bəs bu vaxta qədər Əlinur..? Niyə məni tək qoydun burda.? Niyə axı.? Bəs mənə olan dəlicəsinə sevgin.?

- Bilmirəm.. Mən heçnə bilmirəm.. Heç indi sənin yanında necə olduğumu da bilmirəm.. Axı sən ölmüsən.. Bu nədi..? Təxəyyülüm..? Surrealdır məyər bu sevgi.?!
- Yox, realdır.. Bax mən sənə toxunuram.. Sən mənə...
- Hə.. Nəfəsini dodaqlarımda hiss edirəm.. Deməli bu realdır.. Deməli sən mənimləsən..? Mənimsən.? Daha bitməyəcək ki.? Əbədimi qalacaq..?
- Əbədi heçnə yoxdur Əlinur.. Həyat bir göz qırpımında itən sürət qatarıdır..

Birdən dik atıldım.. Sən demə bu yuxu imiş.. Hər şey yuxu imiş.. Təəssüf ki, Günəşim artıq çoxdan ölüb.. O indi ancaq xəyallarımda yaşayır..

Əynimi geyinib otaqdan çıxdım.. Pilləkənlərlə aşağı endim.. İndi sanki saray kimi bir qalanın içindəydim.. Məni bir qız qarşıladı.. Qısa saçları, şabalıdı gözləri və balaca dik burnu ilə çox şirin görünürdü.. O mənə onla gəlməyimi dedi və mən sakitcə onu dinləyərək arxasınca getdim.. Məni bir otağa gətirdi. Burda Berk və dörd nəfər dəyirmi stol ətrafında oturub söhbət edirdilər.. Mən içəri girəndə hamısı ayağa qalxdı.. Hər halda qorxduqlarından yox hörmət əlaməti olaraq.. Cənab Berk-dən başqa.. O

mənə yanındakı boş stulu əli ilə göstərib oturmağımı xahiş etdi.. Əyləşib onların söhbətinə sakitcə qulaq asmağa başladım... Bu stol ətrafında bu birliyin sakinlərinin həyatları həll olunurdu.. Dediklərinə görə artıq tezliklə üsyan olacaqdı. Tezliklə bütün başsızlar ölkəsi AB-nin azadlıq üsyanı ilə qarşılaşacaqdı.. Cənab Berk arada qızğın söhbətdən ayrılıb mənə baxaraq gülümsəyirdi.. Mənsə susub bu yaşlı amma çox əzəmətli kişinin nələri bacardığını təxmin etməyə çalışırdım..

- "Bu qədər bəsdir.. Hamınız bugünlük tapşırdıqlarımı yerinə yetirin.. Sabahdan əhalini buna hazırlaşdırmalıyıq..İndi çıxa bilərsiz" –deyə Cənab Berk öz yoldaşlarına müraciət etdi.. Onlar otağı tərk etdilər.. Bizsə keçib divanda əyləşdik.. Bayaq məni bura gətirən qız bizə çay gətirdi... və mən bu yaşlı qoca ilə söhbətin doyumuna başladım..
- Bəs Cənab Berk, bütün bunlar nəyə görə..? Niyə məhz siz..? Siz və burdakılar vətəndaşlar da sıradan vətəndaşlar kimi başsız da ola bilərdiniz.. Niyə..?
- Əlbəttə.. Ola bilərdik.. Amma olmadıq.. İstəmədik.. Biz insan zülmünün azadlığı ilə qidalanırıq.. Əgər ruhumuzu da işğal altına soxuruqsa onda niyə yaşayaq..?

- Axı siz Anarxistlər eşitdiyimə görə Allaha inanmırsınız..? Allaha inanmayan insan bəs nə üçün yaşayır ki.?
- Biz..? Yox bizim birlikdə nə qədər çox “biz”lik varsa da hərə ayrı-ayrılıqda bir “mənlik”dir.. Əlbət ki, bizim aramızda Allaha inanan da var, inanmayanlar da var.. Gəl sənə bir şey danışım ondan sonra söhbətə davam edək..
- Buyurun..

O çaydan bir qurtum aldı və danışmağa başladı..

## *Torpaq.. Su.. Hava.. Od..*

Milyard illər əvvəl hələ heç insan oğlu yaranmamışdan çox-çox illər əvvəl Tanrı aləmləri yaratdı.. Sonra bu aləmlərdə boşluğu gördü.. Ona görə də Torpağa bir toxum əkdi.. Beləcə həyat yarandı.. Günlər keçdi.. Toxum torpaqdan qidalanmağa başladı.. O öz həyat mənbəyinə - torpağa aşiq oldu.. Torpaq isə gün-gündən bütün varlığını toxuma verməyə başladı..

Amma toxum hər gün daha çox çəkdi içinə torpağın Sevgisini.. Torpaqsa gün-gündən toxuma

daha az sevgi verdi, toxum inkişafını zəiflətdi.. O torpağın bütün suyunu çəkmişdi.. Torpağın qəlbi çatlaq-çatlaq oldu.. Toxum ağlamağa başladı.. Onun göz yaşları acılığından torpağı daha da şoranlaşdırdı.... və bu zaman Tanrı peyda oldu, toxumdan nə olduğunu, niyə ağladığını soruşdu.. Toxumsa ona susuz, sevgisiz qaldığını, torpağı nə hala saldığını danışdı.. Tanrı toxum üçün ağladı.. Onun göz yaşları yağış olub aləmlərə yağdı.. Torpaq yenidən bərəkətləndi.. Toxum yenidən qidalandı.. Beləcə Tanrının yaratdığını olan sevgisi yarandı..

Günlər keçdi.. Toxum get-gedə iriləşir və kök atırdı.. O artıq torpaqda sıxılmağa başladı.. Bir gün torpaqdan başını çıxardıb ətrafa boylanmağa müəssəl oldu.. Hava... Azadlıq.. Toxum küləyə aşiq oldu. Külək onunla sevişməyə başladı.. Onu sevdi.. Hər əsdiyində onu oxşamağa başladı.. Hərdən əxlaqsızlığını cüzi də olsa büruzə verdi.. Amma özünü saxlaya bildi.. Sevgisini hər əsdiyində təcəssüm etdirməyə başladı.. Toxum torpaqdan qidalandı.. Su ilə böyüdü.. Küləklə isə sevdi.. Lakin bir gün küləyin qəzəbi tutdu, qısqandı onu ətrafındakılara.. Fırtınaya döndü.. Artıq ağaca dönmüş toxumun budaqlarını sındırdı.. O ağlamağa başladı.. onun yalvarışlarına Tanrı gəldi və yenə göz yaşlarının səbəbini soruşdu.. O isə olanları danışdı..

Küləyin ona çox əzab verdiyini söylədi.. və Tanrı günəşin istisini, odunu göndərdi onun üçün.. Küləyi isə zəiflətdi..

Günlər keçdi.. Artıq günlər aylarla, illərlə əvəz olundu.. İndi bu toxum artıq kök atmış, iri gövdəli bir ağaca dönmüşdü.. Amma bir gün günəş çox yaxınlaşdı ona.. Onun qabığını yandırmağa başladı.. O yenə hönkürtü ilə ağlamağa başladı.. Tanrı yenə də peyda olub nələr olduğunu soruşdu.. O da hər şeyi danışdı.. Tanrı küləyi geri döndərdi.. Günəşi öz yerinə çəkdi.. Torpağı təravətləndirdi və yağışın da dərəcəsini azaltdı.. Hər şey normallaşdı.. Sonda tanrı ona dedi:

- Sənə verdiklərim hər biri ayrılıqda səni çox sevirlər, amma əgər sən eqoistlik edib təkcə birinə yaxınlaşsan, birinə inansan, birinə bağlansan bax o səni məhv edəcək...

Sonra Tanrı son dəfə gözdən itdi.. Artıq ağaca dönmüş toxum həyatı dərk etdi.. Anladı ki, həyatda heçnə əbədi deyil və bizə dəyər verən hər şeyi eyni dərəcədə sevməliyik.. Nəyə inanırıqsa inanaq fərqi yoxdur... Əsas olan inamımıza sadiq qalmağımızdır..

Sözünü bitirdi artıq soyumuş çayını stolun üstünə qoyub dedi:

- Bax Əlinur.. İnsanın Allaha inanıb inanmaması öz işidir.. Nə də olsa hər kəs öz ayağından asılacaq.. Amma hər insanın yaşamaqçün nəyəsə, kiməsə inanması vacibdir.. İnam bizim dəstək verən, kömək olan, ümid verən, güc mənbəyimizə çevrilən bir gözə görünməzimizin təcəssümüdür.. Bəli, bizim aramızda ateistlər də var amma mən şəxsən Allaha inanıram və bizim AB din birliyi deyil.. Bu dostluq, qardaşlıq, ədalət, haqq, azadlıq birliyidir.. Bu Anarxist birliyidir..

Ona danışmadan sakitcə qulaq asırdım.. Bu qocanın düşüncələri mənim beynimi sarmışdı... və mən indi bu qədər yolu niyə gəldiyimi, əziyyətlərimi anlayırdım.. Bunlara dəyərdi.. AB-ni, bu dəlisov anarxistləri, bu qocanı tanıdığımı, anladığımı hiss edirdim.. Buralar mənim üçün daha da aydınlanmışdı.. Söhbətin marağından artıq gecənin düşdüyünü hiss etməmişdim.. Onlar bu yaxın günlərdə üsyana hazırlaşırdılar.. Bu Başsızlar ölkəsində ancaq kralın və ölkəsinin, zibil məmurların başlı olmadığını göstərmək üçün, vətənlərində azadlığı, ədaləti bərqərar etmək üçün... Bəlkə bu heçnə ilə nəticələnəcəkdi.. Bəlkə hamısı məhv

olacaqdı.. Amma onlar azadlıq uğrunda döyüşəcəkdilər.. Mənsə daha getməliyəm.. Yeni “uzaqları” kəşf etməliyəm.. Gecəni yatdıq.. Səhər açılanda məni yola salmağa xeyli insan yığılmışdı.. Hamısı ilə sağollaşdım.. Sonda Cənab Berk məni qucaqladı və qulağıma bu sözləri pıçıldadı: “ Sən çox bilmədiyin sandığın şeylərdən agahsan və çox bildiyin zənn etdiklərin haqqında anlayışın belə yoxdu.. ” Sonra o cibindən kiçik bir bıçaq çıxardıb mənə bağışladı.. Sağollaşdıq və mən yola düzəldim..

# *Səssizlər yarımadası.*

Artıq dörd saatdı qatar dayanmadan gedir.. Toz-torpaqlı səhradan yaşıllıqlara keçməyimizə baxmayaraq səhranın qumu qatarın canına hopmuşdu.. Biz bir gölün ortasından keçirdik.. Suyun duruluğundan gölün dibinə elə sadəcə baxışlarla enmək olurdu.. Çox gözəl idi.. Bir neçə saat da getdikdən sonra qatar bir stansiyada dayandı.. Sonuncu stansiya – Səssizlər yarımadası.. Yolda gələndə məndən arxada oturan kor bir qocanın öz-özü ilə danışığını dinləyirdim.. Əvvəlcə onun dəli olduğunu zənn elədim.. Lakin onda korluq və öz-özünə danışıqdan başqa bir qəribəlik görmədim.. O öz-özünə bu yarımadadan danışırdı..

“Hə, yenə Səssizlər yarımadası.. Yenə sükut küçəsindəki “Don” oteli.. Yenə əbədi susqunluq içərisindəki insanlar.. Bu dəfə axırıncı dəfədi gəlirəm.. Daha onsuz bir də gəlsəm ürəyim dözməz ki.. Bəlkə elə indidən getməyim.? Hə, hə getməyim.. Bir neçə gün yollarda gecələyim, sonra qayıdıb yalandan deyərəm gedib gəldim.. Yox.! Axı o məni özü qarşılayıb, yola salacağını dedi.. Ufffff..! Olsun, onsuz görmürəm susaram bir az da nolacaq ki..? Heçnə.! Onsuz məcburam.! Axı nolardı kimləsə danışa biləydim buralarda.. Yox yox olmasın...

Yadımdadı hələ o dəfə bir turistlə danışdığıma görə həbsə atacaqdılar.. Bu dəfə isə mən evə vaxtında və problemsiz çatmaq istəyirəm..”

Sonra o susdu.. Bir saat sonra isə biz artıq çatmışdıq.. Mən çantamı götürüb vaqondan endim.. Hava soyumuşdu.. Mən yavaş-yavaş stansiyadan çıxmağa başladım.. Bir müddət getdikdən sonra irəlidə “Don” oteli yazıldığını gördüm.. Hələki bu yarımada haqqında tək anlayışım bu otellə cəmləşirdi.. Otelə çatdım.. Qədim strukturaya malik, sarayları xatırladan əzəmətli bir tikili.. Qapını açıb içəri girdim.. Resepşına yaxınlaşdım.. İçəridə boşluq vardı.. Təkcə bir qız resepşında.. O mənə baxdı.. Mən ona tək nəfərlik bir otaq kirayələmək istədiyimi dedim.. Sonra Berkin mənə verdiyi qızıl pullarla ödədim.. Nömrəmə qalxdım.. Buranı heç də rahat, lüks bir yer adlandırmaq olmazdı.. Amma yatmağa,qalmağa rahat yerim vardı bir neçə günlük.. Bir az uzandım.. Yorğunluğumu çıxardıb rahatlaşdım.. Sonra otaqdan çıxıb gəzməyi qərara aldım.. “Don” otelini itirməməkçün hər addımımı yadımda saxlamalıydım.. Tanımadığın bir yerdə azmaq elə də xoş deyil. Küçə boyu aşağı enməyə başladım.. Düzdü elə də soyuq deyildi amma isti də demək olmazdı.. Yavaş-yavaş sahilə tərəf gedirdim. . Niyə buraların “Səssizlər yarımadası” adlandırılması

elə də qəribə deyildi.. Yollarda insanlar çox olsa da vəhşi bir sükut vardı hər yerdə.. Yalnızca ayaqqabıların taqqıltılarını duymaq olurdu..

Sahil kənarına çatdım.. Burda hava əməlli-başlı soyuq idi.. Demək olar ki dənizdə çimən yox idi.. Amma sahildə az da olsa gəzişən insanlar vardı.. Bom-boz qumluq.. Yavaş-yavaş qüruba enən günəş.. Bir tərəfdə isə çılpaq qayalıqlar.. Qayalıqlarda oturub dənizə baxırdım.. Bir müddət dənizin gözəlliyinə daldım.. Ləpələr sahili qucaqlayırdı.. Günəş artıq üfüqdə solurdu.. Mən ətrafa boylandım və məndən sağ tərəfdə bir qızın mənə tərəf dayanıb şəkil çəkdiyini gördüm.. Qəribə gəldi.. O məni çəkirdi..? Ya üfüqdəki günəşi..? Ayağa qalxdım, o uzaqdan mənə baxdı.. Günəşin zəif şüaları altında parıldayan gözəl simasını gördüm.. Ona tərəf yeriməyə başladım.. Çatanda özümü tuta bilməyib oğrun-oğrun onun çəkdiyinə baxmaq üçün boylandım.. O isə əli ilə qarşımı kəsib incə, nazik səslə dilləndi:

- Hələ bitməyib bir az gözlə..

İlk əvvəl səsinə vuruldum.. Sonra lövhəsinin arxasında durub Allahın yaratdığı bu gözəlliyə tamaşa etməyə başladım.. Çiyninə tökülən qara saçları içimdə ehtiras dalğası yaradırdı.. Qəhvəyi-yaşıl gözləri onu sevməməyi mümkünsüz edirdi..

Hələ dodaqları.. Deyəsən dəli oluram.. Bu gözlər məni çox uzaqlara aparır.. O başını qaldırdı gözlərimə baxdı

- Bitdi.. İndi baxa bilərsən..

Lövhənin qarşısına keçdim.. Donub qaldım.. Hələ belə bir rəsm görməmişdim.. Qayalıq.. Orda oturan mən.... və üfüqdə qürub edən günəş.. Mənim bitən günəşim.. Dönüb onun gözlərinə baxdım.. Günəşin bitən şəfəqlərində parıldayan gözəlliyinə..

- Necədi..? Xoşuna gəldi..? Deyəsən gəlmədi.. – deyə üzgün səslə dilləndi..

Mənsə donub qalmışdım ..

- Hə, yaxşıdı, əladı, gözəldi, füsunkardı... Mənim hələ də şəklimi belə gözəl çəkən olmamışdı... (Əslində ümumiyyətlə şəklimi çəkən olmamışdı.)
- Şadam ki, xoşuna gəldi.. Bu gün bir az gecikmişdim deyə yaxşı çəkə bilmədim – deyə gülümsündü..
- Hələ bu çəkə bilmədiyindi..? Onda çəkə bildiklərinə baxmaq istərəm..

O döndü üfüqə baxdı..

- Artıq gecdi mən getməliyəm..

Mən isə ona baxmaqdan doymurdum.. Ətraf həqiqətən də qaranlığa bürünürdü..

- Bəs adını bilmək olar..?
- Aytac..
- Mən də Əlinur.. Şadam tanışlığımıza..

O bir az üzümə donaraq baxdı.. Sonra gülümsəyərək dedi:

- Çox xoş oldu.. Hmm.. Əgər bunun sənin üçün nəsə əhəmiyyəti varsa mən hər gün bu vaxtı burda oluram.. Hələlik

Tablonu götürdü və yavaş-yavaş uzaqlaşdı.. Mən də gəldiyim yolla otelə geri döndüm.. Yerimdə uzanıb qəhvəyi-yaşıl gözləri olan qız barədə düşüdürdüm.. İncə bədəni, uzun, səliqəli barmaqları, gözəl siması ilə məni sanki ovsunlamışdı.. Onu fikirləşə-fikirləşə yuxuya getdim.. Səhər günortaya yaxın oyandım.. Bütün günü çıxmadım otağımdan.. Dünənki vaxtda yenə sahilə getdim.. Bir az gözləyəndən sonra o gəldi.. Füsunkar gözəlliyi məni valeh edirdi.. Bu dəfə yanında dayanıb o rəsm çəkərkən ona baxırdım.. Doymaq olmurdu.. O bitirdikdən sonra qayalıqda oturub söhbət etdik.. Bir neçə gün, hətta həftələrlə eyni keçdi.. Amma bu

müddətdə mən başqa yerləri də gəzdim, müxtəlif insanları tanıdım buralarda..

Bu gün yenə də sahildə oturmuşduq.. O qədər gözəl idi ki.. Mən onun gözlərində xəyala dalmışdım.. Onun yanında sanki hər şey donurdu.. Sanki zaman indi heç işləmirdi.. Ayağa durdum, qarşısında diz çökdüm.. Qəhvəyi-yaşıl gözlərinə baxdım.. "Səni sevirəm" dedim.... O isə sakit-sakit gözlərini çəkmədən baxırdı.. Birdən ani yaxınlaşdım və dodağından öpüb geri çəkildim.. "Mənim sevgilim olarsan.?" deyə soruşdum..Onun təəccübdən gözləri bərəlmişdi.. Səsi belə çıxmırdı.. Mən səhv elədiyimi zənn elədim.. "Özüm-özümə gərək eləməzdin axmaq!" deyə-deyə qalmışdım içimdə amma birdən onun gül üzündə kiçicik təbəssüm gördüm.. O an sevincdən hətta aya qədər uça bilərdim.. O boynumu qucaqladı və dedi:

- Bir də de..
- Nəyi bir də deyim..?
- De ki sevirsən məni..
- Səni sevirəm.. Sevirəm.. Sevirəm.. İstəyirsən lap qışqırım dəniz boyu.. Səni sevirəm..! Səni sevirəm..!
- Yaxşı-yaxşı sakitləş.. Bildim.. Mən də səni sevirəm.. (gülümsəyərək dedi)

Sonra biz sahildə əl-ələ gəzdik.. Dəniz çox incə toxunuşlarla yuyurdu sahilin üz-gözünü.. Onun barmaqlarımı sıxan əlləri.. Hər dəfə mənə baxanda bilmirəm batan günəşdən ya sevgidən parlayan gözləri...

O gecə mən çox xoşbəxt idim.. Onun varlığı, onun xoşbəxtliyi idi məni xoşbəxt edən.. Adını çəkəndə qulağımın pərdələrini sevgi ilə oxşayan bir "can" idi xoşbəxtliyim.. Gün batandan sonra onunla otelə gəldik.. Bir az oturduq çox şeydən danışdıq, zarafatlaşdıq.. O isə sanki məni illərdir tanıyırmış kimi hər şeyi anlayışla, başa düşürmüş kimi dinləyirdi.. Hərdən sual verir, hərdən gülümsünür, hərdən gözlərin bərəldib daha diqqətlə qulaq asırdı.. Buralara gələnə qədər olan ən maraqlı, yadda qalan şeylərdən danışdım..

- Buralara gələnə kimi hər şeyi danışdım.. Burdasa sənə rast gəldim.. Çoxdandı məni gözləyirmiş kimi.. Bilmirəm sadəcə indi beynimdə yalnız sənsən..
- Əlinur, həyatımda parıldayan ən doğma günəş oldun.. Sən mənə bu son bir ayda hər şey oldun.. Bilmirəm sən çox fərqlisən.. Mən çox insan tanıyıram.. Hamısı da bir-birindən fərqli.. Burda

çoxdan yaşayıram.. Bura sanki mənim bir parçamdı..

- Bura..? Yəni bu yarımada..? Mənə buranın niyə belə adlandığını deyə bilərsən..? Bəs niyə “Səssizlər yarımadası”.? Yəni bu ad nə ilə bağlıdı..?
- Hələ heç kim danışmayıb sənə..? Onda dinlə qoy mən danışım onsuz yeridi.. Bunu mənə nənəm danışmışdı..
- Yaxşı dinləyirəm səni, buyur.....

## ***Bir, iki, üç, dörd, beşinci...***

Bu gün o yenə oyandı.. Amma bu gün çox şey fərqlidir.. Hər şey bir az qəribədi.. Bir az hürküdücü... Bir az təəssüflü.. Artıq bir ay keçib.. Fəridənin köhnə amma çox sevdiyi keçmiş həyatı ilə sağollaşmasından düz bir ay.. Nə qədər xoşbəxt, nə qədər mükəmməl, nə qədər fəxr edici bir həyat.. Bir ay – hansı ki, bir saatı bir ömür qədər uzun və əzab verici...

Hər şey 40 gün öncə başlamışdı. Əvvəlcə hər şey sıradan bir gün kimi idi.. Amma gecə.. O gecə Fəridənin həyatının dönüş nöqtəsi oldu.. Onun demək

olar ki, hər şeyi vardı.. Arzu olunacaq bir həyat.. Çox görkəmli və varlı bir ailə.. Qızına görə bütün var-dövlətindən keçməyə hazır olan – Ata, dünyada tək qızı, tək varlığı olan qızını çox sevən – Ana və bir də balaca 6 yaşında olan qardaşı.. Əsl xoşbəxt ailə... Ölkənin ən yaxşı universitetinin ikinci kurs tələbəsi olan Fəridə.. Hansı ki, hər yerdə barmaqla göstərilən biri – Arzular həyatı yaşayan biri..

Bir, iki, üç, dörd, beşinci ...

Bütün istədiyi maddi və mənəvi hər şeyə malik olan və dünyada hamıdan çox sevdiyi bir sevgili.. Ucaboy, göy gözlü, universitetin futbol komandasının kapitanı olan – Emin.! Bəlkə də bütün bu həyatını qurban verə biləcəyi tək insan.. Onlar artıq iki ildir tanışdılar və təxminən elə bu qədər vaxtda sevgili.. Bu iki il Fəridəyə 18 ildən daha şirin, daha da arzulanan, daha da xoş idi.. Amma necə deyərlər heç nə əbədi deyil.. Bu gecə hər şey qara tüstü kimi korlanacaqdı.,!

Artıq gecdi.. Saat 00:45.. Fəridə dostlarla əyləndiklər "Rest" əyləncə mərkəzindən ən yaxın rəfiqəsi ilə evə qayıdır.. Qaranlıq... Yol ayrıcında onlar ayrıldılar.. Fəridə bir az gəzmək fikrinə düşdü..Parkın içi ilə getmək üçün pilləkənlərlə aşağı düşdü.. Park çox sakitlikdi.. Həm də çox qorxuducu..

Fəridə daha gec saatlarda da burdan keçmişdi amma ona belə qorxulu gəlməmişdi burası, çünki Emin həmişə onunla idi.. Amma bu gecə o təkdi və bura onu üçün çox qorxunc gəlirdi.. Qarşıda iki kölgə peyda oldu.. Onlar daha da yaxınlaşırdılar.. Qorxu.. Fəridə əsməyə başladı.. Gecə vaxtı insansız park.. Vəhşi sükut.. Saat 01:00 və iki naməlum insan ona doğru irəliləyir.. Artıq onlar arasında 3 addım qalıb.. Fəridə dayandı elə onlar da.. Fəridə sağa keçmək istədi amma qarşısını kəsdilər, sonra sola yenə kəsdilər və Fəridə geri dönərək qaçmağa başladı.. 1, 2, 3, 4, addım ... Beşinci addımda onu arxadan yaxaladılar.. O qışqırmağa başladı, köməyə çağırdı.. Bağırdı.. Amma nə xeyri..? İndi burda başqa heç kim yoxdu.. O əlini cibinə atdı sonun zəng elədiyi adam – rəfiqəsi idi.. O “yes” düyməsini basdı, zəng getdi amma telefonu onun əlindən alıb bir kənara tulladılar.. O isə qışqırmağa davam edirdi.. Onlar Fəridəni yerə yıxdılar və paltarını cırdılar..... və.........

Fəridənin ah-naləsi. Telefonda isə rəfiqəsinin qışqırığı.. O hər şeyi eşidirdi.. Bu vəhşilər onu heyvan kimi zorlayırdılar.! Hə, zorlayırdılar..! Növbə ilə.! Sanki talonla paylanan sonuncu çörəyə dolaşan milçəklər kimi acgözlər..! Fəridə o qədər qışqırdı, bağırdı, həm onların vurduğu zərbələrdən, həm də ağrılardan huşunu itirdi.. Ayılanda ətrafında heç kəs

yoxdu.. Artıq hava aydınlanırdı.. Ayağa belə qalxa bilmirdi.. Bütün bədəni ağrılar içində.. O başını qaldırıb özünə nəzər saldı.. Bəli bunlar hamısı reallıqda olmuşdu..! Bu onun beşinci sinifdə gördüyü qorxunc yuxulardan deyildi..! Onu zorlamışdılar..! Həm də heyvan kimi..! Paltarı cırıq-cırıq, həm də qanlar içində..! Güclə özündə taqət tapıb ayağa durdu.. Kənarda olan telefonu götürdü və axsaya-axsaya evə doğru getdi.. Saat 05:30 idi evə çatanda.. Qapını açıb öz otağına qalxdı və elə uzandığı kimi də yatdı..

Göz qapaqları güclə açılır-bağlanır.. Başının üstündə üç nəfər var.. Amma tam görə bilmir.. Beş dəqiqə sonra özünə gəldi.. Başı üstündə anası, bibisi və qonşu qızı idi.. Onlar sanki mumiya görmüş kimi heyrət içində baxırdılar..! Yox, yox..! Daha çox başqa planetdən gələn "miller"ə baxan kimi baxırdılar..! Hə, nədi.?! Qəribə gəlir.?! Guya belə deyil.?! Zorlanana sən belə baxmırsan.?! Hamı belə baxır.!

Öz aralarında danışa-danışa otağı tərk etdilər..Fəridəyə indi bunlar hamısı yad idi.. Sanki o yad planetdə, tanış olmayan canlılarla idi.. O da bir neçə dəqiqədən sonra otağından çıxdı.. Qonaq otağına düşdü. Otaq doludu adamlarla.. Qohumlar, ailə, qonşular.. Kinayəli baxışlar.. Sanki həyatda yaşamaq

haqqına minnət vururlar.. Bura indi edam şəhərciyini xatırladır.. Hamı qana susamış sakinlər.. Başda isə cəllad – ata oturub.. O ayağa durdu, yaxınlaşdı, kinli baxışlarla Fəridəni süzdü.. Fəridə yavaş-yavaş anlayırdı ki, dünən təkcə bakirəliyini yox, bütün həyatını itirmişdi.. Onun ulduzu daha parlamırdı, sönmüşdü.... və birdən bir şillə onu bu xəyallardan oyatdı.. Atası ona bağıra-bağıra:

- Get..! Cəhənnəm ol gözümdən..! Tərk elə bu evi, bu həyatı..! Daha sən mənim qızım deyilsən..!

Bir dəqiqə, iki dəqiqə, üç dəqiqə, dörd dəqiqə, beşinci dəqiqədə o özünə gəldi və ağlaya-ağlaya qaçaraq evdən çıxdı...

Artıq 40 gün keçib.. Keçmiş həyatı ilə indiki həyatı nə qədər fərqli olsa da, oxşarlıqları da az deyil.. İndi də onu barmaqla göstərirlər.. Amma "ən xoşbəxt qız" kimi yox..! Fahişə kimi..! İndi də o beşə kimi saymağı xoşlayır.. Amma atdığı addımları, səmadakı ulduzlar yox..! Barda qəbul etdiyi müştəriləri..! Əvvəlki kimi indi də yaxınları var.. Amma anası, atası yox, fahişə dostları..!

Bəs sevgilisi...? Həyatında hamıdan çox sevdiyi..? O nə oldu bəs..? Fəridə evdən qaçanda onun yanına getmişdi.. Amma "nə olur-olsun biz həmişə bir yerdə

olacayıq..!" deyən Emin onu hamı kimi atmışdı..! Və indi bütün bu cəmiyyət onun üçün yaddı..! Bu cəmiyyət ona yaddı..!

Bir, iki, üç, dörd, beşinci ...  Son dəfə....

"Sonra o illərlə fahişə oldu.. Amma özü istəyərək yox. Onu bu həyat, atası, anası, yaxınları, sevdikləri fahişə elədi.. Deyilənə görə sonra  o onu zorlayanların ikisini də öldürmüşdü.. Özü də yataqda.. Amma  bunu heç kim sübut edə bilmədi.. Bəlkə də istəmədilər.. Hər halda onsuz da bir gün o alçaqlar   cəzalanacaqdı.. Ən dəhşətlisi isə sonradan baş verdi.. Bir gün onun sifarişlə getdiyi müştərilərdən biri atası oldu.. Həyatın qəribə oyunu.. Həmin gün atası onu öldürdü..Sonradan özü də intihar etdi.. O vaxtlardan sonra buralar "Səssizlər yarımadası" adlanır.. Çünki heç kim bu haqda  bir də danışmadı..  "

Aytacın gözləri.. Onun dodaqlarına baxaraq ehtirasımı güclə boğurdum.. O da danışıb qurtarandan sonra susdu.. Mən dözmədim onu özümə tərəf çəkib öpməyə başladım.. O da bunu gözləyirmiş kimi eyni ehtiras və coşqunluqla cavab verdi öpüşlərimə.. Əllərimlə boynunu oxşamaq..  Hərdən dodağımı dişləməyinin ağrısından saçını yolmaq.. Köynəyinin

düymələrini açmağa başladım.. İndi onun bədəni bütün gözəlliyi və saflığı ilə qucağımda, qollarımın arasında idi.. Barmağım döşləriylə oynaşırdı.. O bütün varlığı ilə məni dəli edirdi.. Əxlaq, tərbiyə mənə yad idi həmin an.. Həmin gün ömrümdə heç vaxt unutmayacağım bir gecə yaşadım.. Çöldə külək əsir.. Yarpaqlar küləyin vıyıltısı ilə sevişərək tango ifa edirlər.. Mənim üçün bu dəqiqə zaman donub.. O isə yatıb.. Hələ bu qədər şirin və aciz, amma çox gözəl varlıq görməmişdim.. Onu qucaqlayaraq uzanmışdım...

## *Səbəbsiz*

- Sən... Sən belə eliyə bilməzsən axı... Hər şey belə sadəcə bitə bilməz axı... Niyə belə gedirsən..? Səbəb nədi..? Səbəbsiz..? Hə..? Axı sən həmişə mənimlə olacağına söz vermişdin..! Sən mənim olacağına söz vermişdin... Sən axı məni sevirdin... Sevgi isə bir saatın, bir günün içində ötən deyil..! Unuda bilməzdin axı sən məni... Belə tez niyə bəs..? Həmişəki kimi susursan... Susqunluğunun səbəbini deyə bilərsən mənə..? Nədi..? Niyə susursan eeee...??? Danışdaaa..! Danış...! Bağır...!

Qışqır..! Söy-döy öldür məni..! Amma danış nolar danış... Xahiş eliyirəm susma...

( Bir anlıq sükut və hıçqırıq səsləri, yaşla dolmuş qəhvəyi yaşıl gözlər və tik-tak, tik-tak, tik-tak... Vəhşi sükutu onun qalın və xırıldayan, aram-aram yorğunluğunu büruzə verən səsi pozur... )

- Bilirsən... ( sükut ) Biz həm çox fərqli, həm də çox oxşar insanlarıq... Bizi bu qədər yaxınlaşdıran da çox güman ki, bu oldu... Amma bilirsən insanlar dəyişir... Sən də dəyişirsən... Mən də dəyişirəm... Biz dəyişirik... İstəsək də, istəməsək də bu belədi... və bu bir neçə ay ərzində “ Sevgi ” adlandırdığımız hissin sadəcə uşaq arzuları, ehtiras, maraq, azca da istək olduğunu anlayırıq...
- Yox..! Axı mən sevmişəm, sevirəm... Sən də mənim kimi...
- Yox Aytac... Bu sadəcə istək və ehtiras olub. Sevgi bu deyil...
- Bəs nədi..? Deyə bilərsən mənə nədi bu..? İlk dəfə səni tanıdığım gün sevgili olacağımız ağlıma belə gəlməzdi... Amma bir gün səndən mənə təklif gəldi... Əvvəl sadəcə tanış, sonra dost, sonra sevgili.., hələ bir müddətdən sonra həyat yoldaşı olası idik... Yadındadı verdiyimiz sozlər..? Mənim hələ də yadımdadı... ( O susdu və saat yenə də tik-

tak, tik-tak, tik-tak... ) Hətta yadımda ilk görüşümüz... İlk öpüşün... Sən mənə həyatımda " bundan şirin heç nə yaşamamışam " demişdin... Demək yalan imiş... Hər sözün, öpüşün, gülüşün də yalan... Sevgin kimi... Bilirsən, Əlinur mən hələ də anlaya bilmirəm, bunların səbəbini anlaya bilmirəm və hələ də sevirəm...

Yanaqlardan süzülən göz yaşlarını incə əlləri ilə sildi və sözünə davam etdi..

- Mən sənə inanmıram... Sən sadəcə qorxaqsan... Məni tək qoyursan... Sən qorxursan gələcəyindən amma mən sənə görə hər şeydən keçdim... Dünyada tək tanıdığım və tək sevdiyim anama qarşı çıxdım... Sənin yanında olmaq üçün yalanlar danışdım və budur sənin mənə hədiyyən məni sadəcə kimsəsizliyə tərk edirsən...
- Qulaq as, ağlama, mən də belə istəməzdim... Amma ne edək belə lazımdı... Biz ayrılıqda daha xoşbəxt ola bilərik... Necə istəyirsən başa düş, amma mənim getməyim lazımdır... Bu ikimiz üçündə ən yaxşısıdı...
- Dayan, nooooooolaaar dayan... Mənə üç söz de və mən səni bağışlamağa hazıram, təki sən mənlə ol... Mənə hər görüşdüyümüzdə dediyin üç sözü

de....... ( tik-tak, tik-tak, tik-tak... Sükut dəqiqələrlə davam etdi... tik-tak, tik-tak, tik-tak... )

- Bağışla amma artıq gecdi, hər şey bitti Aytac... Sənə söz verirəm daha məni görməyəcəksən... Köçürəm burdan uzaqlara... Həyatında olmayacam daha... Dönməyəcəm bağışla... Boş yerə gözləmə əbədiyyən əlvida... (tik-tak, tik-tak, tik-tak, tik-tak... )

Birdən o dik atıldı və məni görüb heyrətlə qucaqladı..

- Əlinur..Dayan getmə... – ağlayaraq güclə danışırdı..
- Bir dəqiqə.. Hələ burdayam.. Nolub..?
- Heç yuxumda gördüm ki, məni tərk edirsən..
- Aytac.. Bu realdı mən gedirəm... Sənin indi mənə ehtiyacın var.. Mənim sənə ehtiyacım olduğu kimi.. Daha heçnə olmayacaq.. Rahat ol.. Rahat yat.. Qoy bu mənlə olan son günün kimi yadında qalsın..
- Bəs sən..? Noldu birdən-birə...? Sabah oyananda mənimlə olmayacaqsan..?
- Yox, mən həmişə səninlə olacam.. Amma bilirsən.. İş orasındadır ki, sən mənimlə olacaq qədər cəsarətli olmayacaqsan.. Bilirsən.. Ruhumda külək əsir. . Qəlbim günahları ilə tək.. Yox, yoxdu qəlbim.. Bu sənsən içimdə.. Nəfəsim olan..

Kəsilən.. Gedən.. Gələn.. Hər şey sənlə bitəcək bir gecə.. Sən olmasan belə dəniz ətrafında bir qumlu sahil olacaq.. İlk görüşdüyümüz an kimi.. Sən olmasan belə heçnə olmayacaq.. Heçnə bitməyəcək.. Amma heç nə əbədi olmayacaq.. Hər şey nə vaxtsa bitəcək.. Bitəcək...

- Bəs sən..? Sən məni tərk edib hara gedəcəksən.?! Kimlərlə olacaqsan.?!!
- Mən səni tərk etmirəm ki... Sən həmişə ruhumdasan.. Mən səni tərk etmək istəsəm belə sən məni tərk etməzsən.. Çünki məndə artıq iki can var.. Ruhumda olduğunu dərk et sevgili.. Səni sevirəm.. Yum gözlərini gözəlim... Yorulmusan yat.. Yat ki, yeni doğan günəşi qarşılaya biləsən..

O yuxuya getdi.. Mənsə çantamı götürüb çıxdım.. Bunu eləməyə məcbur deyildim.. Amma həyatımı bir insana bağlamamalıydım.. Belə səhv edə bilməzdim.. Bəlkə də sadəcə qorxurdum.. Pilləkənləri endim.. Oteli tərk etdim.. Səhər artıq açılırdı.. Stansiyaya getdim.. Belə tezdən heç kim yox idi.. Növbətçiyə yaxınlaşıb məlumat almaq istədim, o isə bu gün qatar gəlməyəcəyini dedi.. Səbəbsə bura gələn qatar yolundakı qəzadır.. O mənə alternativ yolla – avtobusla getmək üçün lazım olan yeri göstərdi.. Artıq hara getdiyimi bilmədiyim bir avtobusdayam.. Ətraf

hər cürə insanla doludu.. Mənsə beynimdə hələ də onunla danışıram...

“Hisslərini ovuşdur.. Əllərimlə qucaqla sevgini.. En aşağı.. Düş xəyallarımdan.. Bu gecə sevgimdə heçnə qalmasın.. İstəmirəm.. Oyuncaqlarımı da atdım bir kənara.. Gəl.. Gəlmə.. Gəl.. Gəlmə... Gəlmə istəmirəm.. Sınıram.. Düşürəm.. Düşürəm qəlbinin gözündən... Sevgi dumanlandırır beynimi ağır şərab kimi.. “Sevgidən uçursan sən” dediyin kimi... ”

Hisslərimdən ayıldım.. Yanımda oturan yaşlı qadının qəribə baxdığını gördüm.. Bizsə yolumuza davam etdik.. Tam altı saat yol getdik.. Sonra bir yol qırağındakı balaca restoranda saxladılar.. Biz yemək yedik və bir az da dincəldik.. Dedilər ki, bir də 12saatdan sonra dayanacağıq.. Ona görə hər kəs özünə lazım olan şeyləri alsın.. Yol dağların arası ilə uzun bir səyahətə bənzəyirdi.... və bu yolda hələ çox macəralar məni gözləyirdi......

## *Qəza dayanacağı*

Qışqırıq səsləri.. Göz qapaqlarındakı yorğunluq.. Titrəyişlər.. Oturacağın belimə verdiyi ağrı.. Qorxu.. Hürkü.. Əsəblər, gərginlik və toqquşmadan qabaq eşitdiyim “biz düşürük möhkəm tutunun”. Sonra heçnə yadımda deyil.. Oyananda isə ancaq ağrı vardı və tərpənə bilmirdim.. Təkcə başımı döndərib avtobusun tərsinə döndüyünü və hər kəsin qarışdığını gördüm.. Ətrafda yaralı adamların ah-naləsi.. Hər kəsin bir yeri qan içində.. O tərəfdən avtobusun lap başından kimsə kömək edib insanları çıxarır.. Ayağımda ağrı hiss elədim.. Başımı döndərəndə yaşlı qadının ayağımın üstünə düşdüyünü gördüm.. Ayağımı onun cüssəsinin altından çıxarmağa çalışdım.. Amma cəhdlərim boşa çıxdı.. Qadının çəkisini nəzərə alsaq ayağım çoxdan qırılmalıydı.. Halsızlıqdan gözlərimi yumub yerimdəcə qaldım.. Gözlərimi yenidən açanda avtobusdan çıxarılmışdım.. Hamı bir yerə yığılmışdı.. Ocaq qalanıb ətrafına yığılmışdılar.. Ölən yox idi amma çox adam yaralanmışdı.. Hamını xilas edən avtobus sürücüsünün köməkçisi idi.. Avtobus düşərkən ağaclara çırpıldığından ucuz qurtulmuşduq.. Hava nə soyuq idi nə də isti.. Bu qayalı dağlı yerdə ağac çır-çırpısını yığıb bir az isinmək üçün bir yerə yığışmış

fərqli-fərqli insanlar.. Avtobusdan çıxara bildikləri, özləri ilə götürdüklərini hər kəs başqaları ilə paylayıb aclıqlarını yatırmaq üçün yeyirdilər...

Ocağın işığının insanlardan arxada yaratdığı kölgə.. Kiminin ruhundan böyük, kiminin cismindən.. Fərqli insan vücudları, fərqli insan düşüncələri.. Ətraf-aləm qara yorğanını öz üstünə bərk-bərk çəkib.. Hərə öz aləmində.. Birdən hamının diqqətini sürücünün kobud səsi cəlb elədi.

- Avtobusda nasazlıq vardı və yola birdən-birə yol kənarından tülkü çıxdığından sükanı döndərdim, sadəcə əyləc işləmədi.. Təpədən aşağı düşdük.. Çox şükür ki, heç kimə heçnə olmayıb.. Hər kəs yaxşıdır.. Bu gecəni burda keçirdək Sabah tezdən yola düşərik.. O biri şəhərə elə də çox yol qalmayıb.. Sadəcə bu yol ilə demək olar ki, heç kim avtomobil sürmür ona görə burda təkik və bir-birimizi növbə ilə qorumalıyıq.. İndi isə hər kəs başına gələn və ya bildiyi bir hadisəni danışsın.. Bir az vaxt keçsin.. Birinci mən danışım sizsə ona kimi dinləyin və fikirləşin.. Bu hekayəni mənə gənc yaşlarımda bizim küçədə yaşayan bir səfil danışmışdı.. O kimsəsiz bir qoca idi və hər dəfə

nəsə danışanda nəticə çıxarmağımı söylərdi.. Mənsə heç də həmişə anlamazdım...

## *Sonuncu parçam*

Saat 7:30.. İndi qış fəslidi.. Düzdü çöldə qar, yağış var.. Amma hava elə də soyuq deyil.. Ev telefonu zəng çaldı.. O heç tərpənmədən əlini uzatdı və telefonun dəstəyini qaldırdı, qulağına yaxınlaşdırdı "alo" dedi... (Bilirsən mən onun səsinə heyranam.. Onun elə gözəl səsi var ki, hərdən öz-özünə zümzümə edəndə lap valeh oluram.) "Yaxşı götürərəm" dedi və dəstəyi asdı.. Bu yəqinki onun müdiri idi. O hər səhər zəng edir ki, lazım olan sənədləri unutmasın.. (Düzü o zəng eləməsə də yadından çıxmaz heç vaxt.) Hə qayıdaq onun müdirinə.. Onun 25 yaşı var.. Adı Məhərrəmdi.. (Baxmayaraq ki, bu ad ona heç yaraşmır..) Ona bütün bu şirkət,  mal-mülk atasından qalıb.. Özündən razı varlı axmağın biridi..( və yeri gəlmişkən deyim ki,  Aynuruma gözü düşüb, elə bilir ki, xəbərim yoxdu.) Nəysə qayıdaq Aynura.. O oyandı, durdu ayağa, həmişəki kimi "salam" verib, yuyunmaq üçün vanna otağına keçdi.. Təxminən 7-8 dəqiqədən sonra ordan çıxdı. Əl-üzünü sildi. Yeməyini yedi, gəldi əyləşdi və başladı bəzənməyə..

Qara, uzun, buruq saçlarını qaydaya saldı, makiyajını çəkdi, əynini geyindi və sağollaşıb çıxdı.. Baxmayaraq ki, o gündə cəmi 35 dəqiqə bəzənməyə vaxt sərf edir, bu mənim günümün ən xoş hissəsidi.. Çünki gün ərzində ona ən yaxın olduğum andı.. Onun qoxusunu harda olsa tanıyaram.. Elə xoş ətri varki, lap bihuş edir...

Sənə bir az Aynurumdan danışmaq istəyirəm. O 1989-cu il 19 fevralda anadan olub. Mən onu artıq 21 ildi tanıyıram.. Onun hər gecə necə göz yumduğunu, hər səhər necə oyanmasını görmüşəm.. O çox gözəl təhsil alıb və indi də 3cü kursda oxuyur və 3 ildi özəl banklardan birində kredit meneceri vəzifəsində işləyir.. Aha, elə sən fikirləşdiyin kimidi. Həm qoçaq, həm ağıllı... Onu təsvir edim.. Qara uzun buruq saçlı, qəhvəyi iri gözlü, normal amma çox cazibədar dodaqları, təmiz dərisi və daha nələr-nələr.. Hə... Məni başa düşürsən deyəsən.. Belə qızı necə sevməmək olar..? Onun demək olar ki, çox yaxın rəfiqəsi ya dostu yoxdu. Çünki mənim hətta sənin kimi çox sifətlər görüb insanlarda. Mən onu 6 ildir ki, sevirəm amma hələ də cürət edib deyə bilmirəm, heç istəsəmdə bacarmaram.. Nə dilim var, nə də ağzım.. Mən onun tək dostu, tək sirdaşıyam, o hər şeyini təkcə mənə  danışıb, ilk sevincini mənlə bölüşüb, ilk kədərində mənlə təsəlli tapıb...

Ona görə də onu çox sevirəm.. Baxmayaraq ki, bu qarşılıqlı deyil amma mən onu belədə sevirəm... Hə artıq saat 19:00.. Gör zaman necə də tez keçir. O harda olsa indilərdə gəlməlidi. Amma bu gün nədənsə o gecikir. Aynurun işi saat 18:00-da qurtarır 45 dəqiqə isə onun yoludur. Ən geci 19:00-da evdə olmalıdı. Artıq saat 20:00-du amma o hələ də yoxdu.. Nə olub görən..? Nə baş verib..? Narahatlıq hökm sürürdü otağımızda.. Saat 23:42 qapı açıldı.. Gülüş səsləri ilə mənzil büründü.. Bu onun gülüşü idi. Mən hələ də onu belə gülən görməmişdim. O deyəsən xoşbəxt idi. Amma bir dəqiqə.. Dayan görüm.. Bəs bu kimin səsidi.? Qəribə diapazonlu kişi səsi... Deyəsən nəsə dəyişmişdi.. Bir azdan heç də tanış gəlmiyən bu səsin sahibini gördüm.. 24-27 arası yaşa sahib bu cavan oğlan.  Çox sakit tərzdə, həm də bir centlmen kimi, aram-aram danışırdı.. Danışığından başa düşdüm bu onun müdiri Məhərrəm idi.

Bəs o bu alçağa necə inanmışdı..? Necə etibar edib gecə vaxtı onu evinə gətirmişdi..? Görünür o çox içmişdi... Bəlkə də elə buna görə Məhərrəm indi burda bizim aramızda idi.. və budur yataq otağı onlar sadəcə söhbət edirlər..  Amma acgözlük, hərislik, ehtiras Məhərrəmə güc gəlir.. Mənsə baxmaqdan başqa heç nə edə bilmirəm.. Onların bir yerdə hər dəqiqəsini, hər saniyəsini bu gecə ərzində məndə təzahür edir.. Onun

ağrıları.. Məhərrəmin xislətindəki şeytanın onun çarpayısı üstündə necə dövr etməsi... Kinayəli baxışları mənə zillənmişdi. Sən də başa düşdüyün kim Aynur bu gecə çox şeyini itirdi.. Ağlını, ləyaqətini, qeyrətini, namusunu, bakirəliyini, bütün gələcək həyatını... Məhərrəm bütün onun həyatını məhv etdi.. Gecə saat 5:00.. O artıq yuxuya getmişdi.. Məhərrrəm durdu əynini geyindi və qarşıma keçib mənə arsız-arsız baxa-baxa saçını düzəldib gülümsədi və  sadəcə bir dəfəlik çıxıb getdi. .

Səhər saat 7:30 zəng gəldi.. Amma o oyanmadı... 10 dəqiqə sonra yenə zəng gəldi, o azca tərpəndi amma yenə də oyanmadı.. Saat 8:55-də onun əl telefonu zəng çaldı.. Telefonun səsi o qədər yüksəkdi ki, ona oyanmamaq qeyri-mümkündür. O zəngi qəbul elədi və “eşidirəm” dedi.. Telefonda incə amma təmkinli bir qadın səsi.. “Xanım Zeynalova siz işdən qovulmusunuz.. Məhərrəm müəllim buyurdu ki, bunu sizə çatdırım. Sağ olun..” dedi və dəstəyi asdı.. O bir dəqiqə ərzində hər şeyi beynində fırlatdı amma heç nə xatırlaya bilmədiyindən heç nə anlaya da bilmədi..

O gəldi qarşımda əyləşdi.. Mənə baxdı.. Məndə özünə tamaşa etdi.. Bədəni ağrılardan sızıldayırdı..

Çox çətin də olsa beynində dünəni yadına salmağa başladı..

Saat 6-da işdən çıxmışdı. Sonra Məhərrəm onu restorana dəvət etmişdi. Saat 8-də onlar parkda gəzişmişdilər.. Daha sonra Məhərrəm ona evə getməyi təklif etmişdi. O, o qədər içmişdi ki, bu təklifi heç nə demədən sakitcə qəbul etdi.. Onlar evə gəldilər sonra... Sonra isə yataq otağında olanlar... O hər şeyi başa düşmüşdü.. Artıq nəyisə dəyişmək üçün çox gec idi.. Olan olmuş, keçən isə keçmişdi.. Aynur ağlamağa başladı.. Mən hələ onun belə ağladığını görməmişdim. Onun hönkürtüsü bütün otağı bürüdü.. O mənə baxaraq: "Səndən zəhləm gedir.. Niyə icazə verdin bunları eləməsinə..??? Niyə..? Niyə..? Niyə..? "
O qışqırdı və əlindəki qəhvə fincanını sifətimə çırpdı…

Sınmış şüşə qırıqları yerə səpələndi... Mən artıq hissələrə bölünmüş bir şüşə qırığı idim.. O isə əynini geyindi.. Qapını çırpdı və bir dəfəlik getdi... Məni saymadan, qırıqlarımı ayaqları altında tapdaladı, atdı və getdi.. Mənim sonuncu parçam isə onun arxasınca son dəfə sevgi ilə boylandı....

O hekayəni bitirdi.. Hekayə o qədər də ürək açan olmasa da onun qocalıqdan qırışlaşmış çöhrəsində gülüşlər büruzə verirdi.. Sonra ondan sağda oturan biri dilləndi..

- Mənsə özüm haqqımda, yuxularım haqqında danışacam..

## *Səbəblərini gizlətdiyim yuxular*

Həmişə fikirləşmisən... Görəsən mən kiməm..? Necə yaranmışam..? Səbəblərim nə olub..? Məqsədim nədi..? Niyə mövcudam..?... və belə-belə milyonlarla tapa bilməyəcəyin suallar səni ömrün boyu izləyir... Onlar yalnız Səni torpaqda rahat buraxırlar..... və bəlkə də onda sən bütün suallarına cavab tapa bilirsən... Amma bu qeyri-müəyyəndir... Çünki hələ heç kim real olaraq “Ora - o dünyaya” gedib qayıtmayıb...

Yuxu... Yuxu bəlkə də bizim O biri dünyaya torpaqsız - ölümsüz səyahət edə biləcəyimiz bir mövhumdur... İnsan təxəyyülsüz heç vaxt yaşaya bilməz... Axı xəyalsız dünya nəyə gərək..?.. Sən heç təsəvvür edə bilərsən..? Bütün günü yaşadığın hiss, həyəcan, sevinc, kədər, şan-şöhrət, ağırlıq məsuliyyət

olmadığı bir yuxu... Bəs niyə yuxu görürük..? Ya hərdən niyə görə bilmirik..? Ya səbəbləri nədi bu yuxuların..? Bəlkə də bilirsən, bilirəm, bilirik bu səbəbləri. Amma çox vaxt gizlədirik... Səbəblərini gizlətdiyimiz yuxular kimi...

İlk yuxum hələ də yadımdadı... Hardasa beş yaşım olardı... Bəlkə də dörd... O dəqiq yadımda deyil... Bəlkə yadınızdadı “ Ну погоди ” cizgi filmi..? “ Волк ” personajı da yadınızdadı..? Bax mənim ilk yuxumun görkəmli qonağı  O olmuşdu... Bilirəm, sizə gülməli gəlir... İndilərdə mənim özümə də... Hər halda cizgi film personajından qorxmaq... Uşaqlıq... Düzdü, indiki dövrə baxsaq, həmin yaşda olan uşaqların daha ağıllı, daha xoş görünüşlü, daha dünya görüşlü olduğunu nəzərə alsaq mənim ilk yuxumdan onlar ancaq beşikdə qorxa bilərlər...

Yuxu... Yuxu bizim hərdən arzularımız olur... Həyatın reallığından bezərək yuxularımızda öz təxəyyül dünyamızı genişləndiririk... Bunun səbəbi cəmiyyətdir... Realda yaşaya bilmədiyimiz hadisələr təxəyyülümüzdə istədiyimiz, arzuladığımız kimi, bizdən asılı olaraq tərənnüm edir...

Yuxu... Yuxu bizim gerçəkləşdirə bilmədiyimiz məqsədlərimiz olur... Öz məqsədlərinin yolunda nə isə

itirməkdən qorxanlar ona daha asan olaraq yuxularında çatmağa üstünlük verirlər...

Yuxu... Yuxu bizim əldə edə bilmədiyimiz xəyallarımız olur... Bəlkə də təxəyyülü azca inkişaf hər bir insan öz xəyalını yuxularında tapa bilməyə çalışır... Xəyal – hamının arzuladığı, istədiyi amma heç də hər kəsin nail ola bilmədiyi bir məvhumdur...

Yuxu.... Yuxu milyonlarla hətta milyardlarla ola bilər... Amma əsas onların sayları, qədərləri deyil... Əsas olan onların səbəbləridir... Səbəblərsə qeyri-müəyyən... Müəyyən olanlarsa gizli... Gizliliksə xroniki ardıcıllıq...

Səbəblərini aydın, açıq-aşkar bildiyim, lakin heç kəsə göstərmədiyim, demədiyim, gizlətdiyim yuxular da çoxdu... Bəzən bu gizlənişlərin səbəbi qorxu, bəzən sevinc, bəzən kimisə itirməmək, bəzən özündən çəkinmək, bəzən sadəcə səbəbi anlamamaqdan irəli gəlir... Amma onsuz da yenə tarix təkrarlanır... Yuxular da... Zaman dövr edir... Yenə də beynimin kor yaddaşında səbəbini gizlətdiyim yuxular qalır...

Hər kəs danışanı elə diqqətlə dinləyirdi ki, sanki özü onunla birgə yenidən yaşayırdı danışdıqlarını..

Sonra bir qadın və qucağında 7-8 yaşında olan bir balaca qız uşağı  gəlirdi.. Qızın o qədər şirin sifət quruluşu vardı ki, baxdıqca insan həyatın onunla  necə gözəl olduğunu düşünürdü..

- Mən də qızımın atasının özü haqqında bizə illər əvvəl danışdığını xatırladım.. O dünyada bəlkə də ən qorxusuz insan idi.. Bir neçə il əvvəl onu bir təyyarə qəzasında itirdik.. Bu hadisə onun uşaqlığından böyüyənə kimi yaşadığı bir hissi ifadə edir.. Qorxu hissini...

## ***Qorxu***

Qorxu... Qorxusuzluq nədi görəsən..? Həyatda qorxusuz insan yoxdur... Kim nə qədər deyir desin hamının içində qorxu var... Sadəcə qorxunu içində gizlətməyi bacaran insanlar var... və onlar ən bacarıqlı insanlardır...

Həmişə çarpayının altında nə isə olduğunu fikirləşirdim... Həmişə çarpayıdan enəndə çəkinirdim... Hətta çox vaxt tullanırdım. Elə təsəvvür edirdim ki, düşən kimi kimsə məni ayağımdan çarpayının altına çəkəcək. Amma bir müddətdən sonra çarpayımın yanına güzgü qoyuldu və mən rahatlıqla

çarpayının altına baxa bilirdim. Orda heç nəyin olmadığına əmin olandan sonra rahatca düşürdüm. Hər səfərdə nəzərlərim güzgüdən çarpayının altını yalayırdı. Bir müddətdən sonra daha nə güzgüyə, nə də çarpayının altına baxmırdım. Dəyişmişdim, qorxuma qalib gəlmişdim və artıq çarpayının altında heç nəyin olmadığını qətiyyətlə beynimə yerləşdirmişdim...

Sonralar qaranlıqdan qorxum yarandı... Mən qaranlıqda yata bilmirdim və buna görə də günün 24 saatı mənim otağımda işıq yanırdı. Hətta işıqlar keçsə belə anam şam yandırardı ki, birdən gecə oyansam qorxmayım... Qorxurdum qaranlıqdan çünki işıq yanmayanda heç nəyi görmürdüm. Amma otaqdan gecələr səslər gəlirdi. Cürbəcür, fərqli, cığıldayan, tik-tak...

Vahiməli, dəhşətli gəlirdi mənə bütün bu səslər... Zaman keçdi və mən bu səslərin hardan gəldiyini öyrənmək üçün bir gün yatmadım... İşığı söndürdüm və tam sakitliyin çökməsini gözlədim... Məni yavaş-yavaş qorxu qucaqlayırdı... O bütün bədənimi sarmışdı... Bədənim titrəyirdi... Ürək döyüntülərim o qədər asta-asta idi ki, qorxudan nəinki döyüntülərin səsini eşitmək hətta onu damarlarımda hiss etməyə başlamışdım... Və budur saat 00:00 və otağın vəhşi

sükutunu bir səs pozdu...... “ tik-tak, tik-tak, tik-tak... ” Mən titrəyə-titrəyə səs gələn divara yaxınlaşmağa başladım... Artıq demək olar ki, bu qorxu dənizində batmışdım... Səs yenə davam edirdi... “ tik-tak, tik-tak, tik-tak... ” Mən get-gedə yaxınlaşırdım... Otaq qap-qaranlıq zülmətə çevrilmişdi... Mən artıq divarın yanında idim... Amma səs məndən yuxarıda idi... Sanki tavanla divarın qovuşmasında kimsə mənə gülürdü... “ tik-tak, tik-tak, tik-tak... ”

Balaca fanarı olan oyuncağımı əlimə götürdüm ayağımın altına stul qoydum və yavaş-yavaş yuxarı qalxmağa başladım... Səs get-gedə daha da yaxında cingildəyirdi... Səs artıq mənlə divar arasındakı boşluqda qalmışdı... Fanarı yandırdım və divara saldım... Bir saniyənin içində içimə rahatlıq çökdü... Sanki alovlanan evimi özüm söndürə bilmiş kimi fəxr hissləri oyanırdı içimdə... Bu səsin müəllifi isə divardan asılmış divar saatı idi... Qorxu məni tərk etmişdi... Daha sonradan artıq qaranlıqda yatmaqdan qorxmurdum. Hətta gecələr hərdən saatın dirijorluğu altında səslənən bu musiqi ilə bərabər mən də zümzümə edirdim...

Anamla atam hər ikisi gündəlik işdə işləyirdilər. Buna görə mənə qardaşım baxırdı... O məndən böyük idi və hər halda daha ağıllı... Zaman keçirdi və mən

qorxu hissimi demək olar ki, unutmuşdum... Demək olar ki..! Amma bir gün çarpayımın yanındakı şkafın açıq qapısının bərk şaqqıltı ilə çırpılması səsinə oyanana kimi... O vaxt bəlkə də ən böyük qorxumu yaşamışdım... Qorxudan sifətim ağarmışdı, mən tez qaçıb yan otaqda qalan qardaşımı qucaqlamışdım. O isə heç nə deməmişdı.... və mən o gecəni qardaşımla keçirmişdim. Səhər öz otağıma gələndə pəncərənin açıq olduğunu gördüm. Bizim otaqlar ikinci mərtəbə də idi və pəncərə bizim kiçik baxçaya açılırdı. Bu kiçik həyət sahəmizdə tək və yeganə bir ağac vardı o da ki, 100 ildən çox yaşı olan qoca Çinar ağacı idi. Dünən güclü çovğun olmuşdu. Hətta ağacın qurumuş olan bir budağı qoparaq yerə düşmüşdü. Əlbət ki, dünən şkafın qapısı ilə oynayan da külək idi... Amma bunu anlamağım belə ürəyimə sakitlik gətirmədi axşam işığı söndürməyə qoymadım. Bir xeyli şkafa baxa-baxa durdum... Amma qorxudan gözümə yuxu da getmədi... Mən qardaşımı çağırdım və mənim yanımda yatmasını xahiş etdim. O da əlbəttə ki, mənim xahişimi yerə salmadı... O məni qucaqladı. Amma heç birimiz yatmamışdıq. O mənim nəzərlərimin şkafa dikildiyini görüb məndən soruşdu:

- Nəyə baxırsan Elnur..?
- Şkafa...
- Niyə..?

- Nəbilim... Qorxuram...
- Niyə..? Nədən..? Qorxmalı nə var ki, şkafda..?
- Bilmirəm... Amma elə bil kimsə, nəsə var içində... Qorxuram... Çox qorxuram...
- Gözlə - dedi, və yerindən durdu və şkafa yaxınlaşıb onu açdı və sözünə davam etdi – görürsən..? Bura boşdur..! Nəinki bu şkafda, bu otaqda sənlə məndən başqa heç kim, heç nə yoxdur...

Təzədən şkafı örtdü və çarpayıya qayıtdı və qulağımın dibində sanki 100 il ömür sürmüş, təcrübəli, ağıllı, müdrik ağsaqqal kimi sözünü təsdiqləmək üçün danışdı..:

- Bax, Elnur  görürsən orda heç nə yoxdu... Nə bu şkafda, nə də bu otaqda... Orda ancaq sənin yaratdığın qorxu var və qapını açdıqda arxasında qorxu yox olur...

Bu sözlər mənim həyatımda çox böyük rol oynadı.. İllər keçib mən artıq cavan oğlan olmuşdum.. Amma daha mənim tanıdığım ətrafım çox böyüdü.. Əgər uşaqlıqda həndəvərim bir otaq böyüklüyündə idisə, indi bu bir dünya yer kürəsi boydadı... Bu böyük məkandakı həyat isə daha qorxulu, daha həyəcanlı, daha təhlükəlidir...

Amma mən qorxumu içimdə gizlətməyi bacarırram... Bu çox çətin olsada bu yolda pillə-pillə addım-addım qalxaraq uğurları sadalayıram... Amma real həyat mənim otağımdan daha qorxuludur... Çünki burda bir qapını arxasındakı qorxu getdikcə o biri gəlir... Qapılar arxası qapılar çoxdur... Sadəcə çalışıb qorxuya üstün gəlməyi bacarmaq lazımdır...

- Həyatımda bir dəfə ürəkdən sevmişdim.. Hər şeyi ona bağlamışdım.. Həyatımın bir parçasına çevrilmişdi.. Həm də ən önəmli parçasına.. Amma bir gün biri gəldi və bütün dünyamı məhv elədi və o an ancaq intihar fikirləşdim.. Amma son anda tanımadığım biri mənə bir yaxınının da intihar etdiyini və bunun heç bir yaxşılığı olmadığını dedi və mənə bu hekayəni danışdı.. Mən onda həyatımın dəyərini anladım – bunları uzunsaçlı bir qız danışırdı..

## *Aydan*

Soyuq payız gecəsi... Həyətdə demək olar ki, sakitlik hökm sürür... Bircə bu küləyin səsindən

başqa.. Vıyıltısı taxtadan olan köhnə pəncərəni dələrək otağın boşluğunu ağuşuna alır.. Bu vaxtlarda – yəni payızda belə külək buralar üçün elə də gözlənilməzlik deyil.. Artıq ağaclar soyunublar.. Köhnəlmiş, qızılı rəngə bürünmüş paltarlarını cırıq-cırıq edib, balaca tikələrə bölüb yerə səpələmişlər.. Qarşıdakı meşədə də ancaq bəy nəslindən olan həmişə yaşıl bahalı geyimli ağaclar hökmranlıq edir.. Həyətdəki ağacın altındakı bulaq qaynayır.. Bulaq bəlkə də ağacın göz yaşlarıdır... O düşdüyü günə ağlıyır...... Şükr etməkdənsə...

Otağın boşluğunda küləyin vıyıltısı dəqiq və aydın eşidilir.. Tək nəfərlik, üstünə qırmızı üstlük atılmış çarpayı, qapının sol küncündə paltar üçün asılqan, ondan biraz irəlidə şkaf, otağın sağ küncündə isə kamen otağın bütün varidatını təşkil edir...

Qaranlıq otağı zülmətə dalmağa qoymayan kiçik, dar kamen... O kamen hansı ki, kiçicik bir qığılcımla başlayıb sonu küllə bitəcək... O kamen hansı ki, öz içindəki işığı ilə, odu ilə, sevgi ilə bütün bu otağı zülmətin qanadlarından çəkib alır.. O zülmət hansı ki, insanlara daha yaxındır.. O zülmət hansı ki, sonda bir sərhədi var.. Lakin ordan geriyə yol yoxdur..

Kamenin qarşısında bir kölgə bərqərar olub.. O öz vücudunun sayəsində işığın bu otağı tam işğal

etməsinə mane olur.. Aydan.. Bu vücudun sahibi.. “Şimal şəfəqi” tək parlaq gözləri, qara uzun buruq saçları, incə bədəni, uzun səliqəli qaşları, uzun enli kirpikləri, balaca burnu, nazik ancaq ürək döyüntülərini duya biləcək qədər həssas dodaqları və bütün incəlikləri ilə gözəl yaradılmış bir vücud...

İyirmi beş yaşlı bu gənc qız hələ də on yeddi yaşlı yeniyetmə kimi təravətli idi.. Onun dəniz tək mavi gözləri qəhər və qüssə ilə dolmuşdu.. Kirpiklərində dolğunlaşıb yanaqlarından süzülərək yaşayan göz yaşları dodaqlarında süquta uğrayırdı.. Əlləri ilə tez-tez gözlərini silməsinə baxmayaraq gözlərindən axan çaylar get-gedə gurlaşır və sel kimi tökülürdü.. O bezmişdi.. Bu xəstə cəmiyyətdən, yarasa tək kor insanlardan, qarşılıqsız və sonlu olan sevgilərdən, dost adlandırılan tülkülərdən, şərəfini itirmək bahasına da olsa canavar sürüsündən ayrılıb çaqqallara qoşulanlardan...

Anasından bezmişdi.. Onu bu qədər çox və təmənnasız sevməsindən.. Atasından bezmişdi... Onu bu qədər alçaldıb önəmsəməməsindən.. Sevdiklərindən bezmişdi... Onlara verdiyi dəyərin dəyərsiz olduğunu sonda anladığından... Gecələr aydan bezmişdi... Aydanın qara həyatını aydınlada bilmədiyindən... Gündüz günəşindən bezmişdi... Ona

soyuq olduğunda lazımınca isidə bilmədiyindən... İynələrdən bezmişdi.. Onları tapa bilmədiyində hətta bədənini, ləyaqətini, qeyrətini belə satmağa hazır olduğundan... Özündən bezmişdi.. Çünki O da artıq bu cəmiyyətin bir üzvü olaraq formalaşmış, onun çox cüzi bir hissəsinə çevrilmişdi... Yaşamından bezmişdi.. O həyata layiq olmadığından... Ölümündən bezmişdi.. Onu bu qədər vaxtdı niyə aparmadığından...

Amma O indi reallıqdan çox uzaqlarda, səmimi təxəyyül dünyasının ən sirli sərhədində idi... Göz yaşları... Hıçqırıqlar... Bütün varlığı ilə otağı qucaqlayırdı... O indi bütün olanları yadına salırdı... Yalanlar, aldatmalar, çirkinliklər, pisliklər... Bütün həyatındakı qar uçqunlarını yadına salırdı, o artıq sıldırımlı qayalara çırpılaraq məhv olmadan həyatın yamaclarına doğru irəliləyirdi... Bu da dənizin təki... Bu da son... O qalxdı... Amma onun ümidləri daha qalxa bilmədi və son nəfəsini dərib yuxuya getmək istərdi... Aydan çarpayıdan keçib dəhlizə doğru irəlilədi... Qapını açdı.. Stulu dəhlizə qoydu və üstünə çıxdı.. İpi yuxarı doladı və boynuna keçirtdi... İndi o bütün bu olanları sanki qəbul etmişdi... Onun çoxdan gözlədiyi gəlmişdi... Bu onun ölümü idi... Stulu qaraçı rəqqası kimi onun ayaqlarının altında o yan bu yana oynayaraq ayaqları altından çəkildi... xırp... O

ölümünə çox yaxın idi.. Artıq onu ancaq saniyələr ayırırdı ölümündən... Amma onun xırıldayan əzik səsi sonda bu sözləri istefaya göndərdi... “Mən bunu istəmirdim...”

Bəli o ölümündə həyatını arzulayırdı... Aydan daha bizlərlə deyil... Sadəcə anlayın ki, bu bizə verilən ömür limitini nə özümüz nə başqa birisi almaq iqtidarında deyil... Allahdan başqa... Ona görə də nə olur-olsun, hətta yaşamağa nəfəs belə çatışmayanda yenə də yaşamaq üçün mübarizə aparın... Çünki həyat bir də verilən deyil... Necə ki Aydan daha bizlərlə deyil...

- Mənsə sizə bir sevgi haqqında danışacam.. Sadəcə mümkünlüyü çətin olan bir sevgi.. Əslində sadəcə qorxu və cəsarətsizliyə görə baş tutmayan bir sevgi.. Bir eşq macərası.. Bir roman.. Bir Virtual romanı. - əlindəki ağac qırıntılarını ocağa ataraq gənc oğlan öz hekayəsini danışmağa başladı..

## *Bir Virtual Romanı*

[1ci gün-Tanışlıq]

Günəş gözlü (23:55):

- Salam..

Bəxtiyar (23:55):

- Salam

Günəş gözlü (23:57):

- Necəsən..?

Bəxtiyar (23:58):

- Belədə, çoxsağol sən necəsən?

Günəş gözlü (23:59):

- Mən də yaxşı...

[30 dəqiqəlik sükut]

Günəş gözlü (00:30):

- Bəxtiyar...

Bəxtiyar (00:31):

- Hə..?

Günəş gözlü (00:31):

- Heç..

Bəxtiyar (00:32):

- De görüm nə olub..?

Günəş gözlü (00:32):

- Nəbilim, darıxıram danış da...

Bəxtiyar (00:32):

- Həəə... Nədən danışım..?

Günəş gözlü (00:33):

- Nəbilim... Bax məsələn.. Niyə həmişə sənin statusun üzgündür..?

Günəş gözlü (00:35):

- Bilirsən.. Mən bir qızı sevirəm... O çox gözəldi.. Amma mən onun haqda heçnə bilmirəm.. Hətta adını da bilmirəm.. Sadəcə o məndən bir mərtəbə aşağıda qalır.. Özü də deyəsən tək.. Amma çox gözəldi.. Füsünkardı.. Və deyəsən mənim varlığım ya

yoxluğum onun heç ruhunu da incitmir.. Nəysə öz problemlərimlə səni yormuyum..

Günəş gözlü (00:36):

- Yox, danış.. Nə yormaq.? Maraqlıdı, danış..

Bəxtiyar (00:36):

- Nəyi maraqlıdı..? Biz ki, cəmi 40 dəqiqədir tanışıq.. Həm də virtual..

Günəş gözlü (00:37):

- Hərdən virtual realdan daha gerçək və yaxın olur.. Hərdən elə olur ki, ilk dəfə salam verib tanıdığın biri səni daha yaxşı anlaya bilir.. Mənim üçün bu hərdən daha bütün ömürdü.. Yaxşı mən daha çıxım.. Yuxum gəlir.. Sağol..

Bəxtiyar (00:37):

- Sağol.

[2ci gün-Yaxınlıq]

Günəş gözlü (23:55):

- Salam

Bəxtiyar (23:55):

- Salam, necəsən?

Günəş gözlü (23:56):

- Yaxşı, sən necəsən? Necə yatmısan?

Bəxtiyar (23:57):

- Mən belədə... Gec yatmışam.. İndidə başım ağrıyır.. Gözlə dərman içim gəlirəm.

Günəş gözlü (23:57):

- Ok.. Gözləyirəm..

Bəxtiyar (00:14):

- Hə, gəldim..  İndə de görüm sən necə yatmısan.? Əhvalın necədi?

Günəş gözlü (00:14):

- Mən də yaxşı. Əla yatmışam..

Bəxtiyar (00:14):

- Lap yaxşı. Özün haqda danış da..

Günəş gözlü (00:15):

- Nə danışım.?

Bəxtiyar (00:17):

- Nəbilim.. Məsələn: Mənim RAP-dan xoşum gəlir.. İdman stilində geyinirəm.. Futbolla məşğulam.. İtləri sevirəm.. Bəs sən..?

Günəş gözlü (00:20):

- Hmm.. Mən daha çox klassik geyinirəm və daha çox rock sevirəm

Bəxtiyar (00:21):

- Hə, deməli belə-belə işlər...

Günəş gözlü (00:23):

- Yaxşı Bəxtiyar, mən çıxım.. Gedim yuxum gəlir. Sonra yenə danışarıq. Sənlə danışmaq xoşdu.

Bəxtiyar (00:24):

- Mənə də sənlə danışmaq.. Sağol. Gecən xeyrə..

[3cü gün-Büruzə]

Günəş gözlü (23:55):

- Salam, Bəxtiyar..

Bəxtiyar (23:56):

- Oooo salam. Necəsən.? Nə var nə yox.? Nə yaxşı ki, gəldin darıxırdım burda tək...

Günəş gözlü (23:56):

- Çoxsağol canım, mən yaxşı. Hə mən də darıxırdım.. Sən necəsən..?

Bəxtiyar (23:57):

- Mən də belədə. Sıxılıram.. Bilirsən mən heç sənin adını da bilmirəm eee..

Günəş gözlü (23:57):

- Adım Elina.

Bəxtiyar (23:58):

- Hmm... Çox qəşəng adın var. Bəs niyə gizlədirdin ki.?

Günəş gözlü (23:59):

- Gizlətmirdim eee... Sadəcə nəbilim deməmişdim.. Buna da öz səbəblərim var.. Özüdə az deyil. Ən azından virtualda insanı tez tanımaq olmur...

Bəxtiyar (00:00):

- Hə onu düz deyirsən... Elə həyatda da insanlar çox maskalanırlar.. Amma gec ya da tez hər kəs öz maskalarını itirir..

Günəş gözlü (00:00):

- Hə canım, maskalar.., sifətlər.., insanlar...

Bəxtiyar (00:01):

- Qulaq as mənə şəklini göndərə bilərsən.? Sən mənə çox maraqlı gəlirsən.. Sadəcə səni görmək istəyirəm...

Günəş gözlü (00:02):

- Hmm.. Yaxşı.. Bilmirəm niyə amma mən sənə inanıram.. Ok. Qəbul elə..

[FAYL QƏBUL OLUNDU]

Bəxtiyar faylı açdı və şəkilə klik etdi. Şəkil açıldı və budur şəkildə onun bir neçə müddətdir

sevdiyi O qonşu qızının şəkli idi.. O heyrət içində donub qalmışdı.. Heçnə edə bilmirdi.. Nə danışa nə yaza.. Nəsə etməyə çalışmırdı da.. O sadəcə indicə öyrəndiyi həqiqətdən şoka düşmüşdü..

Günəş gözlü (00:13):

- Au Bəxtiyar sən ordasan.?

Bəxtiyar isə hələ də şokdan təzə-təzə özünə gəlmişdi.. O gözlərini şəkildən ayıra bilmirdi.. Sarı-qəhvəyi saçlar, yaşıl parıldayan gözlər, nazik dodaqlar, enli kirpiklər, uzun ayaqlar, gözəl bədən...

Bəxtiyar hələ bunların şokundan ayıla bilməmişdi… Özünə gücnən gəldi və birtəhər cavab yazdı..

Bəxtiyar (00:18):

- Hə burdayam.. (nədənsə yalan danışdı) Çayı üstümə dağıtmışdım.. Əynimi dəyişirdim… Sən.. Sən çox gözəlsən..

Günəş gözlü (00:19):

- Eee… Yaxşı yalan demə… Nəyim gözəldi eeee….. İndi sən göndər öz şəklini..

Bəxtiyar susdu.. Bir az fikirləşdi.. Düzdü o qonşusu Bəxtiyar heç fikir verməmişdi.. Amma əgər görübsə.? Tanıyırsa üzdən..? Bəxtiyar nədənsə çəkindi və yenə də yalan dedi :

Bəxtiyar (00:22):

- Mənim kompyuterim təzə format olunub eee.. Ona görə də şəkillər silinib başqa vaxtı söz verirəm göndərərəm..

Günəş gözlü (00:23):

- Hmm… Oki, Bəxtiyar nə vaxt olar göndərərsən.. Bilirsən mən sənin şəklini də görməmişəm amma sənə çox bağlanmışam.. Mənim həyatda heç kimim yoxdu.. Ona görə də burdakılarla çox yaxınam.. Amma axır vaxtlar ancaq sənsən.. Nədənsə səni çox istəməyə başlamışam…

Bəxtiyar (00:25):

- Hmm… Bilmirəm nə deyim.. Zaman Elina… Mən sənə indi heç bir söz deyə bilmərəm… Çünki indi başım ağrıyır..

Günəş gözlü (00:26):

- Yaxşı Bəxtiyar mən çıxım, gedim yatım.. Sağol canım..

Bəxtiyar (00:26):

- Sağol Elina, gecən xeyrə. Şirin yuxular…

[4cü gün-Həqiqət ağrısı]

Günəş gözlü (23:55):

- Salam canım

Bəxtiyar (23:55):

- Salam. Xoş gəldin. Necəsən.?

Günəş gözlü (23:56):

- Yaxşıyam Bəxtiyar  sən necəsən..?

Bəxtiyar (23:56):

- Mən də yaxşıyam

Günəş gözlü (23:56):

- Yaxşı..? Bəs niyə belədə yox..?

Bəxtiyar nə deyəcəyini fikirləşdi.. Axı əsl həqiqəti açıb ona deyə bilməzdi.. Deyə bilməzdi ki, bir ildi realda sevdiyi qız virtualda ona bu qədər yaxındır.. Yenə də yalan..

Bəxtiyar (00:00):

- Nəbilim, daha başım ağrımır. Həm də sən varsan...

Günəş gözlü (00:01):

- Nə mən.? Harda mən varam..?

Bəxtiyar (00:02):

- Hələ dəqiq aydınlaşdırmamışam.. Amma hələki ən azından mənimlə bax burda virtualdasan.. Mən buna çox sevinirəm..

Günəş gözlü (00:03):

- Hmm... Çoxsağol..

[13 dəqiqəlik süküt]

Bəxtiyar (00:16):

-Niyə susursan Elina..?

Günəş gözlü (00:17):

- Nəbilim, bezmişəm...

Bəxtiyar (00:17):

- Nədən.? Kimdən.? Danış görüm nolub axı...?

Günəş gözlü (00:25):

- Hər kəsdən. Hər şeydən.. İnsanlardan, bütün cəmiyyətdən. İnsanlar elə laqeydləşib bir-birinə... Elə vəhşiləşiblər ki, çöl heyvanları onların yanında heçnədir.. O gün metroda bir nəfər gördüm.. Dörd nəfər birləşib döyürdü onu dib tərəfdə.. Amma heç kim kömək etmədi.. Hamısı vəhşidi.!!! İnsanlardan bezmişəm hamısı yalançıdı..!!! Bezmişəm hər gün bir yerdə müharibə başlayır.. Hər gün minlərlə körpə öldürülür.. Nə vaxt olacaq bütün dünyada sülh..? Nə vaxt bitəcək qırğınlar, müharibələr, qətllər, yalanlar, aldatmalar..?

Bəxtiyar (00:27):

- Bilmirəm Elina.. Amma heç nə əbədi deyil.. Hər şeyin bir sonu var.. Dözmək lazımdı.. Mübarizə aparmaq lazımdı.. Sona qədər...

Günəş gözlü (00:27):

- Həə... Mübarizə.. Onsuz ondan başqa nə verirlər ki, bizə.. Yaxşı mən gedim yatım.. Yorğunam.. Gecən xeyrə. Sağol...

Bəxtiyar (00:30):

- Sağol, xeyrə qarşı.. Şirin yuxular bidənəm...

[5ci gün-Narahatlıq]

Günəş gözlü (23:55):

- Salam...

Günəş gözlü (23:59):

- Burdasan.?

Günəş gözlü (00:07):

- Uuufff... Hardasan eee...

Günəş gözlü (00:15):

- Sən yoxsan.. Bura elə darıxdırıcıdı.. Sənə elə bağlandım bu dörd gündə..

Günəş gözlü (00:23):

- Uuuuufffffffffffffffffffff.......... Deyəsən gəlmiyəssən.. Yaxşı mən çıxdım.. Öpürəm səni.. Sağol...

[6cı gün-Tənhalıq]

Günəş gözlü (23:55):

- Salam

Günəş gözlü (00:00):

- Deyəsən yenə yoxsan.. Nə olub eeee sənə..? Heç olmasa arada girəndə cavab yaz da..!

Günəş gözlü (00:14):

- Bəxtiyar sən yaxşısan..? Heç olmasa yaz ki, yaxşısan... Narahat oluram axı...

Günəş gözlü (23:55):

- Uffffffffff...... Sağol...!!

[7ci gün-Üsyan]

Günəş gözlü (23:55):

- Salam.. Bircə deməki yoxsan burda..

Günəş gözlü (00:02):

- Eeeyyyy... Mən darıxıram axı ay eşşək..!

Günəş gözlü (00:17):

- Aydındı.. Sən də belə etdin.. Sən də məni tərk etdin.. Hamı kimi.. Mənsə sənə inanmışdım.. Özümdən çox inanmışdım.. Səndə bu cəmiyyət tək ƏCLAF çıxdın.!!! ƏCLAF.!!!

Günəş gözlü (00:35):

- Nəysə... Daha səni narahat etməyəcəm narahat olma.. Bu gündən sonra daha heç kimi narahat etmiyəcəm.. Nə də kimsə məni.. Mən daha bezmişəm.. Əlvida....

Gecə saat 04:50... 16 mərtəbəli binanın damı... Güclü külək.. Dizlərini qucaqlayıb damın ən kənarında oturmuş Elina... Göz yaşlarında boğulan firuzə tək yam-yaşıl gözlər... Elina indi kimsəsiz uçurumun kənarında sanki... İndi bircə addim və o

artıq bu həyatla vidalaşa bilər.. Sonsuz dərəcədə nifrət bəslədiyi bu həyat.. İnsanları, dövlətləri, hökümətləri, təbiətləri... Vəhşi insanlar... Həm də çox vəhşi... Onunsa düşüncələrində indi ən son Bəxtiyarın nifrəti dolaşır.. Elina ayağa durdu.. Addım atmaq istəyirdi.. Amma birdən sağda oturan bir oğlan uşağını gördü.. O da nədənsə ağlayırdı.. Elina ömrü boyu bir oğlanın belə ağladığını görməmişdi.. O özünü öldürmək istəyirdi.. Amma Elinaya maraq və insanlıq hissi güc gəldi.. O oğlana yaxınlaşdı...

- Eyyy, niyə ağlayırsan..?
- Mənim dostum ölüb..

Elina ilk dəfə dostun ölümünə belə ağlayan insan görmüşdü.

- Bəs necə ölüb..? Nə olub ona..?
- O intihar elədi. 3 gün əvvəl özünü bax burdan mən dayandığım yerdən aşağı atdı.. Mənsə ona kömək edə bilmədim.. İstədim, çox istədim ki, qoymayım bunu eləməyə amma çata bilmədim.. O quş tək sanki qanad vurub uçmaq istəyirdi...
- Bəs axı niyə..? Niyə intihar..?

Elinanın təəccübdən gözləri iriləşmişdi.. O dəhşət içində idi...

- O bir qızı sevirdi... O qız da bu binadan idi.. 15ci mərtəbədə qalırdı... və o qızla təsadüfən internetdə tanış olmuşdu.. Sadəcə sonda anladı ki, o qız heç vaxt onun olmayacaq.. Bəxtiyar özünü öldürdü.. 3 gün qabaq.. Bax elə həmin bu yerdə.. Mənəsə son sözləri: Onu qoru.. O sevdiyi qızın yaşaması onun son arzusu idi.. Mənsə O qızı heç tanımıram da.. Dostumun son arzusunu da yerinə yetirə bilməyəcəm.. O bu sevginin mümkünsüz olduğunu bilirdi... və ona görə də getdi.. Əlvida belə demədən.. O sevdiyinin xoşbəxt olmasını yaşamasını çatdırmamı istəmişdi məndən.. Başa düşürsən məni..? Əlvida belə demədən..!

Nəyə görə..? Təkcə o qızın yaşaması üçün, xoşbəxtliyi üçün..!

Oğlan daha da bərk hönkürtü ilə ağlamağa başladı.. Elina dəhşət içində bütün olanlara qulaq asdı.. O artıq hər şeyi anlamışdı.. Onun Bəxtiyarı özünü öldürmüşdü.. Bu cəmiyyət idi onun intiharının tək səbəbi.. və son arzusu Elinanın yaşamağı... Elina oğlanı qucaqladı.. Bir müddət susaraq onunla bir yerde ağladı.. Sonra onu ayağa qaldırdı və gözlərinə baxıb dedi..:

- Sən dostunun son arzusunu artıq yerinə yetirdin.. O kimsəsiz qız artıq yaşayacaq.. O Bəxtiyarın son arzusunu yerinə yetirəcək.. Nə olur-olsun bu cəmiyyətlə mübarizə aparacaq...

Elina durdu yavaş-yavaş geriyə döndü.. Göz yaşlarını əli ilə silərək damdan düşdü getdi..

Artıq günəş çıxır... Üfüq çox gözəldi.. Damın başında indi yalnız Kənan qalıb.. O Kənan hansı ki, real həyatda Elinanı təmənnasız sevir.. O Kənan hansı ki, virtualda Elinanı tapmışdı və Bəxtiyar personajı quraraq onunla ünsiyyət qurmuşdu.. Amma Kənan bilirdi ki, bu sevgi mümkün deyil, o xoşbəxtlik yox ancaq bədbəxtlik gətirəcək.. və yenə də o növbəti yalanını demişdi... Elina yaşasın deyə... və yenə də Kənan hər gün olduğu kimi günəşi qarşılayırdı... və yenə də tək... və bir virtual romanı da beləcə səhifələrini rəngləyib vidalaşırdı...

Sevgi hər yerdə mümkündür.... Real ya virtual fərqi yox... Sadəcə əsl sevgi var... və sevgi üçün bəzən tərk etmək, öz sevgindən əl çəkmək, yalanlar uydurmaq var...

- Mən də bir neçə müddət bundan əvvəl yaşlı bir başçının mənə özü haqqında danışdığını nəql etmək istəyirəm.. – dedim və Berkin mənə öz mübarizəsinə necə və niyə başladığını danışmağa başladım..

## *Müəmma*

Mən dünyanı tərk etdim... Sonra özümü dərk etdim... Sadəcə ətrafa boylandım... Axını gördüm... Sonra bu axında batanları gördüm... Yaş artdıqca axın mənə qarşı daha da gücləndi... və bu güc mənim beynimi üsyan fikirləri ilə doldururdu... Və mən bir gün dayandım... Bu axın mənə doğma olan hər şeyi hər kəsi apardı... Mən bu axında durdum... Baxdım... Gördüm... Nəzərlərimi axına qarşı durmağa çalışanlara saldım.. Zəif olanları bu axın öz gücünün altına salıb sürükləyib apardı.. Mən... Güclü olanlar birləşdik.. Biz birləşdikcə axın zəiflədi.. Axın... İndi tək-tək, orda-burda, iki-iki, üç-üç, beş-beş birləşənlər var.. Hamısı da ayrı-ayrı yollarla bu axına qarşı üzür..

Hamısının da məqsədi eyni... Bu axını devirmək.. Sadə təlatümsüz bir dəniz qurmaq...

Mən də hərdən tək.. Hərdən yaxınlarla... Nə vaxt öləcəyimi bilmirəm.. Amma bir şeyi bilirəm... Heç vaxt təslim olmayacam.. Nə bahasına olur-olsun bu axının mənbəyini tapacam və onun istiqamətini dəyişəcəm.. Bu yolda ölsəm belə.. Ölsəm belə dönməm öz əqidəmdən... Bu gün hədəfim var... Mən özüm üçün çalışmıram.. Çalışıram ki, oğlum mənim dəyişəcəyim axına qarşı üzməli olmasın.. O bu axına düşməsin.. Amma istədiyi zaman bu axına girsin... Orda boğulanları.., təslim olmaq üzrə olanları orda çıxartsın, qorusun və daima mübarizə aparsın... İndi də sizlərə səslənirəm... Heç vaxt təslim olmayın... Baxın bu axın artıq 19 ildir öz qarşısına çıxanları məhv edir... Amma siz anlamırsız... Gərək hər kəslə öz dilində danışasan... Birləşin...! Birləşin...! Birləşin və bənd qurun..!!! Qoy bu bənd o qədər güclü, devrilməz, möhkəm, inanılan, müqəddəs olsun ki, onu nəinki sadəcə bu axın hətta bütün gücü ilə, bütün həcmi ilə üstümüzə gəlsə belə bizi nə ayıra bilməsin, nə də dağıda bilməsin...!!!!

Sözümü bitirdim.. Yol boyu yanımda əyləşən yaşlı qadın indi yenə də yorğun gözlərini mənə zilləmişdi.. O başını aşağı dikdi və dedi:

- Sizə tanıdığım bir ailə haqqında danışmaq istəyirəm..

## *Onun duası*

“Salam ana, mən gəldim.. Eee yenə yəqin harasa gedib.. Bəlkə də namaz qılır..” O qapını örtdü və keçib o biri otaqda kresloda oturdu.. Gözünü qapıya zilləyib dayandı.. Bir neçə dəqiqədən sonra anası otaqdan çıxdı.. Otağı səliqəyə saldı.. Gəlib onun qabağında diz çöküb alnından öpdü.

- Necəsən balam.? Dərs necə keçdi.?
- Yaxşıyam anacan, amma biraz yorulmuşam.. Bugün iki dərs yoxlama yazdıq.. Sən necəsən.?
- Mən də yaxşıyam.. Şükür Allaha.. Necə olmalıyam.? Dağ boyda oğlum yanımdadı..
- Eeee ana.. Axı mən hələ balacayam.. Həm də sinifdəki qızların hamısı məndən böyükdü.. Elə həmişə mənə gülürlər.. Mən nə vaxt böyüyüb əmim boyda olcam.?
- Olassan.. Tələsmə balam.. Sən hələ əmini də keçəssən.. Onda sənə gülən qızların hamısı dalınca düşəcək.. Sənin üçün bəzənib-düzənəcəklər..

Onlar gülüşdülər.. Bəhram anasının boynunu qucaqladı.. Anasının üzündən öpdü və dedi:

- Səni çox sevirəm anacan.. Böyüyüb lap hündür olanda səni qucaqlayıb göyə qaldıracam..

Anası gülərək:

- Hə, onda sən artıq böyük kişi olassan, anan isə qocalacaq.. Amma onda sevgilini qaldırarsan..
- Yox anacan.. Mənim sevgilim olmayacaq.. Axı sən dedin onsuz da qızların məndən xoşu gələcək mənsə həmişə səni sevəcəm..
- Can, balam mənim... Olsun.. Məni sev amma gələcəkdə sənin də uşaqların olmalıdı da.. Ona görə sevgilin olmalıdı ki, sonra o sənin həyat yoldaşın olsun, sizin də uşaqlarınız olsun..
- Olsun eee.. Amma yenə də ən çox səni sevəcəm..
- Yaxşı oğlum məni sev.. Gəl gedək bir az gəzək..

Onlar evdən çıxıb yaxınlıqdakı parka getdilər.. Bəhram yelləncəkdə oturdu anası isə onu yellətdi.. Sonra bir yerdə oturacaqda əyləşib parkda gəzişənlərə baxdılar.. Bəhram anasını qucaqlayıb dedi:

- Ana soyuqdu evə gedək də.. Həm Məstanın yemək vaxtıdı..

Anası gülümsəyərək:

- Gedək balaca qəhrəman.. Deyəsən mən səni fikirləşdiyim qədər sən də pişiyini fikirləşirsən.. Əmin də artıq gəlmiş olar..

Onlar evə qayıdanda məktəbin yanından keçdilər.. Bəhram anasının əlindən aşağı dartaraq soruşdu:

- Anacan bəs o məktəbin həyətindəki xala niyə həmişə burda olur.?
- O səfildi balaca.. Kimsəsi yoxdu.. Ona görə də burda gecələyir..

Evə çatdılar.. Artıq əmisi gəlmişdi.. Yeməkdən sonra anası Bəhramı yatağa apardı.. Anası onun saçlarını oxşayırdı.. O isə nəsə fikrə getmişdi elə bil.. Birdən anasının gözlərinə baxıb dilləndi:

- Ana qar nə vaxt yağacaq.?
- Bir, iki günə yağacaq, onda doyunca oynayarsan çöldə uşaqlarla..
- Yox, yağmasın ana.. İstəmirəm daha..

- Niyə..? Axı sən həmişə deyirdin ki, qışı gözləyirsən.? Dostlarınla oynamaq üçün.. Hələ yadımdadı, əminə söz vermişdin ki, ona qar yedizdirəcəksən.. Noldu..?
- Hə, ana bilirəm.. Amma daha istəmirəm.. Axı biz evdəyik.. Bəs evi olmayanlar..? Bəs o məktəbin həyətində yatan xala.? Axı o üşüyər..

Bu sözlərin qarşısında anasının gözləri doldu.. Körpəsi hələ birinci sinif uşağı idi..  Amma bu danışdıqları, düşüncələri  heç çox yaşlı insanlarda olmur hərdən..  Günlər keçdi.. Bir gün anasına evə zəng gəldi.. Oğlu xəstəxanaya aparılmışdı.. Yolda maşın vurmuşdu körpəsini.. O tələm-tələsik oğlunun yanına tələsdi..

Palata.. Sükut..  Xırıldayan Bəhruzun anasının qucağında sükutu...

- Anacan mən olanda kim vardı yanımda..?
- Heç oğlum.. Sən, mən və pişiyin..
- Bəs mən öləndən sonra kim olacaq yanımda..?
- Heç oğlum.. Sən və pişiyin...

Bir neçə dəqiqə sonra artıq Bəhram nəfəs almırdı.. Anası isə onu qucaqlayıb hönkürtülərlə ağlayırdı.. O indi tək balasını itirmişdi..  Həyatının mənasını.....

Yaşlı qocanın nurani ağappaq sifətini gözündən süzülən yaş damcıları parıldadırdı.. Artıq saat üçə qalmışdı və növbə ilə qruplara bölünüb keşik çəkdik.. Mənimlə balaca qızın anası qaldı.. Hər kəs yuxuya getdi.. Gecənin sükutunu yalnız bizim diaoloqumuz pozurdu...

## *Zibilxana içindəki tullantı*

- Bu həyatı heç sevmədim. Niyə görəsən.? Həmişə istəmişəm qucaqlamaq istədiyim dərəcədə sevim bu həyatı. Amma həmişə küsmüşəm.. Zibildi.. Ya da mənəm zibil..

- Hər şey zibildi.. Sən, həyat, mən. Bu dünya bir zibilxanadır. Sadəcə bizlərin fərqi ondadır ki, çeşidlənməmiz azaddır. Kim hansı zibil yığıncağını istəyirsə onu seçir. Mən də bir lazımsız tullantıyam bu zibilxanada..

- Yoruldum bu zibil çəlləyində diyirlənməkdən. . Nə vaxt bitəcək. .?

- Heç vaxt bu zibilxana əbədidir. Bura Allahın zibilxanasıdır. Deyirlər guya burdan yaxşısı sonda var amma mən heç zibilin saraya atıldığını görmədim. Zibilin yeri elə zibilxanadır..

- O dünyaya inanırsan..?

- Hə inanıram. Çünki bunlardan gözəl nəsə olmalıdı yaşamaq üçün. Yaşamaq məqsədin kimi. Olmalıdı nəsə bu zibilin içindən bir çıxış yolu..

- Mən bildiyimə görə bu zibillikdən gözəlliyə çıxan olmayıb heç vaxt. Kiçik zibillər ümumi zibillərin içində böyük zibilliklərə atılır. Sonda da ya yandırılır ya da daha pis nəsə..

- Yenidən emal olunan zibillər haqqında eşitməmisən..? Bax bu Cənnətdir..

- Yenidən emal olunan Zibillər..? bu Cənnət deyil. Bu reinkarnasiyadır..

- Yox, reinkarnasiya sadəcə yerdəyişmədi. Məsələn kiçik qəsəbə zibilliyindən böyük şəhər zibilxanasına..

- Yox, məncə reinkarnasiya məhz yenidən emaldır. O biri yerdəyişmə şəhərlər arası gəzintidir sadəcə…

- Daha necə istəyirsən anla…

- ….

Onun yorğun olduğunu gözlərindən sezdim.. Ona yatmasını məsləhət gördüm.. Sonra tək bu yatmış insanlara baxıb düşünməyə başladım.. Əslində hamımız eyniyik.. Nə fərqimiz var ki, hamımızın iki gözü, iki qulağı var.. Hamımız oksigenlə nəfəs alırıq.. Amma həyata gələndə hərəmiz ayrı həyat yaşayırıq..Bəlkə də bu fərqlilikdir həyatın anlamı.. Bəlkə də yox..

Öz-özümə fikirlər dənizində üzürdüm.. Birdən arxadan gələn səsə çevrildim.

- Sən niyə hələ də oyaqsan.? Niyə oyatmamısan məni.? Axı sənin növbəndən keçib . – deyə sürücü mənə tərəf deyindi.
- Bilmirəm yuxum gəlmirdi.. Sizi də oyatmadım..
- Yaxşı heçnə olmaz.. Özün yaxşısan.? Ayağın çox ağrayır.?
- Yox, demək olar ki yox. Sadəcə gəzəndə bir az axsayıram..
- Hə, olan işdi.. Bir neçə günə sağalar.. Hər halda o yaşlı qadın mənim kimi qocanın ayağına yıxılsaydı ayağımla çoxdan sağollaşmalı olacaqdım..

O gülməyə başladı.. Mən də özümü saxlaya bilməyib güldüm.. Sonra biz bir az ordan-burdan, həyatdan, dünyadan danışdıq.. Artıq səhər açılırdı və hamı oyanırdı.. Biz yığışıb yaxınlıqdakı şəhərə yola düşdük.. Yol kənarı ilə gəzə-gəzə gedib bir neçə saatdan sonra bir şəhərin girəcəyinə çatdıq....

## *Məktublar dünyası*

Şəhər.. Yorğun buludların altında gizlənən tüstülü şəhər.. Küləyin təbiəti nazını çəkdiyi şəhər.. Bura yazılmamış, yazılan amma çatmamış, ümidsiz, bitgin, yalnızlıq, sevgi, kədər, qəm, qüssə, sevinc, xoşbəxtlik, arzu, ağrı dolu məktublar dünyası.. Buranın hər bir daşı, hər bir qayası özündə bir hiss, bir məktub gizlədir.. Kiminin ümidini.. Kiminin sevgisini.. Kiminin ağrısını.. Kiminin bədbəxtliyini.. Kiminin düşmənçiliyini, nifrətini, kinini.. Kiminin sadəcə gizliliyini gizlədir.. Bura məktublar dünyasıdır...

## *Milyonlar içindəki kimsəsizlik.*

Milyonlar içindəki kimsəsizlik... Biz heç vaxt tək qala bilmirik ki.. Ən azından Allah bizimlə.. Amma mənəvi sevgidən əlavə fiziki hiss edə bildiyin sevgiyə də ehtiyac var.. Elə kimsəsizlik də belə bir şeydir.. Ev - atan, anan, bacın, qardaşın hamı səni sevir..(yəqin ki) Amma bu ayrı bir şeydir.. Əgər sən evdəkilərlə nəyisə bölüşə bilmirsənsə demək bu kimsəsizlikdir.. Nə olsun ki, səhər şirin yuxudan ananın şirin səsi ilə oyanırsan.. Ruhun ki qucaq istər.. Nə olsun ki, hər səhər oyanan kimi çayın hazır olur..

Ruhunsa sevgi istər.. Hələ gününün yarısını işğal edən universitet həyatı və it(sevər) müəllimlər.. Hə qrup yoldaşlarından eşitdiyin bir neçə xoş söz. Amma sən bir neçə dəqiqə sakit dursan elə hiss edərlər ki, küsmüsən kimdənsə.. Ruhunu da rahatlanmağa qoymazlar ki.. Sonra sevgilinlə görüşün.. Bir qucaq dolusu sevgi hiss edə biləcəyin insan.. Öpüşləri ilə səni ovudacaq biri.. Ruhunu susmağı ilə dindirən biri.. Gözlərində əsən dənizin.. Dodaqlarında uyuyan biri.. Sükut məskənin.. Ruhunun qida yeri.. Sevginin istehlak mənbəyi.. Amma bunların hamısı bir anda məhv olar.. Silinər üfüqdən qovulan günəş kimi.. O da sənə inanmaz.. Səsin kimi.. Nəfəsin kimi.. Tərk etmək, uzaqdan sevmək istər.. Bəlkə də sadəcə sənsizlik istər.. Sənsə dənizin soyuqluğunu məhv etmək, onu düzəltmək istərsən.. Küləyinlə onu qucaqlayıb tək onun olduğunu demək istərsən.. Amma o inanmaz.. O inanmaz.. İnanmaz.. Səni keçmişinə bağlı biri sanar.. Bəlkə də.. Bəlkə də yox.. Axı keçmişi bir anda, bir ayda, bir ildə necə yox etmək olar.. O bunu anlamaz.. Yəqin dərk etmək istər.. Sükut burulğanına qoşularsan.. Belə olmasını istəməsən belə yenə kimsəsizliyini dərk edərsən.. Və qasırğaya dönüb hər şeyi məhv etmək istərsən..

Amma dayan dostum.. Sən hələ ki dönməmisən.. Hələ sadəcə küləksən.. Sadəcə mehsən.. Dənizin sevirsə sənə inanar.. İnanar dostum.. Dəniz

ki, küləyi sevir.. Və yəqin ki bundan sonra sənə özündən daha çox inanar.. Səni sevər.. Bax onda bəlkə də bu milyonlar içindəki kimsəsizlik səni tərk edər.. Və dənizin də ruhunda olduğunu dərk edər..

## *Biz oğlanlar dəniz kimiyik sevgilim*

Biz oğlanlar dəniz kimiyik sevgilim.. Çox durğunuq, hərdən ləpələrimizlə çoxlarını rəqs elətdirərik.. Amma sən bizim sakitliyimizə baxma bidənəm.. Bizim də hisslərimiz var.. Biz sevdiklərimizi incidəndə dalğalanarıq.. Və qarşımıza keçəni sürüyüb apararıq.. Biz oğlanlar dəniz kimiyik sevgilim.. Bu ümmanda min gəmi üzər.. Biri gələr biri gedər.. Amma bu gəlib gedənlər bizə həyat təcrübəsi qazandırar.. Sən heç gəmi üzməyən dənizdə dənizlik gördünmü.? Onlar ancaq göldü bidənəm.. Onlar nə gəmi görər nə də hər hansısa gəmiyə sahib ola bilərlər.. Bizi çox çirkləyərlər, zibillə doldurmaq istərlər, şər şər dalınca gələr, amma unutma bu dünyanın zibili varsa göydən yağacaq bir yağmuru da var əlbət.. O bizə edilən bütün haqsızlıqlarda bizə kömək edər.. Biz çox çay bəsləyərik, həm də çox çay

bizi bəsləyər.. Amma əlbət bizim də qovuşacağımız bir okean vardır.. Əbədi yatacağımız bir sükut..

Biz oğlanlar dəniz kimiyik sevgilim.. Bizim içimizdə çox vulkanlar var.. Amma sən qorxma.. Biz əbədi saxlaya bilərik o hissi içimizdə.. Çünki qorxarıq.. Əgər içimizdəki vulkanlar üsyanlar çölə çıxsa bundan hamı ziyan çəkər.. Ən çox da sevdiklərimiz.. Sənə nəsə olar deyə qorxuram.. Biz oğlanlar dəniz kimiyik sevgilim.. Biz nə qədər gəmi üzdürsək də ümmanımızda təkcə birini qəzaya uğradarıq.. Hərdən biz uğradarıq.. Hərdən özü uğrayar.. Amma əsas odu ki, o gəmi daimi məskən salmaq istər.. Bəziləri daimi məskən salar.. Bəziləri isə gələr, yaşayar, öz ləpirlərini adamızda qoyar və bir müddət sonra yoxa çıxar.. Gəldiyi kimi də gedər.. Düzdü bu hərdən bizə çox əzab verər.. Ağrılardan nə etdiyimizi də bilmərik.. Coşarıq.. Kükrəyərik.. Dağıdarıq hər qarşımıza gələnləri.. Sahilləri pərən-pərən edərik.. Bütün gəmiləri də tərsinə çevirərik.. Yağış da bizi sükuta qərq edə bilməz..

Biz oğlanlar dəniz kimiyik sevgilim.. Sənsə bir gəmi ol.. Elə bir gəmi ol ki, yüz dənizin yanından öt.. Üzdüyün olsa da üzüldüyün olmasın.. Amma bir dənizdə qəzaya uğra.. Biz dənizə daldalan.. Qoy o dəniz mən olmayım.. Qoy qardaşım, dostum ya heç

tanımadığım biri olsun.. Amma orda daimi qal.. Hərdən o dəniz coşsa da, dalğalarında səni atıb-tutsa da bil ki, daimi o sənin dənizin olacaq.. Dəniz duzlu olar.. Acılığına küsmə onun.. O da sənin tək şirin olsa olmaz axı.. Qoy başqa gəmilər gəlsin, keçsin.. Qısqanma, qürur duy, fəxr et ki, səni səndən çox sevən bir dənizin var.. Və həmişə o dənizə layiq ol.. Ona sadiq ol.. Ona sadiqliyin həm sevginizin həm sənin baş ucalığın olacaq.. Biz oğlanlar dəniz kimiyik sevgilim..

## *Zaman*

Zaman.. Səni dondurmaq istədim dəfələrlə.. Amma alınmadı.. Zamanı saxlamaq mümkün deyil.. Sadəcə onu düşünmədən, yoxluğunu qəbul edib yaşamaq olar.. Amma onsuz bir gün güzgü qarşısına keçəndə o sənə onu unutduğun bu illərdə səni unutmadığını üzündəki qırışlarla büruzə verəcək.. Zaman səni hər cürə zorlayacaq..

İllər keçəcək.. Sən dünən məni tərk etdin deyə mən bir az üzüləcəm.. Mən bugün səni unutduğumu deyəcəm.. Sənsə sabah hansısa Sənanla sevgili olacaqsan.. Mənə vermədiklərini ona verəcəksən.. Mənə yaşatmadığımı ona yaşadacaqsan.. Mənə

dediyin yalan “səni sevirəm”ləri ona reallıqda əməllərinlə sübut edəcəksən..

İllər keçəcək.. Mənim həyatımda çoxu olacaq.. Amma sənin kimisi bəlkə də heç vaxt olmayacaq.. Həmişə onun məndən nə ilə yaxşı olduğunu fikirləşəcəm.. Hər gecə təkliyimi qucaqlayaraq hönkürəcəm.. O biri otaqda yatan anam ağladığımı eşitməsin deyə barmağımı dişlərimə sıxıb ağlayacam.. Həmin an isə sən öz  sevgilinlə mesajlaşacaqsan.. Bunu düşünmək belə mənə əzab verəcək..

İllər keçəcək.. Sizin hansısa Aişə adlı qızınız olacaq.. Mənimsə Əlinur adlı oğlum.. Həmişə arzuladığım kimi.. Sənin məndən heç xəbərin də olmayacaq bəlkə.. Zaman hər şeyi dəyişəcək.. və bir gün mən oğlumla sizin şəhərə gəzməyə gələcəm.. Sənlə ilk görüşdüyümüz, ilk əl-ələ tutuşduğumuz, ilk öpüşdüyümüz parkdan keçəcəm.. və onda sən də öz ərin və qızınla həmin “bizim skamya”mızda əyləşəcəksən..  Mən səni görəndə donub qalacam.. Zamanın oyununa tamaşa edəcəm.. Qəfildən oğlum əlimdən yapışaraq məni dartacaq.. Birdən özümə gələcəm.. Oğluma baxacam.. Onu qucaqlayıb qulağına pıçıldayacam: “Bax, Əlinur oğlum.. O gördüyün möcüzə bir vaxtlar sənin anan olmağı

dünyada hər şeydən çox istəyirdi..” Bəlkə də bu heç vaxt olmayacaq.. Amma zamanı bilmək olmaz..

İllər keçəcək.. Zamanın yaddaşında hamımız təkliklər kimi həbs olunacağıq..

## *Payızım*

Sən hərdən küləksən.. Ətrafında olanlara sərinlik, sakitlik gətirirsən.. Amma hərdən fırtınaya dönürsən.. Və ətrafındakı hər şeyi məhv edirsən.. Sən hərdən dənizsən.. Çoxlarını özünə bağlaya bilərsən asanlıqla.. Amma hərdən külək səni dalğalandırdıgında səni üzən hər şeyi məhv edə biləcək gücün var.. Sən əslində bir Sevdasan.. Hər zaman ehtiyacım olan, hər kəsdən fərqləndirdiyim.. Sən bir az mənimçün payız kimisən.. Səni çox sevirəm.. Xəzanını çox sevirəm.. Havalılığını çox sevirəm.. Dəyişikliyini çox sevirəm.. Fərqliliyini çox sevirəm.. Yağışa bənzəyən göz yaşlarını çox sevirəm.. Payızı çox sevirəm.. Səni çox sevirəm.... Amma bilirəm.. Payız bitdiyi kimi məni tərk edib getdiyi kimi sən də bir gün gedəcəksən.. Bəs indi hardasan payızım...? Gəl... Gəl xəzanınla ovut məni...

## *KarMadan küləyə*

Salam Külək.. Bəlkə də unutduğumu düşünürdün..Amma sən daima ağlımda idin.bu gecə yenə o günü xatırladım üzümə sabah yeli toxunanda...

Qaranlıqda zülmətin ən dibinə endim o gecə...Tənha idim axı.. Ta ki, bir ovuc nur topası gözlərimi işıqlandırana qədər. Qəribə idi hər şey.. Qəribə.. Hətta qəribə sözü də qəribə idi. O qədər böyüdü ki həmin kiçik nur ,bir anda ruhuma qədər bütün dünyamı əhatələdi. Bahar mehinə bənzəyən bir hərarətlə üfürürdü sanki kimsə üzümə. Sevgi qoxulu bir aləmə düşmüşdüm.. Zaman məhvumu hiss olunmurdu burda. Başqalaşmışdı ətraf. Boz rəng yox idi artıq... Həyatdakı başqa rənglərlə tanış oldum.. Sən gəldin, Külək... Soyuqluğunla sarılıb isitdin cismimi. İlk toxunuşda titrədi mənim olan cism. Səbəbi anlamamışdım hələ. Sonradan bunun adının sevgi olduğunu danışdın mənə.. Yuxusuz idim illərdir... Yatmaq istədim... Nağıl danış dedim.. Sən isə "nağıllarda külək pis qəhrəman olur. Mən sənə nəğmə oxuyaram dedin.." Səsinlə əridim.. Nirvanaya əsrlərdir qovuşa bilməyən bu ruhun rahatlığını gətirmişdin səsində sanki.. Cismimə toxunan o nəfəslə qidalanmağa başladım o gündən... Aradan zaman çox keçib bəlkə də.. Bizim dünyaya görə desək

800 il.. Mən tərk etdim səni. Sevsəm də tərk etdim. Sən yenə də bağışladın amma.. Dedim axı sən qəribəsən.. Yox ağlamayacağam öz kədərlərimi danışaraq. İstəmirəm də biləsən yaşadıqlarımı. Amma hisslərə şübhə etmə. Sən başqasan sevgi dolu.. Bəlkə də sən sən olmasaydın qayıtmazdım buralara bir də. Nə də indi bu məktubu yazmazdım.. Mənə dəyərlisən.. Bilirsən.. Heç demədiklərimi demək istədim bu məktubumla.. Darıxmışam susqun baxışların üçün, sevgi rəngli gözlərinçün, dodaqlarımı donduran soyuqluğun üçün.. Bu bilirsən nəyə bənzəyir? Həyatın boyu qucaqlamaq həsrəti elə yaşadığın biri divarın o tayında ola-ola addım ata bilməməyə. Qəribəsən sən.. Çox yaxınsan, həm də çox uzaq. Doğmasan, həm də yad.. Soyuqsan.. Həm də alov kimi yandırırsan.. Amma hər halınla sevir səni Karma.. Qəzəbli baxışların ən çox qorxduğum məfhumdu həyatda... Bir də başqalarının saçlarına toxunmağın.. Hə bu sənin üçün adidi, belə də olmalıdı, amma qorxuram bir gün ilişib qala bilərsən saçların arasından əsərkən... Səni itirməkdir ən böyük qorxum.. Olmasın bu.. Olmasın.. Daim mənim üçün əs.. Dənizi dalğalandır, Günəşi sönməyə qoyma... Uzaqlarda olma.. Küləyim ol, tufanım olma... Uzaqlarda yox, yanımda ol.... Sevirəm səni. Bənzətməyəcəm sevgimi heç nəyə. Səni

özüm kimi sevirəm. Sən olduğun üçün... Bu karma tək cismə aid deyil artıq.. KüləyiM...

İndi hələ də yadımdadı son söhbətimiz:

- Mənə nağıl danış..
- Yaxşı.. İstəyirsən sənə sonunu bilmədiyim iki kəlməlik nağıl danışım..?
- Hə, danış..
- Səni Sevirəm....

## *Maskasız*

Sənin maskan çoxdan cırılmış, gözlərin daha şəffaflığı deyil, arsızlığı əks etdirir.. Tək gözlərində qalmışdı o il öncəki məsumluğun.. Sevirəm sözünü işlətdiyin dodaqlarınla yəqin indi başqasınn barmaqları oynayır.. Qəlbsizlik sindromunu ata bilmədiyimdən idi bəlkə də bu yalanlarını real kimi qəbul etməyim.. "KAŞ"... Xoşlamıram bu sözü bilirsən.. Amma yox bilmirsən.. Hardan biləsən ki.. Sən axı məni tanımırsan.. Tanımamısan.. Mən.. Mən... Axı niyə daha sənə məndən danışım ki.?. İnsan bir gedər amma geri dönmək üçün iz qoyar.. Sən iz nədiki gülüm üz qoymadın özündə geri dönməyə.. Əzablarımı, ağrılarımı, iniltilərimi duymasan da

duyanlar pis oldular.. Və pis anlarımda uzaqdakı yadlar mənə xoş oldular.. Bilməyin lazım.. Mənim də maskam vardı.. Amma mən onu sənin tək yalan üçün istifadə etmirdim.. Səni həyatımın pisliklərindən qorumaq, səni qorumaq üçün istifadə edirdim.. Bilirəm mən Betxoven deyiləm.. Amma bilirsən sənə yazdığım trekdə hələ də başqaları təsəlli tapır.. Bəyəndin, bəyənmədin.. Bilmirəm.. Bilmirəm ki.. Hisslərini də anlamadım sənin heç vaxt.. Sənə təzə xəbərlərim var.. Mən daha tanrı olmuşam.. Amma sənin arzularını yerinə yetirəcək gücüm yoxdu həmişəki kimi.. Bir dəfə də namazında Allahdan özünü istə.. Qoy sənə özünü göstərsin.. Mən səni çox sevmişdim.. Dəlicəsinə.. Hə dəlicəsinə.. Çünki heç vaxt sevənlərə ağıllı deyildiyini görmədim ki..

Mən səni çox qorumuşdum.. Sənə sataşan zibillərdən, ya hansısa giclərdən yox.. Mən səni reallığın zibillərindən, dünyanın çirkinliklərindən qorumuşdum.. Mən səni öz xəyal dünyama aparmışdım.. Ancaq bilmirəm sən nə vaxt çıxdın ordan.. Nə vaxt sən də bu dünyanın bir hissəsinə çevrildin.. Bilirsən mənə yazdığın ilk və son məktubun hələ də durur.. Amma onu dostumdan alanda bir neçə dəfə oxumuşdum.. Evə gələndə isə elə kitabımın arasında rəfdə gizlətmişdim.. Şəkilin kimi.. Bir neçə müddət öncə açdım oxudum.. Əslində

yadıma da düşmürdü.. Sadəcə rəfi boşaltmalı olmuşdum.. O isə ən altda idi.. Oxudum.. Oxumaq demək olarsa.. İlk 3 cümlədən ibarət abzas.. Ortada bir-iki söz.. Sonda isə ancaq "Əlvida" sözünü... Çünki arasında olan qızılgül batırmışdı içini.. Ləkələmişdi.. Sevgimizi ləkəyələnlər tək.. Çoxdandı ümidlərlə tək qalmışdım.. Baş-başa.. Amma dünən ümidlərimin qanadlarını bir neçə sms sındırdı.. Yox səndən deyildi ki.. Sadəcə bir insandan.. Sadəcə bir insandan.. Sənin məndən gizlətdiyin həqiqətləri o mənə dedi.. Ona bir can borcluyam.. Düzdü onları eşidib onlara dözmək heç də asan olmadı.. Düzdü ağrıdım.. Düzdü ağladım.. Amma bilirsən indi heç hisslərim də yoxdu.. Sadəcə oturmuşam notebook dizimdə.. Qulağımda isə sənə yazdığım “Sevgi dənizi” treki  və nə vaxt bitirəcəyimi bilmədiyim bir yazı yazıram.. Bilirsən daha dost dediyim insanlar da yoxdu.. Amma sevinmə çox sevdiyim insanlar yenə var.. Düzdü yenə də bəziləri arxadan vursalar da, geri dönəni olsa da, olmasa da.. Mən bunlara artıq öyrənmişəm.. Və bu həyatda artıq məni heçnə təəccübləndirmir.. Çox sevdiyim biri var.. Sevgili deyilik..Dost..? Yox dostdan artıq.. Onun səndən fərqi reallıqlarla danışmasıdır.. Acı çəksə də, sevinsə də, sevsə də, pis olsa da, hərdən yıxılsa da, bir az çətin olsa da, yenidən qalxsa da, həyatında olan fahişəliklərə boyun əyməyən kiçik bir qız.. Dərdləri

balaca olsa da, hissləri dünyadan böyük olan biri.. Bilirəm.. Bilirəm.. Mənim keçmişimdəki kimi olmaqla suçlayassan.. Amma unutma mən daha əvvəlki deyiləm.. Dünya kimi mən də dəyişirəm.. Kimi xoşlasa da kimi xoşlamasa da..

İçimdə üsyanlar olsa da kiminsə üstünə tökmərəm üsyanımı.. Dözməz buna heç kimsə.. Bilirsənmi səni sevmək necə bir hiss.? Bəlkə də.. Amma sən özün də özünü məndən çox sevə bilməzsən.. Bu yazdıqlarım səni geri qaytarmaq üçün deyil.. Əsla düşünmə bunu belə.. Sənə ehtiyacım yoxdu daha.. Mənə əmanət etdiyin bacına olan sevgimi də heç vaxt unutmaram narahat olma.. Sənin həyatını çox öyrəndim.. Ətrafındakı hər kəsdə iz buraxdım.. Kimində vicdan, kimində sevgi, kimində əsəb, kimində nifrət, kimində yumruq izləri... Səndə isə izim qalmaz.. Çünki bağlılıqdan izlər qalmaz.. İzlər, ləpirlər sevgidən qalar.. Sevgidən yanar.. Səninki bağlılıq ya nəsə belə bir şey olub.. Bir il yarım boş gedibmi soruşsan deyərəm ki yox.. Çünki mənə bu müddət tam bir şəhəri tanıtdı.. Bəlkə günəş şəhəri idi bu.. Bəlkə “panyatka dığırcıqlarının” mikrorayonları.. Bəlkə narkaman, sərxoş, əclafların, 50 qəpiklik fahişələrin bol olduğu şəhər.. Bəlkə çox yaxşı dostlar tapa biləcəyim bir şəhər.. Bəlkə sadəcə sənin xəyalının cənnəti olan bir şəhər.. Amma onu

bilirəm ki, səninlə gəzişdiyim küçələr mənə oralarda başqası ilə gəzəndə tam başqa məna kəsb edəcək.. Yaxşı ya pis.. Amma izlərin var məndə.. Mənimsə bu şəhərdə..Bəlkə bu bir nağıl idi.. Bəlkə üç alma düşməli idi.. Bəlkə də ağ atlı oğlan gəlməli idi.. Bu mənim üçün xəyal və nağıl idi.. Üç alma çoxdan düşmüşdü.. Sadəcə hamısı mənim başıma.. Yəqin ki, sənin ağ atlı oğlanın gəlib artıq.. Düzü anlaya bilmirəm və bilməyəcəm də mənim onunla fərqimi.. Amma həmişə dediyim kimi, xoşbəxt ol sən təki.. İdeal dünyanda.. Yəqin ki bir azdan bitirəcəm bu yazımı..

Bilirsənmi necə gözəldi günəşi göz yaşları ilə qarşılamaq.. Bilirsənmi necə gözəldi hisslərini göylərə aşılamaq.. Necə gözəldi bu dünya.. Necə gözəldi sevgi.. Necə gözəldi bu duyğular.. Necə gözəldi bu həyat.. İndi heç kim məni anlamasa da.. Mən hamını itələsəm də hərdən.. Amma məni tanıyan, mənə yaxın olanlar bilir ki, mən onları incitməmək üçün uzaq dururam onlardan.. Hə, sən dediyin kimi çətin xarakterim var.. Heç indi də heç kim buna uya bilmir.. Kimi məndə təsəlli tapır.. Mənsə kimlərəsə olan sevgimdə.. Çox dəyişmişəm.. Hətta dünən gecədən bu səhərə kimi də dəyişmişəm.. Mən elə mənəm ki, bidənəm.. Sənsə getmisən... Daha sən həyatıma yazılan bir nota deyilsən.. Mənim üçün qalxmaq da

düşmək də heçdi.. Çünki surreallıq xəyaldan fərqlidi mənim üçün.. Nəysə bəsdi bu qədər hələlik.. Səni kiməsə təqdim etmək üçün yazmadım bunu.. Özümü, düşüncələrimi sadəcə yazmaq istədim.. Və budur artıq bitti.. Sən də artıq maskanı yəqin soyunmusan.. Amma bilmirəm ki.. Yeri gəlmişkən tapdığın ağ atlı şəhzadəni də tanıyıram.. Onu heç itimə layiq görməsəm də sənə layiq görürəm.. Bəlkə bu gün yox, bəlkə sabah yox.. Amma bir gün onun əsl üzünü görəndə məni bəlkə də anlayacaqsan.. Bəlkə də yox.. Əlvida.. Xəyalların da əbədiliyi bitti gülüm...

## ***Parçalar***

Cazibə qüvvəsinə əks getmək.. Hisslərini doğramaq.. Sonradan anlamaq..  Anlamaq ki bütün bu olanlar boş, mənasız, məntiqsiz hisslərin yorğunluğudur.. Danmaq.. Özünü.. Xəyallarını.. Anlaşılmamaq.. Milyonlar arasındakı tənhalıq.. Fəlsəfi fikirlərdən uzaq bəsit bir cəmiyyətdə özünə layiq olmayan yerdə görülmək.. Yıxılmaq.. Göydə olan "sputnik" kimi bir andaca yerə girmək.. Sonra qalxmaq.. Yeni əkilən buğda kimi cücərmək.. Bürünmək.. Yaşıllığa.. Arzulara.. Ümidlərə.. Qanadlanmaq.. Yox.. Sevgi naminə yox.. İnsanlıq

naminə.. İnsan naminə.. Xəyallar naminə.. Sadə hekayənin sonu qaranlıqla bitər.. Cəmiyyət bunu istər.. artıq heç kim sonu xoşbəxt bitən nağıllara inanmır.. Artıq çoxdandır insanlar nağıllara inanmır.. Amma nə xoş idi körpəliyimiz.. Hər nağılda aranan bir sevgi, bir ümid, bir arzu... İndi sizə bir sual verərdim "niyə.?". Kim kimi anlamaq istəməz ki.. Qəbul etmək çətindir sadəcə hərdən.. Bizlərdən olmaq çox asandır.. Amma biz olmaq hərdən mümkünsüz.. İnsanlar Xəyallarla yaşayır.. İnsan Xəyallarla qanadlanır..

## *Sən və mən*

Bu həyatda bir sən var... Bir də mən var.. Qəribədi.. Həmişə sən mənin yanında olardı.. Amma indi sən və mən ayrı-ayrı yerlərdə və ayrı-ayrı ürəklərdədi.. Məncə sən və mən nə qədər ayrı olsalar da ürəkləri eyni templə döyünənə qədər sən və mən "biz" olacaq.. Əsas toxunmaq, onu yanında hiss etmək deyil əlbəttə.. Amma mən yenə də darıxır.. Səni yanında istəyir.. Sənsə heç fikirləşmir də.. Bəlkə də artıq unudub.. Mən hələ də gözləyir.. Amma sənin heç vecinə də deyil.. Bəs görəsən sən gündə heç olmasa bir dəqiqədə olsa mən haqqında fikirləşirmi.? Bu sual

məni həm narahat edir həm də öldürür.. O canlı ikən ölür... Bədən yaşasa da.. Ruh məhv olur.. Mən hər nə olur-olsun səndən vaz keçə bilmir.. .

Sənin məktubu hələ də mənin tozlu kitabları arasındadı.. Açmaq istəmir o kitabı.. Çünki səni unutmağa çalışır.. Amma özü də anlayır ki, bu mümkün deyil.. Hə, bir də sənin ad günü şəklindi kitabın tozlarında gizlənən.. İlk Əlvida üçün yazdığı məktub sənin son arzuları.. İçində gizlənən qızılgül ləçəkləri.. Bir damla göz yaşı.. Və sonda əlvida sözləri.. Amma bəlkə də içində hələ də son parlaq işıq qalıb.. Mən buna hələ də ümid edir.. Və hələ də gözləyir.. Bəlkə bir gün sən mənin olarsan deyə...

## *Sən yaz*

Allahım sən insanlara günah verənde onları mənim üzərimə yazardın.. Gərək bütün pislikləri mənim üzərimə yazardın.. Gərək yazardın.. Mən sənə qələm verərəm götür bir də yaz.. Yaz ki bütün sevənləri mən ayırmışam.. Yaz ki sevilənləri mən aldatmışam.. Yaz ki səhrada suyu mən quruduram.. Yaz ki binamusların qeyrətlərində olan problemın

mənbəyi mənəm.. Yaz ki gic, xəstə, axmaq müəllimlərin iylənmiş paslanmış qəlblərindəki şeytan mənəm.. Amma yaz.. Dayanmadan yaz.. Silmə şifrələri.. Yaz hər şeyi.. Yenidən yaz.. Yaz ki belə düşük deputatların olması mənim işimdi.. Yaz ki Afrikadakı körpələr mənim üzümdən acından ölür.. Yaz ki insanların axmaqlığında tək mən günahkaram.. Yaz ki insanların bütün ümidlərini mən puç etmişəm.. Yaz ki mən çoxdan istəklərini atıb getmiş insanların son ümidi olduqda səhv etmişəm.. Yaz ki insanları bu qədər sevmək mənim günahımdı.. Yaz ki həmişə tərk edilmək mənim cəzamdı.. Amma yaz.. Dayanmadan yaz.. Silmə şifrələri.. Yaz hər şeyi.. Yenidən yaz.. Yəqin keçmiş həyatımda məni Hitlerin sağ əli kimi yazmısan.. Yaz ki bu qədər incidilməyi haqq edən insanların ən böyük saf hisslərindən yığılmış topluluqda ən incə bir yazı olum.. Yaz sən axı "taleh" deyilən oyunu yazmısan insanlar üçün.. Sən bunu da bacararsan.. Sən yaz.. Mən qələmin olaram.. Mürəkkəbi qanım olsa belə yaz.. Yaz ki doysunlar.. Yaz.. Yaz bezdim günahlandırılmaq, günahlar içində zibillənməkdən.. Yaz ki hər dəfə peşman olub üzr istəməkdənsə etməsinlər bunu.. Yaz ki bunların səbəbi mən olum.. Amma yaz.. Dayanmadan yaz.. Silmə şifrələri.. Yaz hər şeyi.. Yenidən yaz.. Mürəkkəbim bitməz içimdə qanım qaynayır.. Sən təkcə yaz.. Yaz ki

qoy dincəlsinlər.. Yaz ki daha onlar mələk olsun.. Qoy daha dedikləri günahları pislikləri haqq edim... Amma yaz.. Dayanmadan yaz.. Silmə şifrələri.. Yaz hər şeyi.. Yenidən yaz....

## *Amma nə olsun.?!*

Doğulanda dedilər ki, çox yaşamayacaq. Oyanması belə möcüzə olacaq. Oyandım, yaşadım, böyüdüm.. Amma nə olsun..? Həyatım ki, doğumum kimi asan olmadı...

Bir şirin konfetlə mənə istədiklərini dedirtdilər, hərdən bezdim, konfetlərini başlarına tulladım. Amma nə olsun..? Bir konfetə görə kimisə söydüm..

Altı yaşında olarkən məktəbə getdim, vunderkind deyildim amma bu yaşda çoxlarından ağıllı idim, fərqlənirdim. Dedilər əlifbanı yaxşı öyrən. Öyrən ki, sözlər qura biləsən rahatca. Öyrəndim, qurdum amma nə olsun..? Mənasız söz yığınıdır elə bu cəmiyyəti çökdürən..!

Dedilər sözlər əzbərlə, yadda saxla ki, cümlələri sərbəst qura biləsən, öyrəndim, qurdum amma nə olsun..? Öyrətdiyiniz 2000 söyüşün yerinə bir mükəmməl cümlə qura bilsəydim.?!

Dedilər orta siniflərdə yaxşı oxu dərslərini, gələcəyin parlaq olacaq. Oxudum amma nə olsun..? Sinxronlaşmış hüceyrələrin gələcəyimdə nə işi var..? Özü də parlaq gələcək...!

Bir rus dili müəllimim vardı. Həmişə mənə deyərdi: “ Ты грубиян, следи за словами когда с учителем говоришь.. ” Dediyi kimi elədim. Amma nə olsun..? İndi eşidilən təhqirlərdən isə qulaqlar inildiyir...

Atam deyirdi həmişə: “ Çalış həmişə düz bildiyini edəsən, amma səhv edəndə də geriyə yol saxla, döyülsən üstümə gəlmə. Qürurunu saxla..! ” Çox vaxt düz etdim ata, səhvlərimi də anladım, həmişə haqqın yanında oldum, amma nə olsun..? Haqqsızlar ki, həmişə haqqa üstün gəlirsə nə mənası..?

Köhnə amma ilk əsl dostum mən deyirdi: “Sən ürəkləri çox tez bir zamanda ələ ala bilirsən, çalış itirməyəsən..” Çalışdım dost, çox mübarizə apardım amma nə olsun..? Mən sonradan anladım ki, o ürəkləri işğal etmişəm, amma istədiyim ürəkləri fəth etmək lazım imiş. Mənsə bacarmadım.

Bir gün bir yaşıdım olan bir uşağa gülmüşdüm – dilənir deyə... Bir yaşlı ahıl isə mənə demişdi ki,

daha gülmə, yaxşı deyil zəifə gülmək. Bir gün sən də onun kimi olarsan.! Daha gülmədim, hətta gülənlərlə də dalaşdım... Amma nə olsun..? Hələ də o uşaqlar dilənir axı...

Gəzdiyimiz həyat yollarında dost dediyimin ayağı büdrədi, mənsə onu məsxərəyə qoydum amma mənə dedilər ki, ondansa ona dəstək ol qalxmağa, kömək ol.. Kömək oldum, dəstək oldum ona qalxmağa, yüksəlməyə kömək etdim... Amma nə olsun..? Sonradan Mən daha onun üçün həyatın dibində ilişmiş yazıq tək qaya kimi görünürdüm... Tüpürdüm hər şeyə...

Məzun oldum.. Təbriklər.. Gülərüz maskalar.. Doyumsuz öpüşlər.. Anlamsız hədiyyələr.. Dedilər ki, universitetə gir, həyatında yeni bir səhifə açılacaq, dəyişəcək, yaxşılaşacaq, gözəlləşəcək həyatın. Girdim amma nə olsun..? Həyatım əlbəttə dəyişdi amma heç də super olmadı heçnə, yaxşılarla bərabər pislər də peyda oldu...

Sevgililər gəldi.. Sevgililər getdi.. Dostlar gəldi.. Dostlar getdi.. İnsanlar dəyişdi.. Təbiət dəyişdi.. Cəmiyyət dəyişdi.. Mən də dəyişdim. Hər bir varlıq kimi...

Və sonda yadımdadı Ana sən demişdin: " Oğlum, çalış ağılnan sev, heç kəsə bərk bağlanma, hər çətinliyi beyninə al amma qəlbinə salma.. " Çox çalışdım  Anacan, çalışdım sən dediklərinə, amma nə olsun..? Alınmadı, alınmır Ana... Sevdim Ana amma ağılnan yox, ürəkdən sevdim,  çox bərk bağlandım ana amma səhv bağlandım, çətinlikləri ağıldan keçirtdim amma dərdlər ürəyimə düşdü Anacan...

## *ALLAH*

Allah... Bəlkə də bu mövzudan sonra mən özümə cəhənnəmdə artıq yer düzəltmiş olacam... Bəlkə də cənnətə getmək üçün səbəb... Amma mən sadəcə fikirlərimi boş vərəqlərə tökürəm... Mən nə dindaram, nə də kafir...

Mən uşaq vaxtı inanırdım ki, Allah bizim mətbəxin yuxarısındakı elektrik qutusudur... Sadəcə onda heç elektrikin nə olduğunu da bilmirdim...

[Cahillik.. Hisslərimdə oyanış.. Ağılsızlara üsyan.. Dirçəliş.. Özünü anlayış.. Qaranlıqdakı işıqlar.. Təbəqəsiz sətirlər.. Mücərrəd partlayışlar.. Zamansız axtarışlar.. Məntiqsiz təqiblər.. Mənasız təkləmələr.. Uğursuz təpikləmələr.. və mən yenə də

Xano.. Əqidəm dəyişməz.. Müqəddəs ASAV..] Hər insanın həyatında enişlər yoxuşlar olur.. Məndə də, səndə də, hamımızda... və mən bir gün dua etmək istədim.. Ancaq mənə dedilər ki, dua ancaq kilsədə ya da məscidlərdə etmək olar.. Mən bir şey anlamadım.. Əlbət ki, mənim dinim islamdır.. Amma ağılsız mollaların Allahı bir məscidə yerləşdirməsi mənim beynimi yerindən oynatdı və o zamandan bəri mən din adamları olan "mollalara" inanmamağı qərara aldım..

Allah hardasan..?

[Cahillik.. Hisslərimdə oyanış.. Ağılsızlara üsyan.. Dirçəliş.. Özünü anlayış.. Qaranlıqdakı işıqlar.. Təbəqəsiz sətirlər.. Mücərrəd partlayışlar.. Zamansız axtarışlar.. Məntiqsiz təqiblər.. Mənasız təkləmələr.. Uğursuz təpikləmələr.. və mən yenə də Xano.. Əqidəm dəyişməz.. Müqəddəs ASAV..] Və yenə də müəyyən bəhanələrlə şeytan beynimi doldurdu.. Mən satanistlik yolunu seçdim.. Allahı ancaq sözdə qəbul etdim və şeytanı onun rəqibi bildim.. Ona sitayiş etmək istədim.. Amma dayan XANO..!! Sən kimə, nəyə qul olmağa hazırsan..? Qulluğunda minlərlə cin olan bir varlığın..? Hansı ki, Allah onu qovub cənnətindən..! Yox..! Belə olmaz..!! Əgər o özünü Allah yanında məndən - insandan üstün bilibsə onda niyə mən ona baş əyim..? Qoy o mənə

baş əysin..! Axmaq şeytan..! Daha bəsdi..! Sən sadəcə öz  Yaradanına qarşı çıxan axmaqsan..!

Sənin axtarışlarında neçə belə illər keçdi... Neçə dəqiqələr üsyan etdi... Mən dəyişirdim...

Allah hardasan..?

[Cahillik.. Hisslərimdə oyanış.. Ağılsızlara üsyan.. Dirçəliş.. Özünü anlayış.. Qaranlıqdakı işıqlar.. Təbəqəsiz sətirlər.. Mücərrəd partlayışlar.. Zamansız axtarışlar.. Məntiqsiz təqiblər.. Mənasız təkləmələr.. Uğursuz təpikləmələr.. və mən yenə də Xano.. Əqidəm dəyişməz.. Müqəddəs ASAV..] Allahım mənim düşüncələrim sənə qarşı çıxmaq deyil... Nə də səni inkar etmək deyil...

Axı sən sadəcə bu qədər dar, cılız, ancaq arzu yerinə yetirən sehrbaz və ya mövcud olmayan sarayın təxəyyül otağının parıldayan taxtında oturan uzun, ağ saqqallı “Allah baba” deyilsən..!!

Axı sən yaslarda : “Gec gələnlər narahat olmasın hamıya yemək çatacaq deyən o gözü ac, alçaq mollanın çörək naziri də deyilsən..!!”

Axı sən coca-cola bankomatına oxşayan 20 qəpiyə arzular yerinə yetirən nəzir qutusunun içində də deyilsən..!!

Axı sən gününü bazlıqla, zinayla keçirən cavan oğlanın gecə gəlib qıldığı namaz da deyilsən..!!

Mən bilirəm sən hardasan... Sən sağdasan, sən soldasan, arxada, öndə, göydəsən, buludlar arasında, quşların cəh-cəhindəsən sən, axan çaylardasan, hüdudsuz dağlardasan, ağ qızılgül ləçəklərindəsən, sən üfüqdəsən, sən məndəsən, içimdəsən, ətrafımdasan, sən bütün dünyasan... və mən səni daha axtarmıram.. Çünki mən bilirəm.. Sən hər yerdəsən..

[Cahillik.. Hisslərimdə oyanış.. Ağılsızlara üsyan.. Dirçəliş.. Özünü anlayış.. Qaranlıqdakı işıqlar.. Təbəqəsiz sətirlər.. Mücərrəd partlayışlar.. Zamansız axtarışlar.. Məntiqsiz təqiblər.. Mənasız təkləmələr.. Uğursuz təpikləmələr.. və mən yenə də Xano.. Əqidəm dəyişməz.. Müqəddəs ASAV..]

## *Mənim əvəzsiz Şəhzadəm*

Gəl Tanrıdan danışaq... Sən onun ən gözəl mələyi.. Mənsə cənnəti sənə görə arzulayan rəssam.. Çəkərəm səni hər an..

Gəl İnsandan danışaq... Sən ən günahsızı ol.. Mənsə səni yoldan çıxaran şeytan.. Əl çəkmərəm səndən heç bir zaman..

Gəl Qadından danışaq.. Sən ol qadın dodaqları.. Mənsə dodaqdan çıxan qeybət.. Darıxmazsan mənsiz o an..

Gəl Tahehdən danışaq.. Sən yazılanı pozmayacaq qədər aciz bir insan ol.. Mənsə dinsiz kafir.. Təki hər dəfə həyatımı sevgimlə yaz..

Gəl Qüssədən danışaq.. Sən ol üzümdəki yalançı gülüşlərin kölgəsi.. Səni hər an dadmaq üçün gülüm hər yaz..

Gəl Dünyadan danışaq.. Sən Afrikanın rəngarəng təbiəti ol.. Mənsə hər an səni nurlandıran Günəş olum.. Parlayaq gəl ömür boyu..

Gəl Dənizdən danışaq.. Sən Ölü dəniz ol.. Şəffaflığı kimi olsun sevgin.. Mənsə sənin sahilindəki qumlu sahil.. Və görüşək sahil boyu..

İstəsən hərdən Səmadan danışaq.. Sən Günəş ol.. Mənsə Mars kimi elə hey dönüm ətrafında.. Həsrətimiz minilliklər boyu çəksin..

Biraz da Hərdəmxəyal olaq.. Sən Pərvanə ol.. Mənsə Şam kimi əriyim sənin sevgindən.. Sevgimiz az olsun amma əsərlər gəzsin..Gəl Mənsiz qal sən.. Görək buna dözərmisən..? İstəmirsən.. Sevmirsən..? Olsun mən ki, sevirəm.. Səni sevirəm.. Günahlarla

sevirəm.. Həm də çox sevirəm... Mənim əvəzsiz Şəhzadəm...

## *Parçalandım*

Parçalandım.. Sındı son xəyallarım.. Anlamadın ki, dost.. Gəl mənimlə qaçaq dedim uzaqdakı xəyallara.. Səmadakı ulduzlara. Qaçaq dedim.. Ayrılaq bu insanlardan.. Aramızı vuranlardan.. Gəl qaçaq dedim.. Səma üsyan etdi bizə.. Səni gizlətdim. Tək döyüşdüm. Qayalıqlar dalğalarımı param-parça etdi. Yıxıldım.. Səni istədim yanımda. Gücüm, inamım, ümidim, sevgim.. Dənizi ikiyə böldüm.. Peyğəmbərim Sevgim oldu... Tanrın oldum.. Parçalandım.. Sındı son xəyallarım.. Anlamadın ki, dost.

Zaman məni çürütdü.. Paslandı ümidlərim.. Sənsə ümid oldun.. Sən yeni ümid oldun.. Sən yeni sevgim oldun.. Dəniz oldun.. Dalğalandım.. Bir gün bitti. Sənsiz qaldım.. Tək qaldım dost.. Mübarizədə tək qaldım.. Bəlkə sən olmasaydın tək daha güclü olardım.. Çünki səni hər kəsdən çox sevirəm.. Sənsə mənim zəif"imsən.. Sənsə mənim gözəlimsən... Parçalandım.. Sındı son xəyallarım.......

## *Ehtiyacım var*

Dalğalana bilmirəm.. Ehtiyacım var sevgiyə. Günəşi görmürəm.  Səsim gizli qalır içimdə.. Sən orda, mənsə burda.. Bizliyə daxil təkliyik ikimizdə.. Bitsin.. Bitməsin.. Bitsin.. Bitməsin.. İstəmirəm.. Qaranlığını sevmirəm yar.. Sükutun incidir məni.. Sən daha yoxsan ki.. Hardasan..? Xəyalımda..? Yox istəmirəm xəyalımda səni.. Əgər sənə istədiyimdə toxuna bilmirəmsə cəhənnəm olsun hər şey.. Cəhənnəm olsun bütün dünya.. Qarşıma çıxanlar çox güclüdür.. Mənsə zəifləyirəm gün-gündən.. Onlar mənim zəifimi öyrənəcəklər gec ya tez.. Bu sənsən.. Hamıdan gizlətdiyim.. Sevdiyim.. Günəşi sevmirəm.. Son günlərdəki solğunluğu bürüyür içimdəki istini.. Mənsə hələ də sükutumla sevişirəm.. Mənsə hələ də hisslərimlə gəzişirəm..

## *İlk sevincim*

Salam bidənəm.. Bu sənə ilk məktubumdu.. Bilirsən sənlə görüşmək mümkün deyil, görüşsək belə

sən yanımda olanda heç nə ağlıma gəlmir.. Sadəcə sən, sən, sən başqa heç nə.. Telefonla da heç nəyi danışmaq olmur... və mən fikirləşdim ki, sənə məktub yazım.. Bilmirəm nə qədər, bilmirəm neçə gün.. Sadəcə belə mən sənə demək istədiyim lakin deyə bilmədiyim sözləri çatdıracam.. Bəlkə belə sən məni anlayasan..

İnsanın dostlarının olması yaxşıdı.. Düzdü səni çox qısqanıram hamıya, hər kəsə.. Bunu gizlətsəm belə.. Ən azından gizlətməyə çalışıram.. Amma hərdən sənin mənim yox başqasının tərəfini tutduğunu görəndə... O an danışmamağa çalışıram.. Çünki səni itirəcəyimdən qorxuram.. Amma sən məni yenə də anlamırsan.. Bəlkə də anlayırsan amma özünü bilməməzliyə vurursan.. Niyə..? Səbəbini mən bilmirəm.. Belə getsə heç bilməyəcəm deyəsən.. Başa düş mən səni dostlarından ayırmaq istəmirəm.. Amma sən.. Nəysə...

Qəribədi.. Sən deyirsən ki, mən səninlə telefonda bir az bərkdən, ya soyuq danışanda elə hiss edirsən ki, mən daha səni sevmirəm, səni istəmirəm.. Amma sən çox vaxt mənimlə necə soyuq danışdığının fərqində belə deyilsən.. Bəs mən onda sənin haqda nə fikirləşim..? Nə edim bəs mən..? Ya da hərdən işim

olanda yəqin elə fikirləşirsən ki, mənim yanımda başqası var.. Amma bu heç də belə deyil..

Virtualda isə sənin üçün mən demək olar ki, daha yoxam.. Girirsən, sən online-san amma nədənsə yazmırsan...və hərdən mənim bəzi statuslarıma yazdığın boş sözlər olur.. Daha sərf etməyəndə isə çıxırsan...və yenə də mən pis oluram, nə qədər əsəbi olsam da, səni incitdiyimdən qorxuram..

Məncə hələlik bu qədər bəsdi.. Mən yenə yazacam.. Sadəcə hələ ki, ancaq burdan.. Belə.. Bəlkə yazacağım məktublarda sən məni tapasan..

Dünya... Çox lütfükarsan.. Amma sıxırsan.. Dərdlərin çoxdu.. Girişində ağrılar vardı, indi səni tərk edirəm.. Sən bitirsən amma yaddaşımda geniş bir səhifə qoyaraq... Əlvida..

## *İnsanlıq*

Gecə... Qaranlıq... Şəhərin səssiz, soyuq küçələrinin boz divarlarının sakitliyi... İndi zamanın vəhşi tıqqıltısı belə eşidilmirdi. Sanki o da bu labüdlüyü pozmamaq üçün öz nəfəsini son dəfə dərib dərin yuxuya getmişdi. Bu şəhərin sakitliyini pozan hardan gəldiyi, kimə aid olduğu bilinməyən "qeyb" səsi idi. Şəhərdə insanlıq son günlərini yaşayırdı. Bəlkə də artıq yaşayıb-bitmişdi bu yol – insanlıq yolu. Bəlkə də artıq nə inam, nə sevgi, nə sevinc, nə qeyrət, nə dinçilik, nə də ümid qalmışdı bu şəhərdə... Amma bu qeyb səsini hərə bir cür eşidirdi. Kimini keçmişə aparırdı, kiminin məhv olmuş gələcəyini bir daha gözləri önündə canlandırırdı. Şəhər başdan-başa maskalarla bəzədilmiş, dondan-dona girmişdi. Bu son qalıqlardan biri idi. İnsanlığın son qalıqlarından...

Hər kəs göz qorxusu yaşayırdı. Dünya gözəlliyinin keçmiş və ən iri meqolopolisi olan bu şəhər sanki meşə qanunlarına tabe olmuşdu. Burda ağıllılar yox, güclülər və arsızlar hökmranlıq edirdi və özlərindən başqa hamı əzilirdi. Hətta qeyb səsi də onlarda vicdan duyğusunun simlərini belə tərpədə bilməmək acizliyi daşıyırdı. Axı bu belə olmamalıydı. Bu gələcək belə formalaşmamalı, belə gerçəkləşməməli idi. İnsanlığın hələ çox arzusu vardı.

Yaşamaq – amma insan kimi, anlamaq – istədiyi hər şeyi, qarşı durmaq gücü – onu üzən hər hadisəyə qarşı... və belə-belə bir neçə milyonlarla arzu, istək, ümidlər vardı. Amma bu gün artıq onlar yox dərəcəsində idi. Sanki yoxdan bir parıltıyla meydana gələn bu hiss sıçrayışları indi boşluğa, heçə çəkilmişdi. Təzahür dünyasının təxəyyül varlılığı idi indi təkcə qalan, eşidilən və birdə O, yalnız O idi, Onu isə..... Onu isə artıq heç kim çoxdandı nə görür, nə eşidirdi, bir sözlə ondan artıq heç kimin xəbəri yox idi. O daha keçmirdi bu torpaqlardan, onun müqəddəs ayağı dəymirdi burdakı varlıqlara və heç kəs hətta xəyalına belə gətirə bilmirdi artıq onun üzünü. Heç bir varlıq onu xatırlamırdı, yadına salmırdı. Bəlkə də istəmirdi, bəlkə də onun varlığını artıq unutmuşdular, bəlkə o da artıq hər bir gözəl hiss kimi zamanın dərinliyində boğulub qalmışdı.

Şəhər çox soyuq idi, bunun səbəbi ildən-ilə artan və keçmişdən gələn insanların inamının itməsi idi. Yox...!!! Axı... Axı... Axı bu niyə belə oldu ?.. Niyə məhz bu varlıq ən çox burda görünmədi,burda o öz mənliyini itirdi? Niyə? Niyə? Niyə? Axı hamı bu şəhərdə xoşbəxt idi. Ölkənin ən çox təbii sərvəti bu şəhərdə idi,ən gözəllər bu şəhərə tabe olurdu, hündür və yaraşıqlı binalar, qədim sivilizasiya abidələri, insan səsləri kəsilmirdi bu şəhərdən amma indi... İndi isə

bunların heç birindən əsər-əlamət belə qalmamışdı. Sadəcə 3 söz bəs edər bu şəhəri təcəssüm etdirməyə. Yoxluğa bürünmüş şəhər..... və birdə O hiss... Yoxluğa bürünmüş o hiss... Bir zaman vəhşi ağrılar şəhəri bürüdü. Kimsə hönkürtü, bağırtı, ah-nalə ilə ağlıyırdı.

Hmmm... Çox maraqlı idi. Bu deyəsən körpə səsi idi... Deyəsən... Əlbəttə... Əlbəttə bu körpə səsi idi. Hər tərəfdən inilti səsləri gəlirdi və heç kim bu körpəyə kömək etmək fikrində deyildi deyəsən. Axı onlar öz hisslərini itirmişdilər və onlar artıq üzdə insan, içdə isə şeytana tabe olmuş varlıqlar idi.... Amma bir dəqiqə... Kimsə yaxınlaşırdı, nəsə tərpənirdi uzaqlarda. Tutqunlaşmış bir insan üzü görünürdü cansızlığın içində... Sadəcə üz və başqa heç nəyi insana aid etmək olmazdı. Amma yox... Deyəsən onun içində unudulan, yox olan o hiss qalmışdı... Çox dərində, çox cüzi qığılcımla işıqlanırdı o hiss... və o yaxınlaşırdı, o artıq körpənin bir addımlığında idi, bu da son addım...Qəfil sakitlik çökdü bu zülmətə... O əlini uzatdı, çox tərəddüdlər etdi, içində çox savaşdı amma qalib gəldi deyəsən öz hisslərinə, öz nəfsinə, öz günahlarına, öz içindəki şeytana...

Körpənin iniltisi isə bütün divarlarda əks olunub qulaqlarda son nidanı qoyurdu. Bu bir

müharibənin şəhidlərinin ah-naləsindən də güclü yayılır və aram-aram toxunurdu o hissə... Axı o artıq üfüqdə özünü təcəssüm etdirmişdi və get-gedə daha aydın təzahür edirdi buralara... İnsan vücudu körpəyə uzanan əlləri ilə onu qaldırdı, ağrıdan qızarmış sanki bu dünyaya üsyan edən, alovlanan, firuzə gözlərə bir qədər tamaşa etdi və bu an üfüq daha da parıldadı.. O hiss idi.... O hiss idi bu parıltının səbəbi. O deyəsən artıq əminliklə qayıdırdı sadəcə daha aydın deyildi. İnsan vücudu körpəyə bir müddət baxandan sonra onu bağrına basdı, möhkəm-möhkəm qucaqladı, üz-gözünü öpdü və qışqırdı möhkəm qışqırdı "Balam" qışqırdı.... və bu an .... bu an hər şey dəyişdi, o səslər, iniltilər, bağırtılar, nalələr yox oldu. Bu yorğun şəhərin üstündəki qara buludlar öz ağırlığını onun üstündən çəkdi. Boz küçələr işıqlandı şəhərə günəş düşdü və birdən qeybdə o səs eşidildi... O səs çox aramla, sakit və təmkinli halda təkrar edirdi... O hissin, o bacarığın, o duyğunun adını təkrar edirdi... İnsanlıq... insanlıq... insanlıq.....

# *X – dan Sonra*

Mən bu yola başlayanda heç kimim yox idi.. Hətta hər şeyini itirmiş bir heç idim.. Bu yolda hər cürə insan gördüm, fərqli-fərqli həyatlarla rastlaşdım.. Ən axmaqdan ən ağıllıya, ən füsunkarından ən mundarına, ən yaxşısından ən zibilinə kimi.. Bu həyat yolunda büdrədiyim anlar da az olmadı.. Düzdü hər büdrədiyimdə yanımda nə qədər pis insanlar olsa da, hardasa uzaqlarda bir yad mənə əl verib qaldırırdı.. Özgələr doğma oldu.. O bəlkə də mənim uydurduğum Şeytanım, bəlkə də məni gizlicə qoruyan mələyim idi.. Bu həyat macərasında çox dost deyə biləcəyim insana rast gəldim.. İtirdiklərim də az olmadı.. Amma hər itirdiyimdə qədir bilməyi öyrəndim.. Mən ilk intihar istəyimdə özümə inanmağı öyrəndim.. “Heçnə” idim.. Amma bundan da pis ola biləcəyini Babəkin nümunəsində öyrəndim.. Özümə inamımın ilk cücərtilərini və yeni həyatımda aldığım ilk nəfəsi, ilk dostum olan qoca çinar qədər dərdli Babəklə yaşadım..

Mən həyata inad yaşamağı, ona qarşı dirənməyə gücü Kapitan Bəhruzdan aldım.. Onun həyatının anlamını necə itirib, yenidən həyatına necə anlam qatdığını öyrəndim.. Həyatı dəniz sanmağı

öyrəndim.. O hər vurduğu dalğada boğulmaqdansa, rəqs etməyi öyrəndim..

Mən insanın necə manqurt doğulduğunu gördüm.. Hətta düşüncələrinə belə qadağa qoyulan vətəndaşları olan hökumətlərlə rastlaşdım.. Amma bütün bunlara qarşı çıxacaq qədər iradəli insanlar gördüm.. Hər dəfə adının qabağında "Cənab" dediyim Berkdən dözümlülük öyrəndim.. Mən Anarxistlərdən səbr etməyi və ədalət gününə bütün varlığı ilə inanmağı və gözləməyi öyrəndim..

Bu mükəmməl Liderin qarşısında hətta onun özünün səndən sözün əsl mənasında dəfələrlə yaxşı olduğuna əmin olduğunu bilə-bilə özümlə fəxr etməyi öyrəndim..

Mən Səssizlər yarımadasında susmağı öyrəndim.. Susaraq danışmağı, görmədən baxışmağı öyrəndim.. Bu sükutda Aytacın gözlərində yenidən sevməyi, sevgini yenidən anlamağı öyrəndim.. Dənizdən əsən küləkdə, sahilin isti qumlarında, sevgilimin incə ruhunu oxşamağı öyrəndim.. Mən Aytacın dodaqlarından çıxan sevgi kəlmələrində surrealın, həyatın xəyalını yaşamağı öyrəndim.. Mən yeni həyatımın ilk sevincini səbəbsiz tərk edib getməyin acısını öyrəndim.. Mən bu yolda heç tanımadığım insanlardan doğmalığı öyrəndim.. Mən

hətta onu param-parça sındırıb, tərk edəni sevənləri tanıdım...

Mən hətta özümdən belə gizlətdiyim yuxularımda səhvlərimi görməyi öyrəndim.. Həyatda hər bir qorxunun bir zəiflik olduğunu öyrəndim və qorxularımı yox etməyi, onları boğmağı, üstün gəlməyi öyrəndim.. Mən hər kəsilən damarda, hər asılan boyunda, hər atılan hündürlükdə, hər intihar qoxusundakı mənasızlığı öyrəndim.. İntiharın heç vaxt seçim olmadığını və Allahın niyə bunu haram buyurmasını öyrəndim.. Mən hətta virtualdan reala keçsə belə, sevgidə mümkünsüz deyilən heç bir şeyin olmadığını öyrəndim.. Mümkünsüz yox - qorxu və cəsarətsizlik anlayışının varlığını qəbul etdim..

Mən ən müəmmalı baxışlarda belə incə bir sadəlik kəşf etdim.. Mən birliyin gücünü öyrəndim.. "Tək əldən səs çıxmaz" məsəlinin qərəzliliyini öyrəndim..

Mən bir körpənin duasında ana məhəbbətinin aliliyini öyrəndim.. Hisslərin mükəmməlliyi nə boya, nə yaşa, nə cinsə baxmır.. Hissləri nə qədər cəmiyyət formalaşdırsa da, insan şəxsinin də təsiri bir o qədər çoxdur..

Mən dünyanın hətta ən zibil tullantısı olsan belə bundan daha yaxşısını gözləməyi öyrəndim..

Həyatı həmişə dörd hərfə böldüm.. A, B, N, X...

A - Həyatımda qadınları həmişə bu hərfə bənzətdim.. Həmişə birinci olmağı xoşlayırlar.. Həmişə zərif, incə amma həm də lider ola biləcək qədər güclü.. Əgər bir qızın sənə tamamilə aid olmağını istəyirsənsə, çalış ki, onun gözündə sən Tanrıya çevriləsən... Qadınlar xəzinədir.. Qadında nəsə gizli olmalıdır.. Əgər onda gizli heçnə qalmayıbsa deməli o artıq qadınlığını itirib.. Qadına həmişə vacibliyini, sevildiyini deməli, göstərməlisən ki, o da qadın aliliyini, müqəddəsliyini unutmasın...

B – Kişiləri həmişə bu hərfə bənzətdim.. “Hər bir uğurlu kişinin arxasında bir qadın dayanır.” Amma necə ki, kişilər qadınsız olmur, qadınlar da kişilərsiz nəinki bu birinciliyini ümumən varlığının önəmsizliyini dərk edirlər.. “Biz oğlanlar dəniz kimiyik sevgilim.. Çox durğunuq, hərdən ləpələrimizlə çoxlarını rəqs elətdirərik.. Amma sən bizim sakitliyimizə baxma bidənəm.. Bizim də hisslərimiz var.. Biz sevdiklərimiz incidəndə biz dalğalanarıq.. Və qarşımıza keçəni sürüyüb apararıq.. Biz oğlanlar dəniz kimiyik sevgilim.. Bu ümmanda

min gəmi üzər.. Biri gələr biri gedər.. Amma bu gəlib gedənlər bizə həyat təcrübəsi qazandırar.. Sən heç gəmi üzməyən dənizdə dənizlik gördünmü.? ”

N – Bu hərfi mən həyatımın dönüş nöqtəsi adlandırdım.. Hər kəsdən fərqləndirdim.. Həyat “N” oldu.. Hərdən fahişə oldu həyat.. O sənə qoyanda heç kim onun tərbiyəsindən danışmadı.. Amma sən ona "fahişə" deyəndə əxlaqsız sayıldın.. Sevgi dolu dünyaya addım atdım.. Fərqi yoxdur.. Sonda yenə qırıldım.. Həyat mən güləndə onu ağlatdı.. Onu güldürmək istəyəndə məni.. Fərqliliyim fərqsizliyim oldu.. Amma zaman elə dövran etdi ki, suallaşdıq.. Bu həyatda gözlərin görə-görə sevdiyini başqasına verməkdən ağrılı heçnə yoxdur.. Sonra mən anladım ki, qaçmalıyam xəyallarımdan.. Heyvanlar doğmalaşdı.. İnsanlar uzaqlaşdı.. Nə vaxtsa canım kimi sevdiyim insanların bugünkü fahişəliyini görəndə tüpürdüm bu dünyaya..

Sonra həyatıma sanki yenidən doğuldum.... Və beləcə “X” anlayışına qapıldım.. Mənim bilmədiyim, tanımadığım, anlamadığım, sevmədiyim, görmədiyim hər şey, hər kəs.. Bəs mənə maraqlı olanlar..? Bəs X-dan Sonra..?

X – dan sonra... X-dan sonra mən çox yeniliklərlə rastlaşdım.. F, t, n, z və s... Yeni hərflər,

yeni insanlar, yeni həyatlar, yeni sevgilər... Mən axtardığım yeni həyatı tapdım.. Yox, daha doğrusu bu yeni həyatı özüm qurdum.. Yenidən.. Başdan.. Sıfırdan... X-dan sonra bir həyat oldu... Və bu həyat davam edir.. Bu həyatı doyunca yaşayacam.. İndi isə mən getməliyəm.. Mən yeni həyatımda ilk büdrəmə səbəbim olan sevdiyimin yanına getməliyəm.. Aytacım məni gözləyir.. Onun bu sözləri hələ də qulağımda cingildəyir.. "Sən həyatıma rəngləri gətirdin." Bir zərrədən ilhamlanıb dəniz boyda arzular yaradanda, bir sevgidən ilhamlanıb okeanlara sığsanmı..? İndi gözümə görünür xəyalların sevgilim..

Külək oldum sevgin üçün... Yanağına qonan son öpüşüm bəlkə də.. Hisslərim bəlkə də... Sən bəlkə də.. Yalnızlıq bəlkə də.. Depressiya bəlkə də.. Ağrı bəlkə də.. Nə olur-olsun amma mən Darıxıram sənin həyasız gözlərin üçün..

Külək üzümə vur onun saçlarını..oyanım arada onun gözlərində daldığım xəyallardan.. Dağılsın fikirlərim onun əllərinin dodağıma toxunuşu ilə... Diz çöküm qarşısında.. Qucaqlasın məni... Əbədilik istəmirəm.. Tək və tək onu istəyirəm yanımda..və başqa heçnə.. İstəmirəm sükutu... İstəmirəm milyonları.. Tək o bəs edər.. Tək o şərh etsin beynimdən ürəyimə gedən mücadilələrin nəticəsini..

Arada toxunsun üzümə.. Rənglәsin barmağıyla hәyatının rəngini üzümün cizgilərində... Bilirəm sevgilim məni gözləyir gedirəm onun görüşünə.. Onu ömürlük xoşbəxt etməyə..

Mən pis deyiləm.. Sadəcə insanların çoxunun gözü çirkli... Buludlar.. Dumanlı beyin.. Sükut.. Təyyarəni bu sükutda məşğul edən titrəmələr.. Bu gecə bir az qəribədir. Bir az da qəliz. Həmişəki kimi səma uldurlarla doludur. Ay bədrlənmiş. Yəqin indi hardasa kimsə vampirə dönüb.....